

# QƏDİM OĞUZ YURDU

# BAŞ LAYISQI

# QƏDİM OĞUZ YURDU –

# BAŞ LAYISQI

**(Ensiklopedik toplu)**

Azf-281642

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Bakı-2014

***Kitab görkəmli maarif xadimi* Əhməd Salman oğlu Yusiflinin *əziz və unudulmaz xatirəsinə ithaf edilmişdir.***


***İdeya müəllifi* – Abdulla YUSİFLİ**

***Tərtib edəni və ön sözün müəllifi* – Asif RÜSTƏMLİ**

***Elmi redaktoru* – İradə ƏLİBALA QIZI**

**"Qədim Oğuz Yurdu – Baş Layısqı",**
Bakı, "Ozan", 2014. 528 səh. + rəngli 16 səh.


Kitabda Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri olan Şəkinin Baş Layısqı kəndinin tarixindən, toponimikasından, etnoqrafiyasından, əhalinin etiqad yerlərindən – ziyarətgahlarından, bölgənin igid oğullarının Qarabağ savaşındakı şücaətindən, ömür və döyüş yolundan bəhs edilir. Filologiya üzrə fəlsəfə doktorları Əjdər Fərzəlinin və Kamil Adışırinovun təqdim etdiyi materiallar məhz bu kitab üçün yazılmışdır. XIX əsr Şəki əyaləti üzrə Baş Layısqıya aid əhalinin siyahıyaalınma sənədləri və onların faksimilesi ilk dəfə bu kitabda işıq üzü görür. İstinad edilən çoxsaylı maraqlı faktlar, arxiv materialları, daş kitabələr bu məkanın qədim oğuz-türk yurdu olmasını bir daha təsdiqləyir.

Kitab Baş Layısqı kəndi ilə bağlı məlumat almaq istəyən geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

$Q\frac{4702060201 - 77}{On - 047 - 14} - 2014$

**© A.Ə. Yusifli – 2014**





## LAYİQSƏN SEVGİYƏ, SÖZƏ LAYISQI

Vaxtı, zamanı insanlar nurlu əməlləri ilə tarixə çevirir. Bəzən bir kəndin, bir obanın min illik həyat yolu, yaşam tərzi, daş kitabələrə atdığı silinməz imzalar, yaratdığı əmək alətləri, zinət əşyaları – ölkənin mədəniyyət tarixinin ən qiymətli səhifələrini təşkil edir. Bəzən yüzilliklərin dərin qatlarından işıq şüası, nur haləsi kimi süzülüb gələn nəsil-soy şəcərələri milli kimliyimizin etalonuna çevrilərək bir xalqın mənəvi dəyərlər yükünü çiyinlərinə qaldıraraq şərəf və ləyaqətlə keçmişdən gələcəyə daşıyır. Tariximizin qədim və zənginliyini etiraf etməkdə dünya arxivlərinin fondlarını xəcalət təri bürüsə də imdadımıza yenə də daş yaddaşlara həkk olunmuş kitabələr, arxeoloji qazıntılar zamanı tarixin dərin qatlarından boy göstərən maddi mədəniyyət inciləri çatır.

Beş il öncə ziyalıların sıx olduğu məclislərin birində Şəkinin Baş Layısqı kəndindən tapılmış, yaşı min illərlə ölçülən, ilkin araşdırmalar nəticəsində eramızdan əvvəl VIII-VII əsrlərə aid edilən nizə ucluqlarından, kəsici alətlərdən, qolbaqlardan, sırğalardan, muncuqlardan, müxtəlif bəzək əşyalarından iftixar hissi ilə söz açılsa da bu qədim yaşayış məskəninin adı - "Layısqı" məfhumunun etimologiyası suallara səbəb oldu. Həmin kəndin yetirməsi, milli dövlətçiliyə sadiqliyi ilə seçilən, çağdaş zəmanəmizin nüfuzlu ziyalısı və görkəmli hüquqşünası, baş ədliyyə müşaviri Abdulla Yusifli üzünü mənə çevirərək: - Asif müəllim, arxivlərlə sıx təmasdasınız - dedi. Bu adın mənşəyi, kəndin keçmişi ilə bağlı faktlar, sənədlər aramaq, tapmaq mümkündürmü? Şübhəsiz ki, suala birmənalı cavab vermək asan deyildi. Çalışaram – dedim. İlk baxışdan cavab qaneedici təsir bağışlamasa da Abdulla müəllim doğma kəndi haqqında səhih məlumat almaq, tarixin dərin qatlarına bələd olmaq, özündən sonrakı nəsillər üçün də "Layısqı" adına aydınlıq gətirtmək, bu sözün etimologiyası, elmi mənşəyi barədə dəqiq bilgiyə yiyələnmək niyyətində idi və milli təəssübkeşlik aurasında daha da gözəl görünən bu xoş məramı yalnız təqdir etmək və alqışlamaq olardı.

Azərbaycan Dövlət Tarix Arxivində apardığım uzunmüddətli araşdırmalar gözlənilməz zəngin və qeyri-adi tapıntılar ilə nəticələndi. Tariximizin 1805-1917-ci illərini özündə hifz edən arxivin 10, 24, 29 və 43-cü fondlarında aşkar edilən Layısqıya aid əyalət dəftəri əslində çox dəyərli bir dəfinəni xatırladırdı. Tapılmış yeni materiallardan məlum olur ki, Rusiya İmperiyasının müvafiq orqanları tərəfindən Şəki əyalətinin Layısqı kəndinə XIX yüzillikdə altı dəfə, xüsusilə 1824, 1831, 1842, 1863, 1873 və 1886-cı illərdə ekspedisiyalar təşkil edilmiş, əhalinin tərkibi, həyat tərzi, sosial-iqtisadi güzəranı, fərqli, özünəməxsus xüsusiyyətləri qeydə alınmış, siyahılar dövlət məmurları, kənd icması və nüfuzlu şəxslər tərəfindən möhür və şəhadət barmaqlarını sənədlərə basmaqla

təsdiqlənmişdir. Kəndin adı 1824, 1831 və 1842-ci il siyahıyaalınmalarda "Layısqı" (bu ad ərəb qrafikalı Azərbaycan dilində olan mətnlərdə fərqlidir - A.R.), 1863 və sonrakı sənədlərdə isə "Baş Layısqı" kimi qeydə alınmışdır. İllər üzrə əhalinin sayını nəzərdən keçirdikdə müşahidə olunur ki, 1824-cü ildə Layısqıda 195 ailə, 1831-ci ildə isə 190 ailə mövcud idisə, 1842-ci ildə bu rəqəm birdənbirə 155-ə düşmüş, bizə məlum olmayan səbəblərə görə mərkəzdənqaçma proses davam edərək 1863-cü ildə isə kənddə qalan ailələrin sayı 116-ya enmişdir. Beləliklə, əvvəl 40-45, sonralar isə 80-ə yaxın ailənin Layısqıdan köçməsinin şübhəsiz ki, əsaslı səbəbləri olmuşdur.

Ehtimal etmək olar ki, XIX əsrin 30-cu illərində Layısqı kəndi təbii fəlakət, sel daşqını və ya digər səbəblərə görə iki yerə parçalanmış, birini digərindən 10 km. məsafə ayıran, düzənlik sahədə yeni kənd salınmış, burada 40-45 layısqılı ailə yeni yaşayış məskəninin təməlini, bünövrəsini qoymuş, onlar yeni ünvanlarını coğrafi mövqeyə uyğun olaraq Aşağı Layısqı kimi tanıtmışlar. Ən çətin sınaqlardan mərdanəliklə, üzüağ çıxan, yer-yurdlarını tərk etməyən, ulu babalarının müqəddəs ocaqlarını, qədim məzar yerlərini Qafqaz sıra dağlarının cənub yamaclarında qoruyub yaşadan cəsur, zəhmətkeş insanların yaşadığı qədim məskən isə Baş Layısqı adlandırılmışdır.

Arxiv sənədlərində qeydə alınmışdır ki, layısqılıların əsas məşğuliyyəti əkinçilik (buğda, arpa, çəltik zəmiləri), baramaçılıq, arıçılıq və heyvandarlıq olmuşdur. Layısqılılar haqqında 1842-ci ilin siyahıyaalınmasında yazılmışdır: "Bu kəndin əhalisi taxılçılıq və ipəkçiliklə məşğul olur. Kustar sənətkarlığa meyilli deyillər. Bu kənddə altı dəyirman və iki çəltiküyüdən var. Əhali yaxşı vəziyyətdə yaşayır. Torpaqlar əsasən daşlıqdır. Onların meşələri yetərincədir (AR DTA fond-29, siyahı-1, saxlama vahidi-21, vərəq-71).

Bu yığcam və çox dəyərli informasiya çörəyi "daşlıq"dan çıxan Layısqılılar haqqında geniş təəssürat yaradır. Təbiətlə əlbəyaxa döyüşən, zəhmətsevər əhalinin "yaxşı vəziyyətdə yaşa"ması nisbi dəyərləndirmədir və əsasən ətraf yaşayış məntəqələri ilə müqayisədə gəlinən qənaətdir. Lakin, o da həqiqətdir ki, 6 dəyirmanın, o cümlədən 2 çəltiküyüdənin bir kənddə mövcudluğu böyük hadisə olmaqla yanaşı məhsul bolluğuna, ahəngdar iş prosesinin intensivliyinə bariz nümunədir. Etiraf edilməlidir ki, altı dəyirman bir kənd üçün həddən ziyadə olsa da, şübhəsiz ki, ətraf kəndlərin də dəyirmana olan ehtiyacı məhz Layısqıda ödənilmişdir.

İstinad etdiyimiz sitatda "Əhali yaxşı vəziyyətdə yaşayır" fikri yalnız iqtisadi anlamda deyil, daha geniş mənada qəbul olunmalıdır. Layısqı kənd camaatı içərisində təhsil almış insanlar, ziyalılar, mollalar, əfəndilər, döyüşçülər müəyyən zümrələr təşkil etmişdir. Maraqlıdır ki, bu bölgədə hörmət əlaməti olaraq nüfuzlu insanlara, ziyalılara, geniş dünyagörüşlü şəxslərə "molla", "əfəndi"





deyilmişdir. "Əfəndi" sözünün əyalətdə geniş yayılmasının səbəblərindən biri də bu mahalın - Osmanlı Türkiyəsinin mənəvi təsir dairəsinə düşməsi ilə şərtlənir. Bəzən layiq olmayan insanlara da "molla", "əfəndi" deyə müraciət olunması əslən Layısqıdan olan, aşıq poeziyamızın görkəmli nümayəndəsi Molla Cüməni də hövsələdən çıxarmışdır. O, məsələyə qeyri-ciddi yanaşmanı sərt tənqid edərək demişdir:

*"Əlac yoxdur əfəndidən, molladan,*
*Həqiqətin binasını axtarım."*

***

1980-ci ildə Baş Layısqı kəndindən bir küp-qəbirin aşkar edilməsi tariximizin dərin laylarına işıq saldı. Eramızdan əvvəl VIII-VII əsrə aid edilən Layısqı tapıntılarının içərisində insan sümükləri, bəzək əşyaları ilə yanaşı xeyli nizə ucluqları da vardır. Bu tapıntı ən qədim layısqılının nüfuzlu sərkərdə, cəsur döyüşçü və ya mahir ovçu olduğuna işarədir.

Kürəkçay (1805), Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrindən sonra Azərbaycan türkləri Rusiya İmperiyasının ordusunda hərbi xidmət əvəzinə əsgəri vergi ödəsələr də, Şəki əyalətində, o cümlədən Layısqıda ehtiyatda olan döyüşçülər vergidən azad idi və müharibə şəraitində onlar yüksək səviyyədə silahlanaraq hərbdə iştirak edir, sülh şəraitində isə ipəkçilik, heyvandarlıq və ovçuluq ilə məşğul olurdular.

1824-cü il sənədlərinə əsasən Layısqının ilk ehtiyatda olan döyüşçüləri 7 nəfərdir. Onlar Balaca Ağa Şıxqulu Yüzbaşı oğlu, Çələ(bi) Ağa Hacı Qasım oğlu, Zaman Hacı Qasım oğlu, Əbdürrəhman Ağa Məmmədəli Ağa oğlu, Yusif Məmmədəli Ağa oğlu, Şıxı Qaragöz oğlu və Əhməd Əli Şıxı oğlundan ibarətdir. 1831-ci ildə Layısqıdan olan ehtiyat döyüşçülərin sayı 4 nəfərə enmiş və sonrakı illərdə bu zümrə ləğv edilmişdir.

Sənədlər üzərində müşahidələr belə bir qənaətə gəlməyə əsas verir ki, layısqılı ərənlər ailənin qadın üzvlərinin adlarının siyahılarda yer almasına qısqanclıqla yanaşmış, bu sahədə mərhəmliyə üstünlük vermişdilər. Altı ekspedisiyadan beşində layısqılı qadınların yalnız sayı qeydə alınmışdır. İstisna olaraq 1842-ci ildə kənd əhalisinin siyahıyaalınmasında kişilərlə bərabər xanımların da adları yazılmışdır.

Bu incə məsələdə bir məqama xüsusi diqqət yetirilməlidir. Ənənəvi olaraq sənədləşmə işlərini qeyri türklər həyata keçirdikləri halda 1842-ci il siyahıyaalınmasını Laysıqıdan yeddi nəfərlik qrup icra etmişdir. Sənədə birinci imza atan Layısqının 70 yaşlı (O, 1772-ci ildə anadan olmuşdur –A.R.) nüfuzlu ağsaqqalı və ziyalısı İsrafil Bayram oğlu olmuşdur. Onun ardınca isə Allahyar Məhəmməd Vəli oğlu, Məhəmməd Ramazan oğlu, Şirin Rəfi oğlu, Kərim Şəfi oğlu, Bəkir Os-

man oğlu və Oruc İmamqulu oğlu qol çəkmiş, Əli Əfəndi Tahir oğlu isə imzaları təsdiqləmişdir (bax: AR DTA fond-29, siyahı-1, saxlama vahidi-21, vərəq-97).

İsrafil Bayram oğlunun ailəsi və təsərrüfatı haqqında məlumatlar yığcam olsa da fikir söyləməyə əsas verir. O, kəndin ən varlı adamı olmayıb. Bir atı, beş iribuynuzlu mal-qarası, buğda, arpa və çəltik üçün torpaq sahəsi, on iki min ağacdan ibarət baramaçılıq üçün bağı var idi. İsrafil Bayram oğlu Sona xanım ilə ailə qurmuş, bu izdivacdan onun Qurban (digər sənədlərdə Qurbanəli – A.R.) və İbrahim adlı iki oğlu dünyaya gəlmişdir. 1842-ci il sənədinə əsasən Qurbanəli İsrafil oğlunun 30, İbrahim İsrafil oğlunun isə 20 yaşı vardı. Bu vaxt kiçik qardaş subay, Qurbanəli İsrafil oğlu isə Xanım ilə ailə hayatı qurmuş, bu evlilikdən onların 5 yaşında Usub (Bu ad təhrif edilib, əsl adı Yusifdir – A.R.) və 3 yaşında Həsən (Bu ad da yanlışdır. İsrafil Bayram oğlu kiçik nəvəsinə öz babası Hüseyn Əfəndinin adını vermişdir – A.R.) adlı övladları var idi. Aradan 21 il vaxt keçir. Bu zaman ərzində Baş Layısqı kəndində baş verən dəyişiklikləri izləmək müşkül məsələdir. Yalnız 1863-cü ildə yerli əhali yenidən siyahıya alınmışdır. Bu sənədə əsasən İsrafil Bayram oğlunun ailəsindəki dəyişikliyi izlədikdə İbrahim İsrafil oğlunun adına rast gəlmirik. Amma onun böyük qardaşı Qurbanəli İsrafil oğlu bu müddət ərzində müqəddəs Kəbəni ziyarət edərək "hacı" fəxri tituluna layiq görülmüşdür. Baş Layısqı kəndinin 1863-cü il siyahıyaalınmasında başdan birinci yerdə Hacı Qurbanəli İsrafil oğlunun adı yazılmış, 60 yaşında olduğu qeyd edilmiş, oğlanlarından Molla Yusif Hacı Qurbanəli oğlunun 26, Hüseyn Hacı Qurbanəli oğlunun isə 20 yaşında olduğu göstərilmişdir.

Qəribədir ki, on il sonrakı – 1873-cü ilin sənədlərində isə Hüseyn Hacı Qurbanəli oğlunun adına rast gəlmirik. Amma onun böyük qardaşı Yusif Əfəndi Hacı Qurbanəli oğlunun adı nüfuzlu şəxs kimi kəndin siyahısında birinci qeyd edilmiş, ailənin tərkibi 5 kişi, 3 nəfər qadından ibarət olduğu göstərilmişdir. XIX əsr Baş Layısqının adlı-sanlı ziyalılar təbəqəsinə mənsub olan bu nəsil şəcərəsini sənədlər üzrə izlədikcə 1886-cı ildə ailələrin siyahıya alındığı əyalət dəftərində birinci sırada yenə Yusif Əfəndi Hacı Qurbanəli oğlunun adı yazılmışdır. Onun 52 yaşı olduğu qeyd edilmiş, başqa sözlə 1834-cü ildə doğulduğu vurğulanmışdır. Böyük oğlu Molla Salman 1864-cü ildə dünyaya göz açmış, 1876-cı il dekabrın 13-də doğulan ikinci oğluna isə Yusif Əfəndi babası İsrafil Bayram oğlunun şərəfinə İsrafil adlandırmışdır.

Yusif Əfəndi Hacı Qurbanəli oğlunun həyat yoldaşının və yeganə qızının adı sənəddə göstərilməmişdir. Kənd icmasının dini rəhbəri olan Yusif Əfəndinin 2 evi və 9 atı olduğu qeyd edilmişdir. Əhməd Salman oğlunun bu sətirlərin müəllifinə söylədiyinə görə babası Yusif Əfəndi 1888-ci ildə, 54 yaşında, Qədir gecəsində yuxu gördüyünü, Məkkəyə ziyarətə gedəcəyini və oradan bir daha geri qayıtmayacağını yaxınlarına bildirir. Kənd əhalisi ilə halallaşır,





böyük oğlu, ərəb və fars dillərini mükəmməl bilən, 20 yaşlı Molla Salmanı öz yerinə dini icmanın rəhbəri təyin edir. Müqəddəs yola çıxmamışdan öncə, camaatla vida mərasimində Molla Salman atasını qucaqlayaraq kövrək səslə deyir:

- Ata, bizi kimə tapşırıb gedirsən?!

Yusif Əfəndi gənc oğlunun sualına müdrikliklə, hamının eşidəcəyi bir səslə cavab verir: - Mən Sizi halallığa, düzlüyə, ədalətliliyə tapşırıb gedirəm. Əgər bunlara əməl etsəniz sizdən nigarançılığım olmayacaq. Kənd əhli bu dəyərli fikirləri Yusif Əfəndinin son tapşırığı kimi qəbul edir.

Molla Salman atasının nəsihətlərini müqəddəs ayələr kimi yerinə yetirərək ədalətlə, halallıqla, xeyirxahlıqla kənd icmasını idarə edir. Atasını görmək, onun özünü və ya qəbrini ziyarət etmək ümidilə bir neçə ildən sonra evini oğlu Məmmədə "həvalə" edərək Məkkə ziyarətinə yola düşür. Hacı tituluna layiq görülsə də atasından dəqiq məlumat əldə edə bilmir və Məkkədən Layısqıya qayıdır. Bu zaman Hacı Salman Yusif Əfəndi oğlunun ailəsində bir qız uşağı dünyaya gəlir. Hacı Salman tərəddüd etmədən onun adını ziyarət etdiyi müqəddəs şəhərin şərəfinə Məkkə qoyur (Məkkə Hacı Salman qızının nəvəsi Nail Nadir oğlu Qarabağ savaşında qəhrəmanlıqla döyüşərək şəhid olmuşdur – A.R.).

O, sovet dövründə gənclərə ibtidai təhsil verir, ərəb və fars dillərini tədris edir, arıçılıq və heyvandarlıqla məşğul olurdu. 1926-cı ildə 62 yaşında sonbeşik oğlu Əhməd Salman oğlu dünyaya göz açır. Sonbeşik oğlunu böyüdüb boya-başa çatdırmaq ona qismət olmur.

Hacı Salman Yusif Əfəndi oğlu 1928-ci ildə - 64 yaşında vəfat etmişdir. Bu nəslin varislərinə indi də Baş Layısqıda "Bayramuşağı" nəsli deyirlər və şübhəsiz ki, bu zaman qocaman kənd sakinləri Yusiflilər ailəsinin ulu babası, XVIII yüzillikdə yaşamış Bayram Hüseyn oğlunun xatirələrdə yaşayan mərdliyinə, xeyirxahlığına, ədalətliliyinə işarə edirlər.

1886-cı ildə Göynük sahəsinin pristavı Həbibbəyovun tərtib etdiyi, kənd sakinlərindən Molla Həbibulla İdris Əfəndi oğlunun, Hacı Əbdülqafur Əfəndi Hacı Əbdül Fəttah oğlunun, Kərim Səlim oğlunun və Əhməd Bayraməli oğlunun şəhadəti ilə Nuxa Qəza rəisinin köməkçisi, knyaz Andronikovun təsdiqlədiyi Əyalət dəftərindəki siyahıya əsasən bu vaxt Baş Layısqı kəndində 202 ailə, 1250 nəfərdən çox sakin yaşayırmış. Onlardan Gülməmməd Murtuzəli oğlu və Cəbrail Qərib oğlu ailəsilə Baş Göynükdən, Hüseyn Məhəmməd oğlu Qaxdan və Seyid Nurullah Məhəmmədəli oğlu 9 nəfərlik ailəsi ilə Cunud kəndindən Baş Layısqıya köçmüşdür.

Baş Layısqı kəndinin milli tərkibi bütün sənədlərdə tatar (türk) olduğu, dini dünyagörüş etibarilə Məhəmməd Peyğəmbərinin dininə mənsubluğu qeyd edilir, əhalinin soyad sonluqlarında Rusiya İmperiyasının köləlik nişanəsi olan «ov, yev və ski» şəkilçilərinə rast gəlinmir.

Baş Layısqıya aid kitabın hazırlanmasının təşəbbüskarı, arxiv materiallarının üzə çıxarılmasının ideya müəllifi və himayədarı, əsli, kökü və nəcabəti etibarilə layısqılı olan, yaxın dostum Abdulla Əhməd oğlu Yusiflinin 300 illik ata, baba və ulu babalarının nəsil şəcərəsi arxiv sənədlərinə əsasən xronoloji ardıcıllıqla belədir: 1. Murad Abdulla oğlu Yusifli (1998). 2. Abdulla Əhməd oğlu Yusifli (1962). 3. Əhməd Salman oğlu Yusifli (1926-2013). 4.Hacı Salman Yusif Əfəndi oğlu (1864-1928). 5.Yusif Əfəndi Hacı Qurbanəli oğlu (1834-1888). 6.Hacı Qurbanəli İsrafil oğlu (1803-1877). 7. İsrafil Bayram oğlu (1771-1834). 8. Bayram Hüseyn oğlu (1744-1828). 9.Hüseyn Əfəndi (XVIII) və s.

Hesab edirəm ki, Yusiflilər ailəsi ilə bağlı diqqətə çatdırılan bu nümunə hər bir layısqılı üçün də faydalı və əhəmiyyətlidir. Çünki onlar təqdim edilən siyahılara əsasən xronoloji ardıcıllıq üzrə öz nəsil şəcərələrini, ulu babalarının adlarını, iqtisadi imkanlarını çox asanlıqla izləmək fürsəti qazanacaqlar. Eyni zamanda bu örnək dövlət müstəqilliyimizin möhkəmləndiyi bir dövrdə "Rusiya İmperiyasının köləlik nişanəsi"ndən imtina edilməsi, soyadlarımızın milliləşdirilməsi üçün də çox mötəbər tarixi qaynaq, təcrübə mənbəyi sayıla bilər.

***

Baş Layısqı ilə bağlı arxiv materiallarının üzə çıxarılması Abdulla Yusifli üçün gözlənilməz sürpriz oldu. Doğrusu, axtarışlara başlayanda inanmazdım ki, bu qədər dəyərli sənədləri aşkar etmək, onları tədqiq və təhlil edərək dəyərləndirmək mənə nəsib ola bilər.

Üzə çıxarılan sənədlər kəndin tarixi üçün qiymətli məxəzlər sayılsa da, bir fakt istisna olunmaqla "Layısqı" sözünün etimologiyası, məna çalarları ilə bağlı bizə heç nə vəd etmirdi. Belə çətin durumda Abdulla müəllim ilə məsləhətləşib Azərbaycanda toponimik adların fədakar və istedadlı tədqiqatçısı, AMEA Nəsimi adına Dilçilik İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Əjdər Fərzəlini bu istiqamətdə araşdırmaya dəvət etdik. Onunla Baş Layısqıya getməyi, tarixi yerləri, müqəddəs ocaqları ziyarət etməyi, ağsaqqallarla görüşməyi planlaşdırdıq.

Əjdər müəllim təklifi məmnunluqla qəbul etdi. O, 2010-cu ilin may ayının 27-də Bakıdan Baş Layısqıya yollanan taksidə səfərin ürəyincə olduğunu, dəfələrlə şəkili dostlarının, o cümlədən "İpəkçi" qəzetinin sabiq redaktoru Salis Məmmədovun onu bu gözəl diyara qonaq çağırdığını, lakin imkanı olmadığını, indiki səfərə isə taleyin qismət etdiyi fürsət kimi yanaşdığını vurğulayırdı.

Axşamüstü Şəki şəhərində bizi Abdulla müəllimin qardaşı, fəlsəfə doktoru Mehman Yusifli qarşıladı. Baş Layısqı rayon mərkəzindən təxminən 35-40 km. məsafədə yerləşir... Bu da yaşıllığa bürünmüş, başı qarlı Qafqaz sıra dağlarının köksünə sığınmış qədim və sirli-sehirli Baş Layısqı...





Kənd üç tərəfdən təbii müdafiə sədləri – uca dağlar, sıldırım qayalar ilə əhatələnib. Yaşı min illərlə ölçülən qədim qalaların kurqanların, məzar yerlərinin bu günümüzə gəlib çatan izləri Layısqının strateji məkan və əski mədəniyyətimizin daşıyıcısı olduğunu təsdiqləyir. Ötən əsrin 80-ci ilində burada bir kurqandan tapılan 90-dan çox adda müxtəlif bürünc nümunələr Layısqının eramızdan əvvəl VIII-VII əsrlərdə mövcudluğundan, burada yüksək zövqlü insanların yaşadığından xəbər verir. Kəndin toponimlərində alban, hun, oğuz, qıpçaq və s. Türk soylarının, tayfalarının mifik düşüncələrinin izləri yaşamaqdadır. Baş Layısqı ilə dərindən tanış olmağımıza yaşı 85-i haqlamış (bir il öncə isə 88 yaşında haqq dünyasına qovuşmuş – A.R.) görkəmli maarif xadimi, işıqlı və müdrik ziyalı, xeyirxah el ağsaqqalı Əhməd Salman oğlu bələdçilik etdi.

Əslində Əhməd müəllim Baş Layısqı kəndinin çağdaş epoxasının canlı ensiklopediyasıdır. Geniş təfəkkürə, möhkəm yaddaşa, yenilməz iradəyə, aydın məfkurəyə malik şəxsiyyətdir. Əsil-nəcabətli ailədə dünyaya göz açan Əhməd Salman oğlu Yusifli iki yaşında ikən atadan yetim qalmış, ana himayəsində böyümüş, həyatın bütün məşəqqətlərindən, İkinci Dünya müharibəsinin odlu-alovlu yollarından mətanətlə keçmiş, ali təhsil almış, övladlarını vətənpərvərlik ruhunda böyüdüb tərbiyə etmişdir.

Əhməd müəllimin Layısqının dünəni, keçmişi haqqında söhbətləri gecə keçənə qədər davam etdi. Əjdər müəllim müsahibinə daha çox suallarla müraciət etdi. Vaxtsız yatsaq da, bülbüllərin zümzüməsi bizi obaşdan oyatdı. 28 May səhərinin Layısqıdakı gözəlliyi bənzərsiz idi. Əjdər müəllim üzü Çakıl dağlarına sarı dayanaraq ilkin təəssüratlarını belə ifadə etdi: "Vallah, adam bu cənnəti görəndə heyranlığını bildirmək üçün dayanmalı, fikrə getməli, düşüncəyə dalmalı olur. Bura Azərbaycanın gözəllik səltənətidir. Bu yerlərin əsrarəngiz təbiətində Layısqı sözünün mənasını görürəm. Dağlar burada bir-birindən lay-lay ayrılır. Yaşıllıqlar bir-birini lay-lay əvəz edir... Vadilər qarşımızda laybalay açılır. Başı qarlı zirvələrin yetirdiyi, sınağa çəkdiyi insanlar da təbiətin özünə oxşayır – gözəl, istiqanlı, qonaqpərvər, vüqarlı... Əhməd müəllimi bu dağlardan birinə bənzədirəm. Elə bilirəm onu "Avesta"dan, "Bilqamıs" dastanından, "Kitabi-Dədə Qorqud"dan tanıyıram."

Əjdər müəllimlə istiqlal bayramımız Layısqıda çox yaddaqalan oldu. O, kəndin ziyalıları, ağsaqqalları ilə görüşdü, Əhməd müəllimdən müsahibələr aldı, eşitdikləri barədə hər şeyi dəftərçəsinə qeyd etdi. Mən isə ziyalılardan Əvvəl Hüseynli və Şöhrət Həmidli ilə iki min metr yüksəklikdə yerləşən, ensiz dağ cığırları ilə Eşik qalasına qalxdım. IX əsrdə Alban çarlığı dövründə gözətçi məntəqəsi kimi tikildiyi ehtimal edilən, Baş Layısqı kəndi ilə Şin çayı arasında yerləşən üçbucaq şəkilli bu qala diqqətdən və tədqiqatdan kənarda qalmış, divarlarının böyük bir qismi sökülüb dağılmışdır. Maddi-mədəniyyət abidələrinə qayğının artdığı bir zaman-

da tarixi keçmişimizə ehtiram əlaməti olaraq Eşik qalasının bərpası məsələsinin vacibliyi barədə düşüncələr altında Layısqıya qayıdırıq. Molla Cümənin abidəsini, ev muzeyini, kənd məscidini, orta məktəbi, tarixi yerləri ziyarət edirik.

Baş Layısqıda yeddi qədimi ziyarətgah var. Şeyx Nurullah Əfəndi, Mütüş baba, Hacı Salah baba, Əfəndi baba, Qəsib baba, Nişanlı qız-oğlan və Günahsız gənclər ziyarətgahları... Bu ziyarətgahların hər biri haqqında kənd camaatı arasında əfsanələr dolaşmaqdadır. Əhməd Salman oğlunun təşəbbüsü və Yusiflilər ailəsinin maddi dəstəyi ilə bu ziyarətgahların sırasına daha ikisi əlavə edilib; Böyük Vətən Müharibəsində həlak olan və iştirak edən kənd sakinlərinin şərəfinə ucaldılmış möhtəşəm abidə və Qarabağ müharibəsində qəhrəmanlıqla həlak olanlar üçün salınmış "Şəhidlər xiyabanı"... Bu ziyarətgahlar ətraf yaşayış məntəqələri üçün də müqəddəs sayılır və layısqılıların and yerinə çevrilib.

Baş Layısqıdan zəngin təəssüratlarla Bakıya qayıtdıq. Görkəmli tədqiqatçı-alim Əjdər Fərzəli az zaman içərisində "Salam, Layısqı dağları" adlı kitabını yazıb nəşriyyata təqdim etdi. Bu onun elmi, ədəbi-bədii mövzuda yazdığı sayca on doqquzuncu kitabı idi.

Təəssüf ki, o 2011-ci il yanvarın 21-də qəflətən vəfat etdiyi üçün "Salam, Layısqı dağları"nın (2011) AYB-ın Natəvan klubunda keçirilən çox maraqlı təqdimatında iştirak edə bilmədi. Lakin, əsərində "Layısqı" sözünün etimologiyasına dair ciddi araşdırmalar aparmış, maraqlı qənaətlərə gəlmişdir. Əjdər Fərzəlinin fikrincə "Şəki rayonundakı "Layısqı" kəndinin, dağının və çayının adı uşağa çalınan "lay-lay"dan əvvəl gəlib. Bu kəndin, dağın və çayın adı bir hecalı "lay" koduna bağlıdır. Məhz bu koddan "Layısqı" sözü yaranıb. "Layısqı" öncə "Layıs" adlanıb. ...Mayıs və Layıs qədim Azərbaycan – türk qəbilələrinin adları olub."

Onun digər araşdırmalarına əsasən "Layıs adının çox qədimlərdə "sulu, işıqlı, gözəl vətən" mənası aşkarlanır." (Ə.Fərzəli. "Salam Layısqı dağları", Bakı, "Ozan", 2011).

Son tədqiqatlar zamanı üzə çıxan faktlar da Əjdər Fərzəlinin qənaətlərini təsdiqləyir. Xüsusilə Ural Dövlət Universitetinin professoru, Ural onomastika məktəbinin banisi Aleksandr Konstantinoviç Matveyevin (1926-2010) tədqiqatlarında, o cümlədə "Verşini kamennoqo poyasa" (Çelyabinsk, 1990) monoqrafiyasında müəllif Ural dağlarındakı yer adlarını incələyərkən "Böyük (baş) Layıs – Ur dağından 10 km. cənubda, Yanıq Layıs, Böyük Layıs dağlarından şimalda Qırıq Layıs dağları"nın mövcudluğunu göstərmişdir. A.K.Matveyev eləcə də Arxangelski vilayətinin Primorye rayonunda Layıskı qoruğu, Ural dağlarının qərbində, Avropa və Asiyanın şərti sərhəddində Baş Layıskı və Aşağı Layıskı dəmir zavodlarının olduğunu vurğulamışdır.

Sözün kökü, nüvəsi sayılan "lay" birhecalı olsa da, iki və daha çox kəmiyyət





göstəricisini özündə ehtiva edir. Layısqı yer adı olaraq bu mənada da özünü doğruldur.

Ə.Fərzəlinin "Layısqı" sözünün məna çaları barədə xüsusilə ikinci qənaəti, yəni bu məfhumun "sulu, işıqlı" yer anlamını daşıması barədə düşüncələri Təbrizli araşdırıcı Həsən bəy Hadinin iki cildlik "Türkcə etimoloji sözlük" (Təbriz, 2010) kitabındakı tədqiqat xarakterli mülahizələrinə də uyğun gəlir. Həsən bəy Hadi qədim türklərdə "lay" sözünün çağdaş düşüncəmizdəki kimi "lay – qat, təbəqə, kəsim" mənasını verməklə yanaşı (bax: H.Hadi. "Türkcə etimoloji sözlük", Təbriz, 2010, II cild, səh.11), komponentin ikinci tərəfinin - "ısqa – sulama, ısqı – sulu", "ısqı(n) – qızğın, odlu" (bax: H.Hadi. "Türkcə etimoloji sözlük", Təbriz, 2010, I cild) anlamlarını da daşıdığını vurğulamışdır. Başqa sözlə, Həsən bəy Hadinin təbirincə desək "Lay+ısqı" məfhumunun özü də iki qatdan, təbəqədən, kəsimdən ibarətdir və "od layı", "su qatı" mənasını verir.

Göründüyü kimi arqumentlər yetərincə mötəbərdir və "Layısqı" sözünün etimologiyası ilə bağlı mövzunu buradaca bitirmək olardı. Lakin, 1831-ci ildə kənd əhlindən Balaşağa Əhməd oğlu, Məhəmməd Şəfi oğlu, Oruc İmamqulu oğlu, Məhəmməd Ramazan oğlu, Sofi Yüzbaşı Məhəmməd Əmin oğlu, Abbas Qasım oğlu, Kərim Cabbar oğlu, Kovxa Dərviş oğlu, Kərim Şəfi oğlu, Hümmət Balaoğlan oğlu və digərlərinin (cəmi 14 nəfər – A.R.) imzaları ilə təsdiqlədikləri Azərbaycan türkcəsində ərəb qrafikası ilə yazılmış sənəddə kəndin adı fərqli göstərilmişdir. Sənədin faksimilesini verməklə yanaşı mətni transfonoliterasiya edərək olduğu kimi oxucuların diqqətinə çatdırıram: "Şəki vilayətinin Köynük mahalının Layiqsə kəndinin nüfus dəftəri. Biz, bu aşağıda siyahı üzrə olan adamların ittilai (xəbəri) ilə doğru və dürüstlük edərək məcmuin bu dəftərə yazdırmışıq. Hər şeyi, bu şeyi də gizli tutmamışıq. O səbəbdən adlarımızı yazdırıb möhür və barmaq basdıq. Fişəhri rəcəb-ül mərsəb (şərəfli rəcəb ayı – A.R.) 1247" (AR Dövlət Tarix Arxivi, fond-24, siyahı-1, saxlama vahidi-365, vərəq-366).



"Layiqsə" sözünün metateza hadisəsi nəticəsində "Layısqı"ya, bu məfhumun da rus məmurlarının "xidməti" sayəsində "Layski"yə çevrildiyini mötəbər faktlara söykənmədən iddia etmək niyyətindən uzağıq. Amma bu söz düşünmək, axtarışların yeni layını açmaq üçün də kifayət qədər əsas verir.

"Ey qonaq! Sənə Layiqsə - yolunu bu kənddən sal! Sənə Layiqsə - evimin qonağı ol! Sənə Layiqsə - bir qismət çörəyimi kəs, suyumu iç! Sənə Layiqsə sözümü dinlə. Layiqsə - layiqdir sevgiyə, sözə!..."

Qədim layiqsəlilərin – layısqılıların mənəvi dünyalarını seyr etsəniz qəlbinizin dərinliyindən bu yanıqlı səsləri, müdrik kəlamları eşidə bilərsiniz. Doqquz ziyarətgahı olan kənd bütövlükdə özü ziyarətgahdır! Sələflərin ənənələrini, qonaqpərvərliyini xələflər ləyaqətlə, layiqsəcəsinə indi də davam etdirir.

Bu günlərdə bir qrup ziyalı, o cümlədən görkəmli sosioloq-alim Əhməd Qəşəmoğlu, fəlsəfə doktorları Şahvələd Əliyev, Aytən Mehdiyeva, Ruhəngiz Eyyubova, Təbrizli ziyalı Vahid Abazari və b. (cəmi 15 nəfər) ilə Baş Layısqı ziyarətgahlarına baş çəkməyə, Eşik qalasını görməyə getmişdik. Bizi Molla Cümənin abidəsi önündə Mehman Əhməd oğlu Yusifli qarşıladı. O, bizə Baş Layısqı haqqında böyük sevgiylə, məhəbbətlə məlumat verirdi. Aşıq poeziyasının görkəmli nümayəndəsi, müdrik söz sərrafı Layısqılı Molla Cümənin ev muzeyinə, Qəbirüstü abidəsinə, müqəddəs ziyarət yerlərinə bələdçilik etdi. Zirvələr tənhalığı sevir. Eşik qalası da zirvədə, tək-tənha, yamyaşıl ağacların kölgəsində əsrlərin yorğunu kimi mürgüləyirdi... Bizi görən kimi oyandı, yuxusu qaçdı. Gileyini gizlətmədi... Ayaqüstü çıxışlarımız, vədlərimiz hiss etdim ki, onu qane etmədi. Doğrudan da, hər bulaq başında çaylaq daşlarından yeni qalalar tiksək də, tariximizin daş yaddaşı olan bəzi qədim qalalarımız qayğıdan kənarda qalır... Eşik qalası ilə görüşdən çətinliklə ayrılırıq...

Təkidlə imtina etməyimizə baxmayaraq Mehman Əhməd oğlu bizi evinə qonaq apardı. Anasının adını daşıyan qızı Səmənnaz xanım bizə süfrə açdı, mürəbbəli çay gətirdi. Burada Layısqı qonaqpərvərliyinin ən yaxşı nümunəsinin şahidi olduq. Mehman müəllim ata ocağında yaşayan və Yusif Əfəndi nəslinin milli-mənəvi dəyərlərə sadiqliyi ilə sayılıb-seçilən nüfuzlu nümayəndələrindən biridir.

...Layısqı və layısqılılar haqqında bundan sonra da yeni-yeni kitabların, monoqrafiyaların yazılacağına şübhə etmirəm. İnanıram ki, gələcəkdə də hazırlanacaq eyni mövzulu əsərlər üçün bu kitab mötəbər mənbə, məxəz missiyasını daşıyacaqdır.

Baş Layısqı həm nadir arxeoloji tapıntıları, həm də daşıdığı unikal adı ilə tariximizin dərin laylarından bu günümüzə boy göstərən qədim mədəniyyət ensiklopediyası, milli ləyaqət rəmzidir.

**Asif Rüstəmli**
***Filologiya üzrə elmlər doktoru, professor***





## «LAYISQI» SÖZÜNÜN ETİMOLOGİYASI

Bu sözün baş mənası onun iç yükünə – koduna - məzmununa bağlıdır. Baş məna: kökə aparan yol «yarpaqlardan», «budaqlardan» keçir. Burada hər «budağın» çoxlu budaqları - söz yaradıcılığında yeni yaranan sözlərlə əlaqəsi nəzərə alınmalıdır. Aşağıdakı misallara diqqət yetirək:

*«Qarabağ... Şuşada zəngin bir saray*
*Açılır qapısı, örtülür lay-lay.»*
*«Buludlar dağılır havada lay-lay» (S.Vurğun).*
*Kürəyi lay divar kimi bir oğul.*
*«Yol ver, çəkil önümdən, ey yolumu kəsən dağ,*
*Gün gəldi, yetər artıq, Sılaya varacağım.»*
(A.İldırım).

«Baş Layısqı kəndi rayon mərkəzindən (Şəkidən-Ə.F.) 35 km. aralıdır.» (ASE.l.211).

*«Layısqılı Molla Cümə*
*Baxıb səni bəyənibdir».*
*«Kəndim mənim Layısqıdır, Salah oğlu Cüməyəm».*
*«Mahalım Göynükdür, şəhərim Şəki*
*Layısqı kəndinin binasıyam mən.»*
(Molla Cümə).

«Lay. Cismin üst-üstə sıralanması». (Azərbaycan dilinin izahlı lüğəti. 3.1983.s.221).

«Layiqdir şeirə, sözə bənövşə».

Buludlar havada laybalay gedir və s.

Bu misallarda qapıların lay-lay (laybalay) açılması, buludların yenə də lay-lay dağılması, lay divar bənzətməsi düşünməyə əsas verir ki, «lay» bir hecalı söz kimi, ulu dildən gəlir. Ulu dildə sözlərin yaranması insanın maddi dünyaya inamı, müşahidələri və hər şeyi əlamətlərlə qəbul etməsi şəraitində başa gəlib. Dünyanın təbiət qanunlarına əsaslanaraq dərk edilməsi Tanrıçılıq adlanan ən qədim dinin özülündə dayanır. Elm «ibtidai təsəvvür» olmadığı kimi, Tanrıçılıq da «İbtidai din» olmayıb. Böyük ingilis alimi C.Çörçüvodun tədqiqatlarına əsaslansaq, Tanrıçılığa 100 min ilə qədər, bəlkə, daha artıq yaş vermək olur. Bu misal təsdiq edir ki, mövcud dinlər: islam, xristianlıq, yəhudi (iudaizm) və buddizm Tanrıçılıqla müqayisədə dünən yaranıb (4 min ildən 1400 il əvvələ qədər).

Tanrıçılıqda dünya 2 sütunlu: işığa və suya bağlı qəbul edilib. Bunu

müasir elm də təsdiq edir. Od (işıq) və su mühiti şəraitində yer planetində təbiət - həyat hər ilin yazında - əvvəlində yenidən doğulur – hər il martın 21-dən Yerin ekvatordan Şimalda olan yarısında su+işıq=tarazlıq qanunu ilə doğum-artım və istinin getdikcə çoxalan hakimiyyət dövrü başlanır. Elm bunu da təsdiq edir. Tanrıçılığa görə Tanrının baş məskəni – işıq ulduz bürcündədir. Günəş isə Tanrı qüdrətinin baş təmsilçisidir. Bu səbəbdən və bu inamla qədim insan - Tanrçılıq dövrünün insanı – Günəşi - Od Tanrı kimi vəsf edib.

Tanrıçılıq dövrünün insanı Odu Su ilə birlikdə həyatın və bütün maddi aləmin-materiyanın baş maddəsi kimi düşünüb. Söz yaradıcılığında odun-işığın (və suyun) əlamətlərini məhz maddi əlamətlər kimi qəbul edib.

Bu ölçü ilə maq (mak od maddədir - maddidir. Lay - parlaq işıqlı od maddədir, od maddənin - dağın, qayanın hamar və işıqlı üzüdür, səthidir, onun bir parçasıdır, bir hissəsidir, bir bölümüdür. «Lay-lay qapılar» qapının hər layı - hər tayı hamarlığı və parlaqlığı ilə bunu əks etdirir, başqa kiçik ölçüdə təkrar edir. Buludların lay-lay dağılması, dağılaraq axıb getməsi yenə də bu əlaməti təkrar edir. İzahlı lüğət «lay»ı məhz cisim kimi – yəni maddə kimi, od materialı kimi, onun üst-üstə sıralanması» kimi təsvir edir. Bu, elmi izahatdır.

Fikrimizcə uşağa lay-lay çalınmasında «lay-lay» sözünün məzmundan məzmuna keçidi var. Bu mənada Şəki rayonundakı «Layısqı» kəndinin, dağının və çayının adı uşağa çalınan «lay-lay»dan əvvəl gəlib. Bu kəndin, dağın və çayın adı bir hecalı «Lay» koduna bağlıdır. Məhz bu koddan «Layısqı» sözü yaranıb. «Layısqı» öncə «Layıs» adlanıb.

«May» sözü qədim ifadələrimizdə «Mayıs» (May – a, maq – a: od maddəyə aid) olduğu kimi, «Lay» sözü də «Layıs» şəklini alıb. Mayıs və Layıs qədim Azərbaycan - türk qəbilələrinin adları olub. Bu gün dünya dillərində işlənən «may» sözü, may ayının adı heç bir əsas olmadan beynəlxalq söz kimi Hind-Avropa mənşəli hesab edilib.

Əslində may ayının adında maq (mak) od maddəsində işığın artması, işıqla çölün - çəmənin üzə gülməsi əlaməti əks olunur.

Maya – xəmirə - çörəyə vurulan od - qüvvət, yenə də Maya - qadın adı, mayak - yol göstərən işıq və onlarca belə adlar məzmundan məzmuna keçidlə eyni kodun törəməsidir. Mayıs – qəbilə - xalq adı həmin xalqa - qohum-qəbiləyə - maya aid olandır. Mayın özü - «gülən işıq» kimi Tanrıçılığın atributlarından sayılıb və türk qəbilə – qohum birləşməsinin adına çevrilib.

Eyni proses lay (işıq layı) hamar ölçüyə malik müəyyən od materialı – cismi kimi yenə də atributlaşaraq Azərbaycan-türk qəbilə-qohum birləşməsinin adına çevrilib. Qeyrətli ziyalımız Abdulla müəllim bununla əlaqədar





qiymətli bir misal gətirdi: Aydın oldu ki, türklərin yaşadıqları başqa ərazilərdə, o cümlədən Türkiyə ərazisində də Layısqı kəndləri - obaları var.

Nakam şairimiz Almas Yıldırım «Mayıs gözəlinə» adlı lirik şeirlər yazıb. Şair, Mayıs gözəlini məhz Azərbaycan gözəli - türk gözəli kimi tərif edib. Qeyd etmək yerinə düşər ki, Mayıs elləri, Mayıs adamları ulu babalarımızın yaşadıqları qədim torpaqlarda da yayılıb. Məsələn, Cənubi Amerika-da-Qvatemalada Mayıs adamlarının nümayəndələri bu gün də yaşayırlar. Bunu Kubada 1985-ci ildə Xose Marti nəşriyyatında ispan və rus dillərində çap olunmuş «Maisovıye Lyudi» - «Mayıs adamarı» adlı kitabdan da bilmək olar.

Almas Yıldırımın 1920-ci illərdə yazdığı şeirlərindən biri «Sılaya varacağım» adlanır.

*«Yol ver, çəkil önümdən, ey yolumu kəsən dağ,*
*Gün gəldi yetər artıq Sılaya varacağım».*

Şairin 1994-cü ildə Bakıda nəşr olunan «Qara dastan» kitabında «Sılay» - «Vətən» kimi izah olunur. Elə bu «Sılay» kəlməsində də «lay» kodu aydın oxunur. Sılay – işıqlı, sulu, lay - dünyanın ən gözəl layı - tərəfi, bir işıqlı - cənnət guşəsi. Belə sevimli, ilahi bənzəyiş yalnız Vətən torpağına ünvanlana bilər. Qürbətdə qalan şair öz həsrətli, yanıqlı misraları üçün Azərbaycan: Odlar yurdu, Türküstanın dirəyi, Qalın oğuz, Qafqaz... adlarından biri əvəzinə Sılay adını seçməklə onu da göstərib ki, çox uzaq zamanlarda babalarımız Vətəni müqəddəs yurdu – ocaq - ziyarətgah kimi düşünüblər. Bu müqəddəs adı Sılay-Sulay-Laysu-Layısı-Layıs (Layısqı) kimi də düşünmək olur.

Beləliklə, Layıs adının çox qədimlərdə «sulu, işıqlı gözəl Vətən» mənası aşkarlanır.

Şəkinin Layısqı kəndlərinin (Baş Layısqı, Aşağı Layısqı) və Layısqı çayının adındakı «ski» (əslində sqı) şəkilçisi onun rus dilində tələffüzü ilə – Layski şəklində səslənməsi gümanını da yaradıb. Amma tədqiqatımız bu gümanı rədd edir. Lay - layıs rusların Azərbaycana gəlməsindən asılı olmayaraq Layısqı şəklində işlənə bilərdi. Azərbaycan dili türk dillərindən biri kimi, ahəng qanununa tabe olduğu üçün bu dilin sözlərində sait+samit, samit+sait ardıcıllığı izlənilir.1-ci sait qalındırsa, sonrakılar da qalın, incədirsə sonrakılar da incə gəlir. Mayıs, Layıs, Sılay, Bayıs sözlərində də bu qayda pozulmur. Bunlar 4 türk qəbiləsinin adlarıdır.

Filologiya elmləri doktoru, professor Buludxan Xəlilov yazır ki, Noqay xalqı Qaraçay-Çərkəz ərazisində yaşayan zaman onların formalaşmasında Bayıs, Baydar, Baytış tayfaları da iştirak etmişdir. (Bax. B.Xəliov. Türkologiyaya giriş. Dərslik. B, 2006. səh.273).

Bu tarixi faktın özü də türk dillərindən biri kimi, Azərbaycan dilində qədim qohum - tayfa adlarında -ıs, -is, -us, -üs şəkilçilərinin iştirak etdiyini təsdiq edir. Bunlar s-ş əvəzlənməsi ilə -ış, -iş, -uş, -üş şəkilçiləri ilə də əlamətlərə aid olur. Qaç-ış, yar-ış, döy-üş, qır-ış, gəl-iş, get (ged)-iş, did-iş, sov-uş, dan-ış və b. sözlərdə olduğu kimi.

Bununla yanaşı, dilçilikdə metateza hadisəsi - səslərin yerdəyişməsi ilə yeni sözlərin yaxud, eyni sözün yeni variantının yaranması kifayət dərəcədə tətqiq edilməyib. Məsələn, Qız Qalası (qalaları) Tanrıçılıq inamında Günəşin qızı - Tanrı qızı adlanır. E.ə. I-II minilliklərə aid yazılı mənbələrdə qız qalaları «Zikkurat» metateza ilə «Tarıkkız» «Tanrı qızı» olduğu elmi mənbələrdə bilərəkdən unudulur, sözün daşıdığı məna açılmır, onun türk mənşəli olması, bilərəkdən nəzərdən yayındırılır. Bu ərazilərdə – Qafqaz və Kiçik Asiya da daxil olmaqla Yaxın Şərqdə guya «türkərin yaşamadıqları» belə «görməməzlik»lərlə inkar olunurdu (lap son vaxtlara qədər).

Qobustan qayalarında yaz bayramının başlanmasını əks etdirən «teatrlaşdırılmış səhnə» tablosunda sur musiqi aləti fiquru ilə birlikdə «Survan» piktoqrafı yazılıb. Bu piktoqraf metateza ilə geri sayılanda «Novrus»- «Novruz» oxunur. «Novruz» fars mənşəli sözə çevrilib. Fakt göstərir ki, Novruz - yaz bayramı birbaşa Tanrıçılığın bayramıdır. Tanrıçılıq – Azərbaycan -türk xalqının yaradılış ideyasının - fəlsəfi görüşünün əsasında dayanır və o öncə məhz türk dilində yaranıb, «Survan» adı və Sur-Surney müsiqisi ilə başlanan bu bayramı Muza İlahəsi saz müsiqisi ilə davam etdirir. Sözügedən «Survan» tablosunda Xızır dədənin iştirakı, insanların, yazın 1-ci günü Buraq-Şimşək atın alov qanadı üstündə Göydən enib gəlməsi o qədər inandırıcı təsvir olunur ki, bu tablonu Türkün Tanrıçılıq inamını əks etdirən baş tablolardan olduğunu tam əsasla təsdiq edir.

Sonralar ərazidə farsdilli xalqların nümayəndələrinin görünməyə və getdikcə artmağa başlaması, nəhayət, e.ə. I minilliyin ortalarında Cənubi Azərbaycanda hakimiyyətin farsların əlinə keçməsi bəlkə də dövlətin rəsmi göstərişi ilə yaz bayramı - «Survan» bayramı yox, onun metatezasından yaranmış «Novruz» bayramı adlandırılmağa başlayıb. Beləliklə də zaman keçdikcə «Survan» bayramı «Novruz» bayramı adı ilə türklər üçün də adiləşib və doğmalaşıb. Bayramın adının qismən dəyişməsi onun nə məzmununu, nə də milli adətlərini, bilavasitə Tanrıçılıq əlamətlərini milli mənşəyini dəyişə bilməyib.

Metateza ilə bağlı başqa bir misalı da yada gətirmək maraq doğurur:

Alma meyvəsinə Azərbaycan dilində məhz «alma», Türkiyə türkcəsində «elma», İtalyanca isə «mela» deyilir. Bu fakt ən azı onu göstərir ki, metateza hadisəsi ilə məhz «elma»nın (almanın) «mela» variantı yaranıb. Həmin





fakt onu deyir ki, türklərlə italyanlar çox qədimlərdən - e.ə. uzaq minilliklərdən qonşuluqda yaşayıblar: Səlcuq türklərinin Kiçik Asiyaya köçüb gəlməklərindən asılı olmayaraq, türklərin babaları bu ərazidə - Türkiyədə min illər əvvəldən yaşayıb və almaya «elma» deyiblər. Yəni italyanlar həmin sözün metatezasını – «mela»nı türklərdən qəbul etmək üçün Orta Asiyaya gedəsi olmayıblar.

Sılay-Layıs metatezası isə bir xalqın öz dilində öz söz yaradıcılığında Vətən anlayışının fonetik və leksik – şəkil və məzmun çalarlarını ortaya qoyur.

Bugünkü «Layiski» də «ı» saiti «i» saiti ilə, «q» samiti «k» samiti ilə əvəz olunub. Amma bu heç də rus tələffüzü ilə bağlı deyil. Rus tələffüzü rusların Azərbaycana gəldiyi XIX əsrdən başlayaraq, daha çox sənaye obyektləri və yolüstü – yol qırağı yer adlarında və bəzi soyadlarımızda (Şəkinski, Şuşinski kimi) əks olunub. Şəkinin «Layısqı» kəndinə ruslar təsadüfən gedib çıxa bilərdilər. Bu da «Layısqı» adının «Layiski» variantını yaratmayıb. Bu sonuncu variant yenə də yerli təhriflə: orfoqrafiya-orfoepiya təhrifi ilə - sözün yazılışı və deyilişi ilə bağlıdır.

«Layisq»də «s» ünsürü Azərbaycan-türk dilinin qədim tələffüz xüsusiyyətlərini əks etdirir. Mənbələrdə «Qafqaz-Qafqas», «Araz-Aras», «Atlaz-Atlas», «Almaz-Almas» və b. əvəzlənmələri bununla bağlıdır. Nakam şairimiz Almas Yıldırım «Qafqaz»ı həmişə «Qafqas» şəklində yazırdı.

Layıski: əslində «Layısqı» şəklində yazılmalı və oxunmalıdır. Qeyd etdiyimiz kimi, burada «i» - «ı»-nı əvəzləyib. Layıs – Bayıs - Mayıs: eyni türk xalqının 3 qohum-qəbilə adı kimi dünyaya səpələnib. Bu və digər yer-yurd, soy-qəbilə adlarımızın dünyanın bütün qitələrinə səpələnməsi məsələsi dahi Atatürkü çox dərindən düşündürüb və o, özü buna inadla cavab axtarıb. Atatürk o cavabı böyük ingilis alimi Ceymıs Çörçüvodun kitablarında aşkar edib. Dahi sərkərdə və ata həmin kitabları tezliklə Türkcəyə tərcümə etdirib. Həmin tərcümələr bu gün - 1990-cı ildən sonra Türkiyədə tədqiqatçıların ixtiyarına verilib. Həmin tərcümələrdən Azərbaycan alimi Qara Namazov ilkin xəbər tutub və «C.Çörçüvodun tarixi kəşfləri» kitabı ilə (B.,2010) Azərbaycan oxucusuna xəbər çatdırıb.

Azərbaycan toponimlərinin, qəbilə-soy adlarının dünyada, uzaq keçmişlərdən bəri geniş yayılması faktı Şəki rayonundakı bəzi toponimlərdə də geniş əksini tapıb.

Şəki, Kiş, Çakıl, Daşağıl, Göynük, Küngüt, Biləcik, Oravan, Gəldək, Cumay, Cunut, Qudula, Küdürlü, Turut (düzü), Zəyzit, Vayvay, Baltalı, Oxut, Qoxmuq, Suçma, Qaraqoyunlu, Daşüz, Zunud, Şin və b. buna misaldır.

Az-28164/2
M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

## ŞƏKİ, KİŞ, ÇAKIL

Layısın - Layısqının qədimliyi, Azərbaycan-türk qohum-qəbilə adını daşıması Şəkinin dünyada ən qədim yaşayış məskənlərindən olduğunu bir daha təsdiq edir.

Son vaxtlara qədər Şumer mədəniyyətindən danışanda onu dünyada məhz ən qədim mədəniyyət mərtəbəsində görüblər, düşünüblər. Tarix Şumerdən başlanıb. Bu tarixə 6 min il – e.ə. IV minilliyə qədər yaş verilib. Hesab edilib ki, e.ə. VII minillikdən o yana mədəniyyət «yox imiş» (?).

Həmin dövrə qədər isə baş verən hadisələr sırasında bir neçə elmi mənbə, bir neçə müəllif «dahi», toxunulmaz ucalıqda hökm verib: yer üzündə türkdən başqa hamı qədimdir. Yaxın Şərqdə, Kiçik Asiyada və Qafqazda e.ə. I minilliyin ortalarınadək guya türkün izi, sorağı belə olmayıb? Türk xalqları içərisində isə Azərbaycan xalqı - «ən cavan xalq» olub. Azərbaycan xalqının formalaşması XI-XIII əsrlərədək «gəlib çatıb». Guya həmin XI-XIII əsrlərə qədər Azərbaycan ərazisində «yerli-avtoxton xalqlar» başqaları olub. Hətta 2003-cü il mayın 20 və 30-da Bakıda çağırılan «Albanlar keçmişdə və bu gün» adlanan beynəlxalq məclisdə ingilis və rus dillərində belə hökm səsləndi: «Do odinnadtsatoqo veka v Azərbaydjane ne jil ni odin azerbaydjaneü – ni odin turok!» Bu hökm, yəni guya «XI əsrə qədər Azərbaycanda bir nəfər də azərbaycanlının - türkün yaşamadığı «hökmü» tarixçilərimiz və elmi idarələrimiz tərəfindən rəsmi surətdə rədd edilməyib. Hətta deyən, yazan olmadı ki, axı belə hökm qanımızı içən ermənilərə dəstəkdir. Bu ən acı həqiqət və ən sağalmaz yaramızdır.

Qayıdaq Şəkinin milli qədimliyi məsələsinə. Şəkidə anadan olmuş Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, tarix elmləri doktoru Mahmud İsmayılov Herodotun «Tarix» kitabından yapışaraq, Şəkinin burada sakların – oğuzların yaşadığı tarixin ən azı 2700 il qədim olduğunu inadla irəli sürdü. Amma böyük rütbəli alimlərdən bir neçəsi M.İsmayılovla müxalifətdə qaldı. Şəkini «dünənki şəhər» adlandırmaqda davam etdilər.

Bütün bu mübarizə, bu müxalifətlik saklarla-oğuzlarla bağlıdır. Herodotun «Tarix»ində Sakların, əslində onların bir hissəsinin e.ə. VII əsrdə Şimali Qara Dəniz ətrafından gələrək, Dərbənd keçidindən keçib indiki Cənubi Azərbaycana yürüş etdikləri və orada Maday (Midiya) ərazisində 28 il hakimiyyətdə olduqları bildirilib. Bu fakt sakların – İşkuz-oğuzların bir qisminin həmin dövrdə Şimali Azərbaycanda qalıb yerli sakinlərə qarışıb məskunlaşdıqlarını söyləməyə əsas verirdi. Müxalifətçi müəlliflər bu faktı inadla rədd edirdilər. Lap elə bu şəkildə: «burada nə sakların, nə də başqa





türk tayfalarının XI əsrə qədər yaşadıqlarını təsdiq edən heç bir faktın üzə çıxmağa ixtiyarı yoxdur!» - Bax bu şəkildə faktların özünə qarşı hücum edilirdi. Azərbaycan ərazisindəki bütün yer-yurd adları başqa xalqların adına yazılır, ya da «ən cavan» göstərilirdi.

Şumer mövzusu – Sumer dövrü ilə bağlı hər hansı tədqiqat hətta qadağan edilirdi. O həddə qədər ki, Şumerlərdən tamam yad bir xalq, Şumer dilindən «ölü dil» kimi danışmaq lazım gələndə belə «Şumer» əvəzinə «İkiçayarası» termini işlədilirdi. «Şumer» sözü elə vahimə yaratmışdı ki, antitürk olduqlarını bəyan edənlər tələb-ehtiyac olmayanda da deyirdilər: «Əşi, yox ey, Şumer hara, türk hara?» Mahmud İsmayılov isə susmurdu...

Şumerdən danışanda etiraf etmək lazım gəlirdi ki, azı 6 min il əvvəl Azərbaycanda saklar-oğuzlar var idi. Onlar Şəki torpağında da məskun idilər. Onlar e.ə. IV minillikdə Şumerə - Şimali və Cənubi Azərbaycandan, o cümədən Şəkidən köçüb getmişdilər. Bunu Baş Qafqaz sıra dağlarından –Çakıl - Layıs (Layısqı) zirvələrindən axıb gələn və Şəki şəhərindən keçən Kiş çayı və Kiş kəndi tam aydınlığı ilə təsdiq edirdi. Müxalifətçi müəlliflər eyni adda çayın və şəhərin Şumerdə də aşkarlanmasını «təsadüf» adlandırıb bu mövzunu bağlamağı tələb edirdilər. Amma qeyrətli alimlərimiz Mahmud İsmayılovun, Yusif Yusifovun və Yaqub Mahmudovun inadlı mübarizələri öz bəhrəsini verməkdə idi. Bu mübarizəyə bir qədər gec də olsa Vaqif Aslanov da qoşulmuşdu.

Şumer azərlərinin - türklərinin dilində sak-sak-i-saq-i sözünün həmin üç variantda aşkara çıxarılması, tarixi «Herodot» sərhəddindən xilas etdi. Məhz Herodot «Tarix»inə əsaslanaraq, rus alimi A. Kuqryavsev də «Qədim Dərbənd» kitabında 1982-ci ildə yazırdı ki, saklar Qara dəniz ətrafından gələrək e.ə. VII əsrdə Dərbənd səddini keçib cənuba üz tutmuşlar. Beləliklə, Azərbaycanda sak-kas komponentli ünvanlardan söz açmaq imkanı yarandı. Amma əgər Herodot məsələn, 2600 il yox, 20.600 il əvvəl doğulmuş olsaydı, sakların Azərbaycana gəlişi – Azərbaycanda ilk türk tayfasının, türk dilinin aşkarlanması 2700 il yox, 20.700 il qədimliyi ilə hesablanardı. Əlbəttə ki, e.ə. VI əsrdə doğulması Herodotun günahı deyildi.

Beləliklə, Şumer dövrü ilə bağlı, azı 6000 il yaşı olan gil lövhələr «Sak-Kas: oğuz» sözünü də bizə çatdırmışdır. Tarixin Şumer dövründə Saki - saklar: Saray adamları, nəcabətli şəxslər – yüksək təbəqədən olanlar mənasında işlənib. Bu yazılı, tarixi məlumatdır.

Bəs son dövrlərin kitabalarında «ari»lərdən «ali irq» kimi söz açılması, «İstınnıy ariyes» – «təmiz ari qanı olan» - ifadələri necə meydana gəlib? Burada elmi düşüncəni siyasi məqsəd əvəz edib!

«Ar» sözü Günəşin - Od Tanrının adlarından biri kimi, Tanrıçılıq inamı

ilə qədim türk-prototürk-proto Azərbaycan dilində geniş yayılıb, daha çox Ar/Ər şəkillərində. ƏR-AR, onların metatezası ilə Rə/Ra öncə Od Tanrının (Tanrının yaratdığı Tanrının - Günəşin) hərəkət məzmunlu adlarından olub. Tanrı adları insan və başqa varlıqların adlarında, söz yaradıcılığında, minlərlə sözdə iştirak edib.

Tarixi-mifoloji qaynaqdan «ar-ı» sözü siyasətçiləri necə özünə cəlb edib və nə vaxtdan?

Təbii ki, burada «necə» və «nə vaxtdan» suallarına cavab aramaq çətindir. Amma bir həqiqət aydındır: «Sak» kimi, «ar» da insandır - «oddan yaranan oddur». Və bundan əvvəl hər iki adın – «ar» və «sak»ın Günəşin adlarından olduğunu qeyd etmişik. Günəşin - Ulu Od - Od Tanrı kimi kəşf olunan əlamətləri yeni adlarla - sözlərlə insan yaddaşına köçüb həmin adlar – sözlər sözlərin - dilin yaranmasının təbii qanunauyğunluğundan irəli gəlib.

«Odun əlaməti» kimi, ilkin kod-kök-məzmun yüz min illərin uzaqlığından gəlir.

«Sak-i»lərdə olduğu kimi, «ar-i»lərdə də söhbət heç də «ali irq»dən getmir. Burada söhbət arılanmış-arıtlanmış, təmizlənmiş, cəmiyyətdə yüksək mövqe tutmuş, yüksək rütbə qazanmış adamlardan və onların ailə üzvlərindən gedir. Sarayda (Mərkəzi Komitədə, konqresdə və s. işləyənlər: Saklar-sakı, arlar - ari adlandırmışlar: adi, sıravi xalqdan fərqlənən bəy, xan titulları kimi. Hətta «arilər» deyəndə burada iki cəm şəkilçisinin iştirakı da artıq nəzərə çarpmır.

Sak-i və ar-i: yuxarı sinifdən – «nəcib sinifdən olanlar», cəmiyyətin daha yüksək imtiyazlara malik olan, daha firavan yaşayan təbəqəsinə verilən adlar olub.

Deməli, tarixdə heç vaxt ayrıca bir xalq etnos-millət nə «sak-i»lərə, nə də «ari-lərə» – uydurma «ali irqə» mənsub olmayıb. Bununla da dünyaya daha bir həqiqət bəlli olur: Tarixdə heç vaxt heç bir «ali irq» olmayıb.

Axı, bu iddia məntiqə uyğun gəlmir. Axı, hər xalqın həm şah kimi, xan kimi, «bəy balası» kimi firavan, kefi kök yaşayanları, həm ortabab vəziyyətdə, həm də tamam dilənçi günündə yaşayanları varsa, hansı ali irqdən söhbət gedə bilər.

Ali irq – arilər-«ariyes» başqa xalqları özünə qul etmək üçün, kiçik ölkələri öz müstəmləkəsinə çevirmək üçün «gərəkli bəhanə» olub. Bu bəhanədən Faşist Almaniyasında necə istifadə olunduğu kitablarda, kinolarda yüz dəfə ifşa edilib.

«Ali irq» – «ari-lər» əvəzinə hər xalqın – etnosun əzəldən 2 əsas sinfi var: 1. Yuxarı sinif – Ağ sinif – varlı sinif – Ali sinif. 2. Aşağı sinif - Qara sinif (qara camaat) - kasıblar sinfi - təbəqəsi olub və həmişə də olacaq. Sovet-şovinist imperiyası Qara sinfi - kasıblar təbəqəsini orden, medal, döş nişanı və başqa şirnikdirmələrlə fəhlə və kəndli siniflərinə və qulluqçulara bölərək əslində eyni yoxsul təbəqədən olan «3 sinfi» daha çox işlədirdi. Rus-sovet şovinizmi aliliyi «böyük qardaş», «böyük xalq» adı ilə yeni «ali irq»ə çevirmək istəyirdi. «Ali irq» başqa xalqları istismar etmək üçün siyasi bəhanə olub.





Sakilər-saklar həm ümumi halda insan, həm də insanlar birliyi - dünyanın vahid xalqı olub. Böyük ingilis alimi C.Çörçüvod 100 min il əvvəl bütün bəşəriyyətin vahid bir dildə – bir dilin ləhcələrində danışan Günəş imperiyasının sakinləri olduğunu öz misilsiz tədqiqatlarında tam əsaslandırıb. Bu böyük alim öz xəritəsində göstərir ki, bütün dünya təqribən 10 min il ərzində: e.ə. 20-ci minillikdən e.ə. 10-cu minilliyədək nəhəng Uyğur imperiyasının sakinləri olub. Uyğur imperiyası türk imepriyası, uyğur dili türk dili olub. Ceyms Çörçüvodun yüzlərlə təhlilindən - analizindən çıxarılan nəticə belədir: 1.Dünyanın bütün xalqları türk-uyğur xalqının törəmələridir. 2. Dünyada mövcud olan 3.000 dilin hamısı vahid bir dilin uyğur-türk dilinin ləhcələridir.

C.Çörçüvoda qədər bu fikir dəfələrlə irəli sürülmüşdü, lakin əsaslandırılmadan qalırdı. C.Çörçüvod bu fikri ilk dəfə elmi sürətdə əsaslandırdı.

Kiş kəndi əvvəllər Şəki şəhərinin yaxınlığında yerləşirdi. Bu gün - 2010-cu ildə isə o, Şəkinin tərkib hissəsidir. Kiş çayı da Şəkinin içərisindən axıb keçir. Nədir «Kiş» sözünün mənası? Bu, 6 min il əvvələ aid edilən gil lövhədə «Kişı» (kiş-i) sözüdür ki, «İsiq» (isik) işıq: sözünün metatezasından yaranıb. Kiş: Şik-Şık-Şıx (çox sonra «Şeyx!») şəkilində bir hecalı sözdür.

«Layıs»da – «Layısq» lay, «Şəki» də Şək (şak, «Çakıl» dağ adında «Çak» (Şak) məhz bir hecalı sözlər kimi dilimizin proto - ən qədim çağlarından soraq verir. Baş Qafqazın ən uca zirvələrindən olan, ilin on bir ayı (bəzən 12 ayı) qarla örtülü Çakıl dağını Layısqının qocaman pedaqoqu Əhməd Yusifli Çakıl – Layıs zirvəsi adlandırır. Bu zirvədə şimşək çaxanda hətta gündüzlər, buludlu havada belə sehrli mənzərə alınır. Layısqı çayı mənbəyini Çakıl ucalığından alır. Diqqəti çəkən odur ki, Əhməd müəllim Layısqı sözünü məhz «ı» sait ilə tələffüz edir. Sözü əslindən – kökündən yayındırmaq günahdır - deyir Əhməd müəllim.

## ZİRVƏLƏRİN GÖRÜŞÜ

Çakıl zirvəsi yerlə göyün arasında əbədi qərar tutub. Bu qocaman qarlı zirvə Baş Layısqı kəndinin başı üstündə, qədim daş xəritədə olduğu kimi, Tanrı qızının obrazına çevrilib. Əhməd müəllim bu ilahi gözəlliyə lap cavan yaşlarından heyran qalmışdı. O, bir kitabda - xəritədə

görmüşdü ki, qədim Azərbayan bütün Qafqazda yeganə böyük dövlət olub. Bu ölkə Qara dənizdən Xəzər dənizinə qədər Baş Qafqaz sıra dağları ilə sərhədlənib.

Bunu Azərbaycan Cümhuriyyətinin 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransında təsdiq edilmiş Azərbaycan xəritəsindən də bilmək olur.

Bu ərazi daş xəritədə üzü Cənuba getdikcə, 3 ana - 3 mələk əhatəsində təsvir edilib. Mənası da odur ki, bu torpaqlar cənnətin bir parçası kimi, Tanrının özü tərəfindən Göydən endirilib bura. Daş xəritədə bir ana Xəzər dənizinin, bir ana Qara dənizin qoynunda əks olunub. 3-cü mələk – Ana, elə mələk kimi də ağ dona bürünüb, üzü Gündoğana və Cənuba sarı, daş qollarını düyünləyərək başının altında «yastığa» çevirib və elə bu görümdə də daş yuxuya dalıb... Bu 3-cü mələk - Ana öz bəyaz donunda dağ başında dağ heykəlinə dönüb. Əhməd müəllimin oxuduğu kitabda izah edilir ki, bütün Qafqaz - bütün Azərbaycan bu 3 mələk Ananın şəfqətli nəzərləri altında öz müqəddəs ömrünü yaşayır.

Əhməd Yusifli Baş Layısqıda və Şəkinin bu ətraf kəndlərində dərs dediyi illərdə qocaman Çakıl dağını şagirdlərinə daha çox Layısqı dağı kimi təqdim edir və əlavə edirdi ki, bizim Baş Layısqı kəndi öz adını elə bu qarlı zivədən alıb və bu da bu adın müqəddəsliyi ilə bağlıdır.

Yayda - yaz qarı - buzu əriməyən Çakıl – Layısqı dağı ilə Əhməd müəllimin sözü-söhbəti bitməz-tükənməz bir hekayədir. Bu dağ zirvəsi ilə Əhməd müəllim iki zirvə kimi, hərdən üz-üzə, göz-gözə, söz-sözə dayanaraq, bir-birini təbəssümlə salamlayır, nəzərləri ilə bir-birindən əhval tutur, ömrün hər təzə günü, hər açılan sabah üçün bu ona, o da buna gözaydınlığı verir.

Əhməd müəllim. Layısqı - Çakıl dağdan, onu düşündürən suallara cavab arayır. Hərdən deyir:

– Çakıl - Layısqı dağı, bax, sənin gör neçə milyon il yaşın var. Amma uzun ömrün sirrini sən də bilmirsən. Deyirsən ki, Tanrı sirrinə əl aparmaq yenə də insan işidir, dağların işi deyil.

Layısqı dağından «cavab» gəlirdi:

– Siz özünüz Əhməd müəllim, uzun ömür deyəndə nəyi nəzərdə tutursunuzsa, elə o nəzərdə tutduğunuza da əlavə edin: uzun ömür, zaman ölçülərindən asılı olmayan mənalı ömürdü. Elə sizin özünüzün tez-tez işlətdiyiniz halal ömürdü. Halal ömrün dünyada əvəzi yoxdur. Siz, Əhməd müəllim, «Halal olsun!» – kəlamını çox sevirsiniz. Yadınızdan çıxmır, dilinizdən düşmür bu qoşa kəlmə. Yəni siz hər mənalı işə, mənalı addıma - düz, doğru addıma, doğru sözə, ifadəyə, doğru, ədalətli





qərara, nəticəyə deyirsiniz: halal olsun! Xüsusən də övladlarınız, nəvələriniz xalqın - elin, camaatın xeyrinə bir iş görəndə, kimə isə əl tutanda, bir günahsızı zülmdən, haqsız cəzadan, böhtandan qurtaranda, kimi isə arzusuna qovuşduranda. Lap elə öz evinizdə qızı, gəlini mərifətli görəndə, yəni onlar məriftəli iş görəndə, nəvən-nəticən məktədən «5» qiymətlə qayıdanda deyirsiniz: «Halal olsun!». Əhməd müəllim, mən dağ da olsam, hərdən ünvanıma dediyiniz «Ey qarlı zirvə! Bu enməz, əyilməz vüqar, bu əzəmət, bu gözəllik sənə halal olsun! – alqışından, bu müdrik qiymətinizdən doymuram. Çünki mən də bu qiymətdə mənə görürəm. Deməli, uzun ömür - mənalı ömürdü, mənalı ömür – halal ömürdü. Halallığı qazanmayan, mənalar gülşənindən keçməyən insan ömrü lap 200 il uzansa belə, çox qısa ömürdü. Halal ömrü 20-25 yaşında da, bəlkə bundan daha əvvəl də qazanmaq olar, 80-90 yaşında da. Siz özünüz bu günədək halal ömür-mənalı ömür yaşamısınız, Əhməd müəllim...

Əhməd müəllim neçə il əvvəl, cavanlıq çağlarında kəhər atın belində qalxmışdı. Çakıl - Layısqı dağının ağ zirvəsinə. İndi körpünün üstündən boylanırdı ona sarı. İki nəhəng – iki zirvə üz-üzə, göz-gözə, söz-sözə dayanmışdı. Xatirələr bulağı çağlayırdı. Çakıl - Layısqı dağının meşəli yamaclarından üzü aşağı gəlib qarışırdı Layısqı çayının gümüş sularına; Əhməd müəllimin fikrindən süzülən xatirələr bulağına qovuşurdu...

Bir parça ağ bulud axşam Günəşinin parlaq şəfəqlərində ilahi gözəlliyə bürünmüşdü. Elə bil Günəş-Ana göyün əlçatmazlığında bu bulud parçasına ona görə sancılıb qalmışdı ki, öz gözəlliyini – o dahi sirri bir daha açsın dünyaya. Bu ilahi gözəllik ağlığın, paklığın, təmizliyin, ülviliyin, günahsızlığın özü idi.

Çakıl-Layısqı dağı Günəşdən qüvvət əmirdi. Bu saat bu dünyada bu ağ buludlardan və Çakıl-Layısqı dağının zirvəsindən pak və ülvi heç nə ola bilmədi. Və bu dünyada hər kimin qəlbi o qar kimi, o ağ şəfəqlər kimi ləkəsizdirsə, təmizdirsə, haqq-ədalət adında bir şeydən danışmağa da yalnız onun haqqı çata bilər. Amma yox! Əslinə qalsa, dünyada haqq-ədalət deyilən bir hikmətdən də, həqiqətdən də, günahsızlıqdan da Şəkinin bu qocaman dağ zirvəsi, bu lay-lay açılıb gedən yaşıl meşələr, yamaclar, bu axşam Günəşinin şəfəqlərinə qərq olan bəmbəyaz buludlar və bir də bu qocaman Layısqı çayı danışa bilər...

Əhməd müəllim çaqıl daşların üstündən bir qədər yuxarı boylandı. Orada köhnə körpünün dayaq sütunu ağarırdı. Və bu ağlıq da Günəşdən və körpünün qocalığından idi. Neçə illərdi ki, körpüdən gəlib keçən yoxdur. Zaman o körpünü unudulmağa məhkum edib. Maşınlar, atlılar, piyadalar, meşədən odun-ocaq şələsi ilə gələnlər, dəyirmandan un kisə-

ləri və daha nələr daşıyan at-arabalar daha o körpüyə sarı göz ucu ilə də dönüb baxmır. Sanki neçə illər insanlara təmənnasız xidmət göstərən, onların özləri bir yana, nə qədər ağır-ağır yüklərini daşıyan, yaz daşqınlarından onların canını, malını xilas edən heç o körpü deyilmiş. Onların illər uzunu yayın qızmar günlərində, gecələrin zülmət qaranlığında, illah da ki, bu dəli Layısqı çayı yazda yatağına sığmayıb, sahilləri oyuq-oyuq edib, nəhəng, sal daşları qabağına qatıb üzü arana aparanda, onların harayına yetən heç o qoca körpü deyil-miş... Nə edəsən, belədir bu dünya, behi yox, bazarı yox, onun vəfasına bel bağlamaq olmur. Bir də deyirlər ki, torpağın üzü soyuqdur. Yox, vallah, zamanın, vaxtın uzu daha soyuq olur. Qoca körpünün, köhnə, sınıq taxtalarının üstündə qarış-qarış otlar bitib, saralıb tökülüb sinəsinə. Axşam Günəşinin işığında ağaran elə həmin saralmış otlar, bir də cəmi bir cığır enində qalmış köhnə, çürümüş taxtalar idi. Yolları ayırıblar o körpüdən, indi yollar xeyli aralıdan keçir. Dünyada nə qədər belə körpü var görəsən; insan üzünə həsrət körpülər, çal-çağır bilməyən, uşaq addımları altında sevinib, kövrəlməyən, uşaqlara qoşulub gülməyən körpülər...

Əhməd müəllim yeni, hündür körpüdən enib sınıq körpüyə sarı getdi. Dayanıb bir az da meşəyə tərəf boylandı. Qumuq kəndinin köhnə su dəyirmanını gördü. Su dəyirmanı da, sanki, fikrə getmişdi. Həmişə bu dəyirmanın ətrafı qələbəlik olardı. Hamı tərifləyərdi bu dəyirmanı. - Su dəyirmanında üyünən unun çörəyi daha ətirli olur, – deyirdilər. Bir var dəyirman daşını indi çox yerdə olduğu kimi, elektrik işlədir, ona da od dəyirmanı deyirlər. Od dəyirmanında un nə qədər yumşaq olsa da, istidən yanır, buğdadan qalan ətir havaya dağılır. Su dəyirmanlarının bütün Azərbaycanda geniş yayıldığı illərdə təndir çörəklərinin iyi – ətri uzaqdan çatırdı adama. Hamı bilirdi ki, bax, kəndin filan məhləsində, filan tərəfində təndirdə çörək bişirilir. «Bərəkətinə qurban!» - deyirdilər. Od dəyirmanları bu alqışları seyrəldib. İndi öz həyətində çörək bişirilən təndirin lap kənarında gəlib dayanırsan, isti səni yandırır, amma təzə çörəyin ətri əvvəlkitək vurmur səni. Nə oldu?! Qaytarın o ətri, ay od dəyirmanları! Yox! Qaytara bilmirsiniz...

Qumuq kəndi Baş Layısqının qonşuluğundadır. Çoxdan doğmalaşıb bu qocaman kəndlər bir-biri ilə. Daş döşənmiş küçələri, daş cığırları, zoğal çubuğundan çəpərləri, doqqazları da, elə uşaqları, qadınları, kişiləri də bir-birinə oxşayır bu kəndlərin, hətta bunların dilinin ləhcəsi məşhur Şəki ləhcəsindən fərqlənir. Şəki ləhcəsi bütün Azərbaycanda, hətta deyirlər ki, bütün türk dünyasında öz musiqisi ilə tanınır. Amma Şəkinin bu iki kəndinin: Qumuqla Baş Layısqının yalnız özünəbənzər ləhcəsi var.





Su dəyirmanının yanından baxanda Layısqı dağlarının yaşıl yamaclarından bir gümüş boru xətti uzanıb gəlir, dəyirmanın yanından çaya enir və çayın bir kənarı ilə Baş Laysqı kəndinə gedir. Əhməd müəllimin yadına düşdü ki, dağların buz bulaqlarından çəkilən bu su kəməri onun öz oğlu, ortancılı Abdulla Yusiflinin təşəbbüsü və xərci ilə başa gəlib. – Sağ olsun, - düşündü Əhməd müəllim, - mənim oğlumdursa, o da atasının, babasının yolu ilə gedəcək, elinə, yurduna xidmət göstərməyi özünə borc biləcək, şərəf biləcək. Layısqı çayının üstündə köhnə körpünün salınmasında mənim atam Salmanın da xidməti olub. Danışardı mənə anam Nazlı, atamın 1920-ci illərdə kəndi bolşevik özbaşınalığından, erməni-rus tügyanından necə qorumasını. Rusiyanın bolşevik hökuməti «mən fəhlə-kəndli hökumətiyəm» - adı ilə Azərbayan xalqının adlı-sanlı, savadlı, bilikli oğullarını soraqlayıb tapdırır və hər hansı bəhanə ilə yerindəcə güllələyirdi. Hər rusun yanında bir erməni agenti olurdu. Ermənilər hər bir din xadiminin olduğu yerdən xəbər tuturdu, qəfil hücuma keçib, onların kitablarını, yazı-pozularını töküb-töküşdürür, müqəddəs Qurani-Kərimin səhifələri tapılan kimi, onu saxlayan şəxs həbs edilirdi: Atamın ayıq-sayıqlığı sayəsində Baş Laysqıda, Qumuqda, Şində, Aşağı Layısqıda, Göynükdə «molla», ya da «müsavatçı» adı ilə güdaza gedənlərin sayı başqa rayonlar, kəndlərlə müqayisədə xeyli az olmuşdu. Amma çox şeylər də olmuşdu. İtkilərimizi geri qaytarmaq mümkün deyil... Elə bu köhnə, sınıq körpü nələrin şahidi olmayıb? Yəqin ki, onun cəmi 2-3 sınıq taxtasını da sellər-sular tezliklə yuyub aparacaq. Amma bu sınıq körpünün ayağını suların altında sal qayanın özülünə bağlı olduğunu görüb, sellər, tufanlar da inadından əl çəkəcək. O sal qaya yerin altında Çakıl-Layısqı dağının özünə bağlıdır. Ona nə zamanın, nə də gəldi-gedər dövranların gücü çatmayıb və çatma-yacaq. Bu körpü dayağı Layısqı zirvəsinin - Çakıl dağın dabanıdır. Onun müqəddəsliyini qoy kimsə bilməsin, mən ki bilirəm. Mənim körpə səsinə, uşaq ayağına həsrət qalan körpüm... Bəlkə, elə belə yaxşıdır - düşündü Əhməd müəllim və asta addımlarla, zamanın özü kimi qocalmış, gözlərindən süzülən həsrət yaşları Layısqı çayının sularına qarışan sınıq körpünün üstünə qalxdı...

**Əjdər Fərzəli**
***Filologiya üzrə fəlsəfə doktoru***

# BAŞ LAYISQI KƏNDİNİN TARİXİNDƏN

Layısqı - Baş və Aşağı Layısqı kəndlərindən ibarətdir. Hər iki kənd Şin çayının hövzəsinin yuxarı hissəsinə aiddir və Baş Layısqı Baş Qafqaz sıra dağlarının cənub ətəklərində, Aşağı Layısqı isə düzən ərazidə yerləşir.

Baş Layısqı kəndinin məhəllə adları və eləcə də Şin hidronimi ərazisində qədim dövrlərdən türk etnoslarının məskunlaşdığını və bu prosesin tarixin sonrakı məqamlarında da (dəmir və ilk orta yüzilliklərdə) davam etdiyini söyləməyə əsas verir. Belə ki, ərazidə türk dövründən başlayaraq skif, kimmer (qımır-kımır, kumur-kımıx) alban, hun, monqol və s. türk soylarının izləri etnonim, hidronim, oykonim və s. xüsusiyyətli toponimlərdə qoruyub saxlamışdır ki, bütün bu tarixi izlər dövr fərqi olmasına baxmayaraq daha çox prototürk, türk dilləri ilə izah olunur. Hətta onlar arasında şumer paralellərinə də təsadüf edilir ki, bu paralellər və müasir Azərbaycan dili, eləcə də Nuxa dialekt və ləhcələrində xüsusi oxşarlıqlar özünü göstərib. Bütün bunlar ərazidə türklərin qədim dövrlərdən məskunlaşdığını göstərir.

Baş Layısqı və eləcə də bu ərazilərdə yaşayan insanlar Azərbaycanda və Şəki regionunda baş verən proseslərdən kənarda qala bilməzlər. Belə ki, hələ 860-cı ildə Alban çarlığının bu regionda bərpası, paytaxtın Şəki olması və Şin, Sinaz, Eşik, (Eşşək) qalasının məhz həmin dövrdə tikildiyini göstərən mənbələr vardır. El arasında isə daxili Albaniyaya bu ərazidən dağ yolu olması haqda rəvayətlər vardır. Bu yolu sonralar Şeyx Şamilin abadlaşdırmasını da söyləyirlər. Layısqının qədim, antik və orta yüzilliklər dövrü tarixi haqqında arxeoloji materiallar da bir sıra fikir və gümanlar söyləməyə yetərincə əsas verir.

Layısqı kəndinin yerləşdiyi ərazi, onun torpaqları hələ Azərbaycanın Qafqaz Albaniyası dövründə (e. ə. IV – b.e. VII yüzillikləri) mühüm strateji əhəmiyyət daşımışdır. Bu ərazi məhz alban-türk soylu tayfaların məskunlaşdığı əraziyə daxildir. Ehtimal olunur ki, albanların Pompeyə ciddi müqavimət göstərdiyi ərazilər Layısqı torpaqlarının da aid olduğu ərazidir.

Baş Layısqı kəndi təbii müdafiə edilən bir ərazidə yerləşir. Kənd üç tərəfdən dağlarla əhatə edilib. Cənub-şərq və cənub tərəfdən Alazan-Həftəran vadisinə açılır. Əyriçay vadisi kəndi bir istiqamətdən sərhədləndirir. Dağ ətəyinə sığınan bu kəndin ətrafı qonşu ərazilərlə birləşdirən dağ yolları, keçidləri vardır ki, bu keçidlər tarixin bütün mərhələlərində mühüm rol oynamışdır. Burada Kas tayfa-





larının adları ilə bağlı keçidlər vardır.

Kəndin cənub-şərqində Qalatap adlı yer vardır. Bu yer başqa adlarla adlanır. Ərazidə apardığımız yerüstü kəşfiyyat bu ərazinin artıq antik və ilk orta əsrlərdə yaşayış yeri və məzarlıq kimi istifadə edilməsi haqqında fikir söyləməyə əsas verir. Bu Qalatap bir növ Eşik (Şin) qalasına düzəndən -Layısqı tərəfdən gedən yolun üstüdür və ola bilsin ki, burada antik dövrdə, ilk orta əsrlərdə (e.ə.IV-III, b.e.II-IV əsrləri) qala olub və bu qala bu ərazidə keçidləri, xüsusən, Şin çayı keçidlərini qorumağa imkan verib. Ərazinin istehkamları Qalaaltı, Eşik (Şin) qalaları ilə bitmir. Heç şübhəsiz Şin çayı içərisində, çayqoşanlarla müdafiə, müşahidə tikililəri olduğu kimi Baş Layısqı kəndindən başlayan keçidlərdə də belə hərbi təyinatlı tikililər olmuşdur və bu tikililər (qala, istehkam, qalaça və s.) Şəki xanlığının qonşuların qarətçi hücumlarından qorunmaq üçün gərəkli olub.



**Şəki, Baş Layısqı, Eşik qalası**

Ərəb işğalları dövründə də bu ərazi (daha geniş mənada Layısqı, Baş Göynük, Cunud, Baş və Aşağı Şabalıd və hətta Qaşqaçay) mühüm strateji əhəmiyyət daşıyıb. Ərəb sərkərdəsi İbn Rəbiyyənin 720-ci ildə burada qışlaması və yenidən Dərbəndə hücum etməsi haqqında, yerli hökmdar və hakimlərlə müqavilələr bağlaması haqqında tarixdə məlumat vardır.

Layısqı Azərbaycan tarixinə bir çox məqamlarında şərəfli imza atmış Göy-

nük mahalının bir hissəsi olub. Çox təəssüf ki, tarixi məqamlarda şimal, şimal-qərb qonşuları, Azərbaycanı zəbt etmək istəyən fatehlərin qarşısında dayanan, bəzən öz diktəsini qəbul etdirməyə nail olan bu kəndlər düşmənlərdən yaxa qurtara bilsələr də, təbii fəlakətlərdən, sel və daşqınlardan yaxa qurtara bilməyiblər. Baş Layısqının düzən hissəsi, Baş Göynüyün Şin çayının sağ tərəfində olan hissəsi, əvvəlki Cunudun əsas hissəsi, Aşağı və Baş Şabalıdın bir hissəsi artıq selin gətirdiyi daş-qum qatlarında 1000 və 100 illlərdir ki, uyuyur. 1910-cu ilin seli, daşqını bu insanlara XX əsrin 20-30-cu illlərinin bolşevik taunundan da çox ziyan vurub.

Burada bir məqama da diqqət yetirmək lazımdır. Baş Layısqı, Baş Göynük kəndlərinin Daşüz və ondan da cənubda Acınohur, Sarıca, Minbərəkdə olan torpaqlardan kurqanlar qeydə alınmışdır. Tarixən Göynük, Layısqı, indi isə Qax bölgəsinə daxil olan və olmayan torpaqlarda, o cümlədən Acınohur düzündə, dərə və keçidlərdə aşkar edilən 100-lərlə kurqan, qədim məzarlıq və yaşayış yerləri nəinki e.ə. IV minillikdən bu tərəfə işıq salır, hətta böyük bir regionun tarixini də izah edir. Bu məqamda düşünürsən ki, tarixən dəfələrlə faciələr gətirən bu sel olmasaydı, düzəndə, qış otlaqlarında olduğu kimi necə deyərlər elə Layısqını, Göynüyün 6-7 minillik tarixindən soraq verən abidələrə elə onların ağzının içində də təsadüf edilirdi. Yüksək dağlıq, dağ ətəyi ərazilərdə olan qədim əkinçilik mədəniyyəti hələ eneolitdən, neolitdən qeydə alınıb. Baş Layısqı, Göynük əraziləri də bu zonalara daxildir. Deməli, sel və daşqınların məhv etdiyi bu mədəniyyətin izlərini dağlıq və dağətəyi ərazilərdə axtarmaq lazımdır.

Baş Layısqıda 1980-ci ildə aşkar edilən və Ramazan Ramazanovun elmə gətirdiyi, Sabir Əfəndiyevin məlumat verdiyi, Maisə xanımın dövrünü dəqiqləşdirdiyi küp-qəbir əldə olunan qəbir inventarları ilə e.ə. II minilliyin ikinci yarısında bu ərazidə yüksək mədəniyyətin, dulusçuluq, zərgərlik və s. sənət sahələrinin yüksək səviyyəsi haqqında məlumat verdi. Tunc bəzək əşyaları yüksək zövqə, bacarıqlı ələ malik insanların dini, mifik, fəlsəfi dünyagörüşündə tərəqqi səviyyəsində olduğunu təsdiq etməyə imkan verdi.

**Nəsib Muxtarov**
***Azərbaycan Milli Elmlər Akademiyasının***
***Arxeologiya və Etnoqrafiya İnstitutunun***
***Şəki bölməsinin rəhbəri***





## BAŞ LAYISQI KƏNDİNDƏN TAPILMIŞ TUNC ƏŞYALARIN TƏDQİQİNƏ DAİR

1980-ci ildə Şəki rayonunun yüksək dağ kəndi olan Baş Layısqıda yerli sakinlər tərəfindən tunc əşyalar aşkar edilmişdir. Tapıntı haqqında Şəki şəhər Diyarşünaslıq Muzeyinə məlumat verilmişdir. Şəki şəhərindən Azərbaycan EA Tarix İnstitutunun mütəxəssisi S. Əfəndiyev təsdiq etmişdir ki, "tapıntı yerinin ətrafında şumlanmış tarlada çoxlu sayda ornamentli gil qablar, müxtəlif tipli muncuqlar və çox çürümüş insan sümükləri var idi". Nəticədə S.Əfəndiyev əşyaların bir hissəsini "Baş Layısqı kəndinin tapıntıları" məqaləsində dərc etmişdir ("Elm və həyat" 1982 N 8, s. 27-29).

Şəki şəhər Diyarşünaslıq Muzeyinə təhvil verilən və 93 əşyadan ibarət olan Baş Layısqı kolleksiyası ilə biz 1988-ci ildə tanış olmuşuq. Bu qısa məlumatda baxılmış materialın təsviri verilmişdir və kolleksiyadan 10 əşyanın Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloji laboratoriyasında aparılmış spektral analizinin nəticələri verilmişdir.

I. Həlqənin ortasında kəsişən, ucu dairəvi kəsilib qısaldılmış, sonluğundan birinin yastılanmış ilanvarı tökülmüş "gicgah halqaları".

II. Sonluğu qapanmayan müxtəlif tipli tünc qolbaqlar. 1. Sonluğu sivriləşdirilmiş və ya küt kəsilmiş, hamar səthli, kəsikdə dairəvi, yoğun tünc çubuqdan hazırlanmış qolbaqlar. 2. Sivriləşdirilmiş, düz və ya ucu küt kəsilmiş, hamar səthi yastılanmış dairəvi çubuqdan hazırlanmış qolbaqlar. 3. Küt kəsilmiş sonluqlu və xarici səthdə dərin mərkəzi novçalı, yastı dairəvi çubuqdan hazırlanmış qolbaqlar. 4. Tökmə, müqayisədə iri, sonluqda relyefli ilanvari başlıqlı və xarici səthdə dərin mərkəzi novçalı, kəsikdə yastı dairəvi qolbaqlar. 5. İlgəkvari sonluqlu, kəsikdə dairəvi qoşa məftildən hazırlanmış qolbaqlar. 6. Çökük söykənəcəkli və ucu sivriləşmiş ilanvari sonluqlu kəsikdə dairəvi qısaldılmış tökmə qolbaqlar. Nazik, tunc lövhəli, enli qolbağın fraqmenti.

III. Kolleksiyada böyük olmayan, dairəvi və ya yastılanmış məftildən düzəldilmiş üzüklər var.

IV. Sırğalar kömbə formasındadır.

V. Konus şəkilli borucuq spiral 13 burumla kəsikdə məftillə dairəvi bükülmüşdür. O, sırğa, yaxud gicgah asmalıq ola bilər.

VI. Hissələri hamar, ornamentsiz, enli tunc lövhədən kəmər təqdim edilmişdir.

VII. Ətrafı nöqtələrlə bəzədilmiş dairəvi kəmərin dəmir lövhəsi də yaxşı

qalmamışdır (umbonşəkilli). Lövhənin ucuna qarmaq bərkidilib: qarmaq, onun əks ucunda isə iki dəlikli zolaq. Göründüyü kimi, bu kəmərdir.

VIII. İki boyunbağı; sonluqları yastılanıb bükülmüş, ilgəkli hörülmüş çubuqdan hazırlanıb.

IX. Böyük olmayan və müxtəlif növlü sancaqlar. Beş sancaq avar şəkilli yastı başlıqlı, hansının ki yuxarı hissəsi daralıb və borucuq şəkilli bükülüb. Kəsikdə dairəvi qısa mil.

X. Bir kənarında deşik olan kiçik aypara, görünür ki, sırğanın asmalığı olub.

XI. Kəsikdə düzbucaqlı zolaqdan hazırlanmış, ucları içəriyə bükülmüş maqqaş.

XII. Tunc lövhədən borucuq.

XIII. Kəsikdə dairəvi məftildən kiçik eynəkşəkilli asma.

XIV. Asmadan zəncir fraqmenti.

XV. Səkkiz tunc ox ucluğu. Onların arasında Zaqafqaziyaya aid mərkəzi dəyirmi, qabırğavari, sallanmış qanad lələyi kimi və sapının əsası qısa enlənmiş olan ox nümunəsi var. Onun dörd tipinin azca sallanmış lələyi, mərkəzi sivrilənmiş lələk və lələk sapının əsasında qısaldılıb enlənmişdir. Küt kəsilmiş lələk qanadları olan, vurğulanan mərkəzi qabırğavari və qısa saplı oxların iki böyük olmayan ucluğu. Bir ox ucluğu yarpaqşəkillidir.

XVI. Nizənin dəmir yarpaq şəkilli ucluğu.

XVII. Az miqdarda muncuqlar: açıq rəngli pastadan xırda muncuqlar, tunc zolaqdan bükülmüş və I əqiq muncuq.

XVIII. Kolleksiyada böyük olmayan tunc, kobud qarmaq vardır.

1983-cü ildə Baş Layısqı kəndində bizə məlumat verdilər ki, tapıntılar içində böyük olmayan çılpaq kişi asma heykəli - fallik tipli gözmuncuğu varmış.

Yuxarıda sadalanan əşyalar Qafqazın tunc - erkən dəmir dövrü abidələrində yayılan alt tipə aid edilir və əsasən b. e. əvvəl IX-VIII əsrlərdə Zaqafqaziyada qəbirlərdə (ən çox daş qutularda) aşkar edilmişlərə yaxındır. Azərbaycanda onların Xocalı-Gədəbəy mədəniyyətinin son mərhələ materialları arasında analoqları var. Sallaqşəkilli sancaqlar kürəkşəkilli Koban sancaqlarına oxşardır, ancaq eyni deyil. Gürcüstanın Çinkaro və Tak-Kilisincsk qədim qəbiristanlıqlarında b. e. əvvəl IX-VIII əsrlərdə daş qutularda qoşalaşdırılmış məftildən anoloji qolbağlar var (bax. A.A.Kuftin. Trialitidə arxeoloji qzıntılar. Tb. 1941, səh. 56). Gicgah halqaları erkən nümunələrdən iriliyinə, sonluğunda qarmağın olmaması, ziqzaqın ucunda küt spiralın olamaması texnikasına görə fərqlənirlər. Bizim e.ə. IX-VIII əsrlərdə Kalakenta daş qutularda Baş Layısqı tipinə yaxın olan tökmə gicgah halqalar aşkarlanmışdır. Bu qəbirlərdə maqqaşlar, əyrili







müxtəlif tipli qolbağlar, ornamentli və ornamentsiz kəmərlər və s. var (bax. Material V.Belka). Kiçik ölçülü – eynəkvari, baltavari və s. asmalar diqqəti cəlb edir. Məlumdur ki, kiçik ölçülü tuncdan və antimondan eynəkvari asmalar bizim e.ə. VIII-VI əsrlərdə yayılmışdır. Buynuzabənzər sancaqlar heyvanın baş və alın hissəsinə aid nümunələrdir, hansı ki, Xocalı-Gədəbəy mədəniyyətinin son mərhələsində yayılmış və skif dövründə davam etdirilmişdir. Skif dövrünə Zaqafqaziyada və əsasən Dağıstanda yayılan kişi fallik tip heykəlciklər aiddir. Ümumilikdə Baş Layısqı kəndinin tunc əşyalarını b.e. ə VIII-VII əsrlərin hüduduna aid etmək olar. Ənənəvi formaların saxlanılması yerli məhsulun olmasını sübut edir, xüsusi ilə də region münasib xammalla zəngindir.

Arxeoloji texnologiya laboratoriyasında bu kolleksiyanın 10 əşyası spektral analizinə cəlb edilmişdir (5 qolbağ, qolbağın 3 fraqmenti, zəncir və ox ucluğu). Hərçənd onlar paxır ilə örtülmüşdür, amma metal yaxşı vəziyyətdə qalmışdır.

Spektral analizin nəticələri göstərdi ki, bütün əşyalar 0.09 - 0.1% qurğuşun, 0,3 - 0,73% sink, 0,05 - 0,3% arsen qatışıqlı mis-qalaydan hazırlanmışdır. Bu elementlərin olması onların mis filizlərində yayılmasını izah edir. Həmçinin bunu da qeyd etmək lazımdır ki, mis-qalay ərintisinin kimyəvi tərkibində adətən qurğuşunun yüksək qatışığı iştirak edir, ancaq hazırkı vəziyyətdə bu qeyd edilməyib, hansı ki, onun qalay filizlərində bərabər paylaşmamasını sübut edir.

**A.A.Qarəhmədova, M.N Rəhimova**
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu***
***Elmi sessiyasının tezisləri. Bakı, Elm, 2002, səh.78-82***

## BAŞ LAYISQININ DÜNƏNİ VƏ BU GÜNÜ

Qədim türklərin oylağı olan bu gözəl kəndin - Layısqının tarixi qədim qatlara, dövrlərə gedib çıxır. Böyük Qafqaz dağlarının qoynunda yerləşən bu kənd və onu çevrələyən Cunud, Qumuq, Şin kəndləri öz tarixi yer adları, qədim ibadət ocaqları, ziyarətgahları, pirləri, görkəmli ziyalıları, alimləri ilə nəinki Şəkidə, Azərbaycanda da məşhurdur. Məlumdur ki, ad şəxsə və məkana, canlı və cansıza xas olan əsas göstəricidir. Tədqiqatımızın ilkin mərhələsində kəndin adı - "Layısqı" toponiminin etimologiyası ilə bağlı məlumat əldə etməyə cəhd etdik. Azərbaycan toponimikasında toponimdən əvvəldə "aşağı", "yuxarı" sözləri işlədilən çoxlu sayda kənd adları respublikamızın ərazilərində mövcuddur. Bəzən "yuxarı" əvəzinə "baş" sözü də işlədilir ki, toponimikamızın görkəmli araşdırıcısı Tofiq Əhmədovun təbirincə desək, "bu model əsasında differensiallaşdırılan 10 yerdə təkrarlanan 5 toponimdə makroarealın (Şəki dialektinin) spesifikasından asılı olaraq "yuxarı" əvəzinə göstərilən mövqedə (cərgədə) onun sinonimi olan "baş" fərqləndirici əlamətindən istifadə edilmişdir: Aşağı – Layısqı - Baş Layısqı; Aşağı – Göynük - Baş Göynük; Aşağı Daşağıl - Baş Daşağıl; Aşağı Kəldək - Baş Kəldək; Aşağı Küngüt - Baş Küngüt [Əhmədov T. Azərbaycan toponimikasının əsasları. - Bakı: Bakı Universiteti Nəşriyyatı, 1991, 312 s., səh.104]. Lakin tədqiqatçılar nədənsə "Layısqı" toponiminin etimologiyası ilə bağlı fikir söyləməkdən yan keçmişlər. Hətta toponimik tədqiqatlarla ardıcıl məşğul olmuş S.M.Mollazadə kimi dilçi alimimiz 1979-cu ildə rus dilində nəşr etdirdiyi "Azərbaycanın şimal rayonlarının toponimiyası" adlı doktorluq dissertasiyasında bu toponimin ("Layısqı" toponimi nəzərdə tutulur – K.A) elmi şərhini verməmişdir. Şəki-Zaqatala zonasının toponimiyasını tədqiq edən Elxan Nuriyev toponimləri şəffaf (mənası anlaşılan: məs, Baltalı, Daşbulaq və s.), yarım şəffaf (məs, Köbər Zəyzit, Oxaza dərə və s.) və naməlum (mənası məlum olmayan) kimi üç qrupa bölmüşdür. Tədqiqatçı "tamamilə naməlum toponimlərə isə Layısqı, Cunud, Bideyiz, Qudula, Zəyzid, Oxud, Qoxmuq (Şəki rayonu) və başqaları misaldır" [Nuriyev E. Azərbaycan SSR-in Şəki-Zaqatala zonasının toponimiyası.- Bakı: Elm, 1989, 112 s., 19] – yazaraq məhdud elmi nəticələrə gəlmişdir. Tarixçi Mirabbas Mirbağırzadə də özünün 1926-cı ildə "Maarif işçisi" jurnalında çap etdirdiyi "Şəki qəzası" adlı məqaləsində Şəkini toponimik və inzibati ərazi baxımından dörd dairəyə bölmüş, "birinci dairədə: Cunut, Zunut, İnçə, Baltalı, Kiş, Qoxmuş, Babaratma (qədim asarı vardır) [Mirbağırzadə M. Azərbaycan qəzaları. III. Şəki qəzası// Maarif işçisi, 1926, №10, s 69-77. ,73] yazaraq tamamilə qeyri-elmi nəticələrə





# BAŞ LAYISQI



**Baş Layısqı kəndi**









**Baş Layısqı tapıntıları**





**Baş Layısqı kəndinin daş kitabələri**











**Daşlarda yaşayan tarix**



Daşlarda yaşayan tarix











Daşlarda yaşayan tarix






**II dünya müharibəsində həlak olanların və iştirak edənlərin xatirəsinə ucaldılmış abidə. Baş Layısqı**






QƏDİM OĞUZ YURDU – BAŞ LAYISQI



**Baş Layısqı kəndinin Şəhidlər xiyabanı**





**Layısqılı Molla Cümənin ev muzeyi**





**Layısqılı Molla Cümənin qəbirüstü abidəsi**



QƏDIM OĞUZ YURDU – BAŞ LAYISQI



**Baş Layısqı kənd məscidi**



**Baş Layısqı. Eşik qalası**









**Baş Layısqı ziyarətgahları**







Əhməd müəllim və Səmənnaz xanım Yusiflilər









Yusiflilər ailəsi







Mehman və Əhməd Yusiflilər







Abdulla Yusifli



Tədqiqatçı-alim Əjdər Fərzəli Baş Layısqıda. 2010



**Baş Layısqının ecazkar təbiəti**







gəlmişdir. Birincisi, ona görə ki, Layısqının adı hələ XIX əsrin 1824, 1831, 1868, 1873 və 1886-cı illərində əhalinin məşğuliyyəti və say tərkibi ilə bağlı Çar Rusiyasının tərtib etdiyi sənədlərdə çəkilmişdir. İkincisi, ona görə ki, necə ola bilər ki, Layısqı kəndinin vaxtilə ərazisi olub sonralar müstəqil yaşayış massivi kimi formalaşan Cunud kəndinin məqalədə adı çəkilsin, Layısqı adı çəkilməsin. Bu baxımdan M.Mirbağırzadənin qeydləri ilə razılaşmaq çətindir. Düzdür, Cunud kəndi də tarixiliyi ilə seçilir və bu toponim ərəb mənşəli olub, mənası "qoşunlar", "ordular" deməkdir [Ərəb və fars sözləri lüğəti.- Bakı, 1967, 1035s.,735]. Lakin M.Mirbağırzadənin məqaləsində Layısqı kəndinin təbii coğrafi şəraiti ilə bağlı (Layısqının adını çəkməsə də) maraqlı qeydlər vardır. O, yazır: birinci dairədə əhalinin başlıca məşğuliyyəti çəltik əkməkdir. Bu dairənin suyu əkinlərinə kifayət etməyir. Buna görə camaatın təsərrüfat halı müşküldür" [Mirbağırzadə M. Azərbaycan qəzaları. III. Şəki qəzası// Maarif işçisi, 1926, №11, s 56-58., 57].

Elmi ədəbiyyatda "Layısqı" toponimini "lak" tayfaları ilə bağlmaq cəhdi də olmuşdur. ASE-nin VI cildində Dağıstan əsilli lak tayfalarından söhbət gedərkən yazılır ki, "lakların bir qismi Dağıstan MSSR-in dağlıq rayonlarında yaşayırlar. Lak dilində danışırlar. Heyvandarlıq, əkinçilik, zərgərlik və dulusçuluqla məşğul olurlar. Lakların dili Qafqaz dillərinin Dağıstan qoluna mənsubdur. Ədəbi dil qumuq dialektinə əsaslanır." [Azərbaycan Sovet Ensklopediyası. X cilddə. Cild 6.- Bakı, 1982, 608 s., 146-147] Bu mülahizənin nə qədər elmilik kəsb etməsi bizdə təəccüb doğurur. Düzdür, qumuqlar türk mənşəli xalqlardır. Lakların isə kök etibarı ilə qumuqlarla bağlanması coğrafi ərazi baxımından bizdə inamsızlıq yaradır. Axı bu gün Şəkinin inzibati ərazi sistemində Layısqı Qumuğun deyil, Qumuq Layısqının bir hissəsidir.

Azərbaycanın tanınmış etimoloq alimlərindən olmuş Əjdər Fərzəlinin də "Layısqı" toponimi ilə bağlı maraqlı mülahizələri vardır. Tədqiqatçı bu sözün kök-semantikasını xalqın soykökü ilə bağlayıb maraqlı fikirlər irəli sürür. Bu baxımdan alim görkəmli maarif xadimi, el ağsaqqalı Əhməd Salman oğlu Yusiflinin anadan olmasının 85 illik yubileyinə həsr etdiyi "Salam, Layısqı dağları" (2011) adlı kitabının "Layısqı sözünün etimologiyası" adlı bölməsində yazır: "Fikrimizcə, uşağa lay-lay çalınmasında "lay-lay" sözünün məzmundan məzmuna keçidi var. Bu mənada Şəki rayonundakı "Layısqı" kəndinin, dağının və çayının adı uşağa çalınan "lay-lay"dan əvvəl gəlib. Bu kəndin, dağın və çayın adı bir hecalı "lay" koduna bağlıdır. Məhz bu koddan "Layısqı" sözü yaranıb. "Layısqı" öncə "Layıs" adlanıb [Fərzəli Əjdər. Salam Layısqı dağları.- Bakı: Ozan, 2011, 188 s., 11-12]. Gətirdiyimiz arqumentdə tədqiqatçı qəribə məntiq, yurda, vətənə sevgini ifadə edən məntiq nümayiş etdirir. Bildiyimiz kimi, insan sosio-

loji varlıq olub təbiətin əlavəsidir. Cəmiyyət, insan yaranandan, ailə formalaşandan ananın övladını ovundurmaq üçün söylədiyi layla yaranıb. Əjdər Fərzəlinin Layısqı adının lay-laydan qabaq yaranması ehtimalı onun bu torpağın, yurdun, el-obanın qədimliyini təsdiq etmək inamından xəbər verir. "Layısqı" toponimi ərəb və fars mənşəli söz deyildir. "Ərəb və fars sözləri lüğəti"ndə bu sözün məna açımına rast gəlmədik. "Azərbaycan dilinin izahlı lüğəti"nin üçüncü cildində "lay" komponenti – Cismin üst-üstə sıralanması kimi izah olunub. "Lay" sözü bir hecalı söz kimi əsl türk mənşəli sözdür. Layısqı sözünü qədim türk tayfalarından biri və dilimizin ahəng qanununa uyğun söz kimi təhlil edən tədqiqatçı Əjdət Fərzəli çox düzgün təhlil verərək yazır ki, "...Layıs adının çox qədimlərdə "sulu", "işıqlı gözəl vətən" mənası aşkarlanır. Şəkinin Layıski kəndinin və Layısqı çayının adındakı "ski" (əslində "sqı) şəkilçisi onun rus dilində tələffüzü ilə Layısqı şəklində səslənməsi gümanını da yaradıb. Amma tədqiqatımız bu gümanı rədd edir. Lay-layıs rusların Azərbaycana gəlməsindən asılı olmayaraq Layısqı şəklində də işlənə bilərdi. Azərbaycan dili türk dillərindən biri kimi, ahəng qanununa uyğun olduğu üçün bu dilin sözlərində saitlər, samitlər, sait-samit ardıcıllığı izlənir. Birinci sait qalındırsa, sonrakılar da qalın, incədirsə, sonrakılar da incə gəlir. Mayıs, Layıs, Sılay, Bayıs sözlərində də bu qayda pozulmur. Bunlar dörd türk qəbiləsinin adlarıdır" [Fərzəli Əjdər. Salam Layısqı dağları.- Bakı: Ozan, 2011, 188 s., 13-14].

Baş Layısqı kəndinin tarixi eradan əvvəllərə gedib çıxır. Bizə bu fikri söyləməyə əsas verən kənddə bu gün adını saxlayan bəzi toponimlərdir. Bu gözəl məkan başlanğıcını müdrik, ağsaqqal ziyalı Əhməd Yusiflinin Çakıl-Layısqı zirvəsi adlandırdığı Çaqıl dağından aldığı Layısqı çayı ilə iki hissəyə ayrılır. Şəkidən Layısqıya üz tutduqda sağ tərəfi Muğallar, sol hissəsi lahıclar (tələffüzdə-layışlar) adlanır. Bir sıra tədqiqatçılar Azərbaycanın başı qarlı dağlarından biri olan Çakılı (tələffüzdə "Çaxıl") oğuzlarla bağlayırlar. Əslində bu fikir düzgün deyildir. Əvvələn, ona görə ki, "Çakıl" sözü xalis türk sözüdür. "Çakıl dağı", yəni çınqıllı, qayalı dağ mənasını verir. Hal-hazırda türklər "çakıl" sözünü "çınqıl", "qaya parçası" mənalarında işlədirlər. Bu cür oxşarlıqlarla biz Baş Layısqı və digər kəndlərin tarixini birbaşa Oğuz türkləri ilə bağlaya bilmərik. Digər tərəfdən belə nəticəyə gələ bilərik ki, Oğuz türkləri Azərbaycana gəlməmişdən əvvəl də (bəzi tarixçilər səhvən bu fikri eramızın VII əsrinə aid edirlər) burada türklər yaşayırdı və bu baxımdan da onlara yaxın olan Oğuz türkləri ilə qaynayıb-qarışmaq asan olmuşdu.

Baş Layısqı kəndinin sağ sahili olan Muğallar məhəlləsinin adı da ərazinin qədimliyindən xəbər verir. Azərbaycan alimlərindən M. İsmayılovun, Ə. Dəmirçizadənin, Q.Qeybullayevin, T.Əhmədovun, Q.İ. Məşədiyevin, E. Nuri-





yevin və başqalarının "maq", "muğ" etnonimi ilə bağlı maraqlı fikirləri vardır. Məşhur alim Q. İ. Məşədiyev "muğal" sözünə münasibət bildirərək yazır ki, "muğal və ya muğan" qədim türk tayfalarından birinin adıdır və bu tayfalar sonralar türk xalqlarının başqa qurumun içərisində ərimişdir. Çox maraqlıdır ki, Qafqaz xalqları, xüsusilə, ləzgilər azərbaycanlıları "moğal", "muqal" adlandırırlar. [Məşədiyev Q.İ. Zaqafqaziyanın Azərbaycan toponimləri. - Bakı: Elm, 1990, 148s., 57-58]. Toponimçi alim T. Əhmədov "muğal" isə "monqal" etnoniminin qismən təhrif olunmuş forması olub, həmin zonada (Qax rayonu nəzərdə tutulmuşdur – K. A) keçmişdə azərbaycanlılara verilən adla ifadə olunmuşdur". [Əhmədov T. Azərbaycan toponimikasının əsasları. - Bakı: Bakı Universiteti Nəşriyyatı, 1991, 312 s., 129-130] yazaraq etnonimin tarixi dönəmini XIII əsrlə məhdudlaşdırmışdır. Tədqiqatçı Elxan Nuriyev də tarixi qayçılamanı sərtləşdirərək yazır: "Muğal" sözü şübhəsiz ki, "monqol" sözünün fonetik şəklidir. Ehtimal ki, monqolların işğalları vaxtı türk mənşəli tayfalar bu ərazilərdə məskunlaşdığından ətraf kəndlərin əhalisi də onları muğal adlandırmışdır. "Muğal" etnonimi zona toponimiyasında bir neçə kəndin nəsillərinin adlarında da saxlanmışdır. Məsələn, Baş Layısqı kəndinin (Şəki rayonu) bir məhəlləsi Muğal adlanır [Nuriyev E. Azərbaycan SSR-in Şəki -Zaqatala zonasının toponimiyası.- Bakı: Elm, 1989, 112 s.,40]. Göründüyü kimi hər iki tədqiqatçı həm T. Əhmədov, həm də E. Nuriyev etnonimi tarixi dönəmindən ayıraraq XIII əsrə aid etmişdir. Əslində isə muğ tayfaları qədim Midiya dövlətinin ərazisində yaşayan türk tayfalarından biri olmuşdur. Məhz qədim Midiya hökmdarı Astiyaqın yuxusunu yozan da muğlar idi.

1980-cı ildə Baş Layısqı kəndindən sel nəticəsində yuyulmuş xəndəkdən müxtəlif bürünc qolbaqlar, bəzək şeyləri, nizə ucları, muncuqlar tapılmışdır. Bu barədə məktəblilər müəllim R.Ramazanova xəbər vermişlər. Ramazanov tapıntı yerinə gələnəcən qəbir avadanlığının bir hissəsi ələ keçmiş, lakin Ramazan müəllim bunların əksəriyyətini toplayaraq məktəbə gətirmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Şəki Etnoqrafiya qrupunun rəhbəri Sabir Əfəndiyevin qeydlərindən: "Tapıntı haqqında məlumat alan kimi kəndə gəldik. Təqribən 20 hektar ərazidən şum edilərkən çoxlu küp, bəzəkli saxsı qırıqları, insan sümükləri tapılıbdır. Qədim saxsı kürəsinin yeri indi də qalır. Əlverişli həyat şəraitinə malik olan bu ərazidə qədim insan məskəni olduğuna şübhə yoxdur. Biz bürünc məmulat tapılan qəbir yerinə baxarkən onun ətrafında müxtəlif ölçülü muncuqlar, saxsı qırıqları və insan sümükləri aşkar etdik. Baş Layısqıda tapılmış qəbir tunc dövrünə dair Mingəçevir qəbirlərinə tamamilə uyğun gəlir. Belə qəbirlərdə tunc qolbaq və nizə uclarının həddən artıq olması məlumdur. Baş Layısqıdakı qəbirdən də 60-a yaxın müxtəlif formada və ölçüdə bürünc qolbaq

tapılmışdır. Bunlar Mingəçevirdən əldə edilmiş bürünc əşyalar kimi saflaşdırılmış misdən hazırlanmışdır. Onların üzərinə xüsusi yaşıl emal çəkilmişdir ki, bu da həmin əşyaları əsrlərlə korroziyadan qorunmuşdur. Baş Layısqıdan tapılan maddi mədəniyyət nümunələri arasında qadınlara məxsus bəzək şeylərinin rəngarəngliyi o dövrdə övladlarımızın estetik baxışları və zövqü barədə fikir söyləməyə imkan verir" [Əfəndiyev S. Baş Layısqı kəndində tapıntı/ Elm və həyat, 1980, №5, s27-29, 27].

Baş Layısqı kəndindən tapılan maddi-mədəniyyət nümunələri arasında qadınlara məxsus bəzək şeylərinin rəngarəngliyi o dövrdə əcdadlarımızın mifik və estetik görüşlərini öyrənmək üçün də mühüm əhəmiyyət kəsb edir. Qaşın alınması üçün işlədilən və Azərbaycanda qadın bərbərliyinin qədim tarixini göstərən naqqaşın bu ərazidən tapılması bir sıra mülahizələr söyləməyə imkan verir. Alazan-Həftəran vadisində yaşayan albanların atəşpərəstlik əqidəsinə görə Günəş kimi Ay da müqəddəslik təcəssümü idi. Məhz qadınların qaşlarını təzə çıxmış Ay şəklinə salmaları və buna lazım olan alətlərin yaradılması Azərbaycanla bağlı bir məsələdir.

Saç folklor qaynaqlarında və keçmiş yazılı nümunələrdə qaranlıq gecənin rəmzidir. Qədim Azərbaycanın gəlin və qızları öz saçlarına misdən hazırlanmış, üzərində burma naxışlar olan aypara şəkilli sancaqlar taxarmışlar. Bu, zülmət gecənin (saçların) üzərində Ayın (qövsvari mis sancağın) varlığının rəmzidir. Layısqı tapıntısı içərisində belə sancaqlar çoxdur. Bundan əlavə qədim azərbaycanlılar mis təbəqədən hazırlanmış günəş kimi girdə, yerdən səmaya baxarkən günəşin böyüklüyü boyda bəzəklər də gəzdirmişlər. Baş Layısqı tapıntılarının etnoqrafik xüsusiyyətlərini təhlil edərək S.Əfəndiyev yazır: "Qəbir əşyalarının mifik xarakterliyi Baş Layısqıdan tapılan bürünc qolbaqların formalarında da özünü büruzə verir. Onların barəsində bəzi mülahizələr söyləmək yerinə düşərdi. İndiyədək etnoqraf tədqiqatçılar qolbaqların təsnifatında dini motivlərin mövcudluğu barədə qəti fikir söyləməmişlər. Baş Layısqı qəbir qolbaqları arasında başı kəsilmiş qıvrılan ilan formalı qolbaq təkcə bəzək vasitəsi olmayıb, həm də axirət dünyasında şər qüvvələrdən qoruma, ovsunlama vasitəsi kimi işlədilmişdir. İndi də Şəki-Zaqatala zonası rayonlarında ilanla əlaqədar bir sıra dini təsəvvür qalıqları qalmaqdadır. Yurdda yaşayan ilanları öldürməmək, onların mülkdən çıxıb getməsi üçün ilanın girib çıxdığı yuvanın ağzında qabda su, duz və çörək qoymaq ilan ovsunçularına inam və s. mifik adətlər mövcuddur. Yəqin belə qolbaqların qəbirlərə qoyulması axirət dünyasında şər qüvvələrin ram edilməsi məqsədini güdürmüş" [Əfəndiyev S. Baş Layısqı kəndində tapıntı/ Elm və həyat, 1980, №5, s27-29, 28].

Baş Layısqıda yaşayışın qədim izlərini yaşadan qəbirüstü kitabələr mühüm





önəm daşıyır. Hacı Salah baba ziyarətgahındakı əski qəbirüstü kitabələr fikrimizin təsdiqidir. Məsələn, mərhum Dəmir ibn Sina Dəlali həzrətləri yazılı kitabənin üzərində qəbir sahibinin hicri 119-cu ildə, Məğfur İsmayıl Əfəndi ibn Məqsud yazılı kitabədə qəbir sahibinin hicri 101 ildə, Mərhum Mürsəl ibn Məhəmməd yazılı kitabənin üzərində qəbir sahibinin hicri 230-cu ildə, Mərhum Xurşid ibn Məhəmməd yazılı kitabənin üzərində qəbir sahibinin hicri 223-cü ildə dünyasını dəyişməsi əsrlərin təlatümlərindən çıxaraq qaranlıq meşənin içərisində olan qəbirstanlıqda günümüzə qədər gəlib çıxmışdır. Bu cür qəbir yerlərinin yenidən bərpa olunması yaşayışın qədim izlərinin gələcək nəsillərə çatdırılması üçün əsas olardı.

Baş Layısqı kəndi də Baş Göynük kəndi kimi xalqımızın qəhrəmanlıq tarixində mühüm rol oynamış, 30-cu illərin ağır repressiya tufanına məruz qalmış, XX əsrin ortalarında baş vermiş Böyük Vətən müharibəsində 300 gənci ilə birlikdə iştirak etmiş, əsrin sonlarında baş vermiş Qarabağ savaşında - erməni qəsbkarlarına qarşı mübarizədə 21 nəfər şəhid vermişdir.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Göynük mahalında, eləcə də Baş Layısqı kəndində sosial-siyasi vəziyyət daha da kəskinləşmişdi. Milli hökumətin süquta uğradılmasına dözməyən vətənpərvər qüvvələr kütləvi şəkildə silaha sarılaraq rus istilasına qarşı mübarizəyə qalxdılar. Baş Göynük, Aşağı Göynük, Baş Layısqı və digər kəndlərin birləşmiş qüvvələri Şəkiyə qədər irəliləyərək bir sıra müəssisə və idarə binalarını azad etmişdilər. Asanlıqla məğlub olmayan igidlər dağlara çəkilərək qaçaqçılıq hərəkatı formasında 20-ci illərin sonuna qədər müqavimət hərəkatını davam etdirmişdilər. Göynük qaçaqları sırasında, yeni sovet quruluşuna qarşı mübarizə aparan bəlli qaçaqlardan biri Baş Layısqı kəndinin sakini Pini oğlu Abdullanın adı hörmətlə çəkilir. O, Sovet hakimiyyətinin ilk illərində kəndin günahsız insanlarını bolşeviklərə satan bir şəxsi öldürdüyünə görə qaçaq düşüb. Kənd arasında böyük nüfuz və hörmət sahibi olduğuna görə ələ verilməmiş, lakin siyasi rəhbərlik tərəfindən pulla satın alınmış bir xain tərəfindən öldürülmüşdür. 1930-cu il Şəki üsyanının mərkəzi Baş Göynük kəndi olsa da, ətraf kəndlərin vətənpərvər qüvvələri də Şeyx oğlu Molla Mustafanın ətrafına toplaşmışdılar. Yaşlı nəslin söyləməsinə görə Layısqı və Qumuqdan olan Əhməd, Bilal, Sədullah, Məhəmmədəli və başqaları hərəkatın fəal üzvlərindən olmuşdular. 1930-cu il Şəki üsyanın tədqiqatçısı H. Manaflının yazdığına görə, "...Şəkidə qətillər davam etməkdə idi. Yalnız Bağırovun maşınının atəş altına düşdüyü küçədə yaşayanlardan 80 nəfərə qədər adam güllələndi" [Manaflı H. Şəki üsyanı. - Bakı: Zaman, 2000,112 s., 96]. Üsyan məğlub olduqdan sonra Sədullah kişi sağ qalsa da, Əhməd və Bilal kişini, kəndin nüfuzlu şəxsi olan Hacı Surxayı və onlarla günahsız adamı sorğusuz-şahidsiz yaxınları-

nın gözləri qarşısında güllələnmişdilər. Sovet qəddarlığı o dərəcəyə çatmışdı ki, Baş Layısqıda Mustafa kişinin oğlu İbrahim qabarlı əlləri ilə barama yetişdirib Şəkinin varlı ipəkçi sahibkarlarına barama verdiyinə görə günahlandırılıb atasının gözləri qarşısında vəhşicəsinə güllələnmişdir. Şahidlərin söyləmələrinə görə bir sıra "günahkarlar" gülləni gözləri bax-baxa alınlarından qəbul etmişdilər.

Böyük maraq kəsb edəcəyini nəzərə alaraq Molla Cümə və Molla Surxay dostluğundan bəhs etmək istəyirik.

XIX əsr aşıq ədəbiyyatımızın və yazılı ədəbiyyatımızın qüdrətli nümayəndəsi Molla Cümə haqqında çox yazılıb. Folklorşünas alimlərimizdən P. Əfəndiyev, M. Qasımlı, S. Paşayev, Q. Namazov, Q.Vəkilov və başqaları maraqlı, həmçinin mübahisəli fikirlər söyləmişlər. Aşığın 1920-ci ildə öldürülməsilə bağlı verilən məlumatlar, söylənilən rəvayətlər isə bir-birini tamamlamır. Molla Cümənin həyat və yaradıcılığı ilə bağlı məlumat toplamaq məqsədilə ünvan soruşduqda aşığın nəvəsi Mövlud Əzizovun ailəsini nişan verdilər. Aşığın nəticəsi Habil Əzizovdan aldığımız məlumatlar Molla Cümənin həyatına maraqlı, orijinal əlavə kimi qiymətləndirilə bilər. Molla Cümənin öldürülməsilə bağlı folklorşünas, professor Paşa Əfəndiyevin tərtib edib "Molla Cümə. Əsərləri" adı ilə 2006-cı ildə nəşr edilən kitabdakı məlumatları olduğu kimi oxucuların nəzərinə çatdırırıq: "1961-ci ildə Şəkidə ekspedisiyada olarkən internat məktəbinin dil və ədəbiyyat müəllimi Cahangir Qazıyevlə tanış olduq. O bir neçə il idi ki, aşığın şeirlərini toplamaqla, tərcümeyi-halını öyrənməklə məşğul idi. C.Qazıyev o zaman "Şəki fəhləsi" qəzetində Molla Cümə haqqında dərc olunan məqaləsini bizə təqdim etdi. Məqalədə Molla Cümənin ölümü ilə bağlı aşağıdakı sözlər yazılmışdı: "1920-ci ilin may ayının əvvəllərində XI Qızıl Ordunun hissələri Şəkidən Zaqatalaya doğru gedərkən bu yolun ətrafındakı kəndlərin varlıları orduya müqavimət göstərmək fikrinə düşüblər. Burada atışma başlayır. Bir çox yoxsul kəndli ordu ilə orduya qarşı mübarizə aparanların arasında qalır. Molla Cümə də yoxsulların yanında idi. Bu vaxt ona güllə dəyir". Şəkinin Baş Göynük kəndindən, sənəti etibarı ilə feldşer olan Yaqub Əkbərov doğma dayısı Mahmud müəllimin hekayətini olduğu kimi bizə danışdı. Mahmud o zaman Aşağı Layısqıda müəllimlik edirmiş. Şəki-Zaqatala tərəfdə qarışıqlıq düşən vaxtı, yəni sovet hakimiyyətinin qurulmasına qarşı Zaqataladan olan Hafiz Əfəndinin yaratdığı müqavimət və mübarizə zamanı məhz burada, Aşağı Layısqıda qaçhaqaç düşür. Çünki XI Qızıl Ordunun əsgərləri ilə Hafiz Əfəndinin adamları arasında atışma olur. Camaat dağlara çəkilir. Bu zaman Mahmud müəllim də atlı qaçırmış. O danışır ki, atla gedirdim. Bir də gördüm, Molla Cümə çiynində saz yol ilə çox sakitcə yeriyir. Nə qədər təkid etdim, gəl min ata qaçaq, razı olmadı. Cavab verdi ki, mən aşıq babayam, mənə heç kim heç nə eləməz, heç bir yerə qaçmaram,





qonşu kəndə gedirəm. Mən atla uzaqlaşandan sonra güllə səsi eşitdim. Məncə, bu güllə Molla Cüməyə dəydi."

Molla Cümənin qızı Reyhan xanım atasının ölümü haqqında belə danışır: "Əvvələn, atam nə özü kənddən çıxıb, nə də ailəsini heç yerə qaçmağa qoymamışdır. O zaman Aşağı Layısqı kəndinin əksər camaatı dağlara qaçmışdı. Ancaq Molla Cümə ailəsilə birlikdə kənddə qalıb. Onda elə bir qənaət olub ki, sənətkar adamdır, ona heç kim, heç nə eləməz. Axşamçağı kəndin bir neçə hörmətli adamı ilə birlikdə Molla Cüməni də evindən aparıblar. Ondan sonra aşıqdan bir xəbər çıxmamışdır. Bir neçə gündən sonra meşədən meyidi tapılmışdır."

O, rayonun ucqar dağ kəndlərindən birində sadə kolxozçu ailəsində dünyaya gəlmişdi. Onu yaxından tanıyanların dediklərinə görə Aytən ailədə üç qardaşın – Nərmanın, Xəzan və Fərmanın bircə bacısı idi. Aytən hələ balacalığından zəhmətsevərliyi ilə yaşıdlarından fərqlənirdi. Rəhmətlik anası Pəri xanımın sağ əli idi. Oxuduğu məktəbdə də fəallığı ilə seçilər, ictimai işlərdə yaxından iştirak edərdi. Şagird yoldaşları arasında böyük nüfuza malik idi. Səhiyyə işçisi olmaq arzusu ilə tibb bacısı kursunu da bitirmişdi.

Vətənə, torpağa bağlılıq kimi ülvi hisslər təəssübkeş, hünərli Aytən üçün hər şeydən üstün idi. Ona görə də Ermənistanın doğma Qarabağa, torpaqlarımıza təcavüzü başlananda Aytən də yurdumuzun qeyrətli övladlarından geri qalmaq istəmədi. Qardaşları Xəzan və Fərmanın ardınca Bakıya gəldi. Könüllü olaraq Qarabağa, cəbhə bölgələrinə yollandı. Aytən tibb bacısı kimi burada torpaqlarımızı müdafiə edən döyüşçü qardaşlarının ən yaxın köməkçisi oldu. Neçə-neçə yaralı döyüşçünün dadına çatdı. Onların yenidən həyata qaytarılması üçün bacarığını əsirgəmədi.

Ağdərə uğrunda gedən döyüşlərdə A.Abdullayeva da yaxından iştirak etmişdir. Məhz həmin döyüşlərdən birində yaralı yoldaşlarına tibbi yardım göstərən zaman aldığı snayper gülləsi yarasından cəsur və hünərli Aytən gözlərini əbədiyyətə yumdu. 20 yaşında ikən öz ölümü ilə ölməzliyə qovuşdu Aytən xanım.

Ölkəmizin paytaxtı Bakı şəhərinə – xalqımızın səcdəgahı "Şəhidlər xiyabanı"na yolu düşənlər Layısqının burada uyuyan igid qızı Aytən Abdullayevanın da qəbri önündə ehtiramla baş əyirlər.

Ruhun şad olsun, Aytən xanım!

## KƏNDİMİZDƏ BİR ŞƏHİD VAR



**Elman Şükür oğlu Verdiyev** *1976-cı il mart ayının 3-də Şəki rayonu Baş Layısqı ərazi nümayəndəliyinin Cunud kəndində anadan olmuşdur. 1993-cü ildə Cunud kənd orta məktəbini bitirmişdir.*

1994-cü il mart ayının 23-ü idi. Bütün kənd bilirdi ki, sabah Şükür kişinin oğlu Elman cəbhəyə yola düşür. Şükür kişi də oğlunun xətri xoş olsun deyə, elə həmin gün Elmanın tay-tuşlarını evinə çağırmışdı.

– Zərqələm ananın şüyüd plovundan olmaz. Elə bir toy aşıdır.

Ocaq başında bu sözləri eşidən ananın qəlbindən bir sual qopdu:

– Görəsən, balam Elmanın toyunu görəcəyəmmi?

Qonşu qadın anaya təsəlli verdi:

– Görərsən, inşallah. Uşağı döyüşə yollayan ana gərək şax gəzə, şax dolana. Düşmənə üz versən, qabağını almasan, gəlib çıxar düz ocaq başına.

İçəridə isə əsl toy-bayram idi. Tay-tuşları Elmanın başına and içir, onu tərifləyir, şəninə xoş sözlər deyirdilər. Zarafat eləyən də olurdu.

– Bax, Elman, nə vaxt dara düşsən, bir papaq elə, ya da havaya bir güllə sıx, o saat qulluğunda hazır olacağam.

– Papaq eləməyə vaxt nə gəzir? Çətini döyüşə girənə qədərdir. Avtomatı ki, əlimə götürdüm, sonrası asandır, – deyə Elman özünü sındırmadı.

– Mənim balam təkbaşına yüz igidin öhdəsindən gələr, – deyə Zərqələm ana dilləndi. Ananın bayaqkı pərtliyindən əsər-əlamət qalmamışdı.

Ertəsi gün, 1994-cü il mart ayının 24-də kənd yoluna əliçantalı bir igid çıxdı. Bu yol Verdiyev Elman Şükür oğlunu cəbhəyə, odlu səngərlərə doğru aparırdı. Elmanın olduğu "N" saylı hərbi hissəsi Füzuli uğrunda döyüşlərdə iştirak etmək tapşırığı almışdı. Döyüşlər səngimək bilmirdi. Döyüşdən döyüşə, cəbhədən-cəbhəyə atılan Elman düşmənə qan uddururdu.

1995-ci il may ayının 26-sı idi. Təbiət Elmana həmişəkindən gözəl görünürdü. Kefi kök idi. Müşfiqin bir misrası yadına düşdü: "Ah, mən günü-gündən bu gözəlləşən işıqlı dünyadan necə əl çəkim?" Deyəsən, Elman hiss eləmişdi ki, bu gün onun dünya ilə, insanlarla son görüşü – vida günüdür. Həmin gün daha cəsarətlə döyüşən Elman Şükür oğlu şəhidlik zirvəsinə ucaldı.

Kənd camaatı el adətilə Elmanı son mənzilə yola saldı.





## ÇOX YAŞAMAQ ŞƏRT DEYİL



**Sadəddin Hacı oğlu Qarayev** *1964-cü ilin avqust ayında Baş Layısqı ərazi nümayəndəliyinin Şin kəndində anadan olmuşdur. 1981-ci ildə kənddəki orta məktəbi bitirmiş, elə həmin ildə Bakıdakı 12 saylı texniki peşə məktəbinə daxil olmuşdur. 1981-84-cü illərdə keçmiş Sovet Ordusu sıralarında xidmətdə olmuşdur. Hərbi xidmətini başa vurduqdan sonra Bakı Dövlət Universitetinin geologiya-coğrafiya fakültəsinə daxil olmuşdur. Universiteti qurtardıqdan sonra Qax rayonundakı 2 nömrəli orta məktəbdə müəllim kimi əmək fəaliyyətinə başlamışdır. 1993-cü ildə könüllü olaraq Milli Ordu sıralarına getmiş, Tərtər - Ağdərə bölgələrində gedən döyüşlərdə igidliklə vuruşmuş, 1994-cü ilin yanvar ayında şəhid olmuşdur. Qəbri Şin kəndindəndir.*

"Çox yaşamaq şərt deyil. Əsas odur ki, lap az yaşasan belə xalqın üçün nəsə edə biləsən". Bunlar Sadəddinin öz dilindən çıxan sözlərdir. Bu sözlər bəlkə də taleyini əvvəlcədən duymaq fəhmindən irəli gəlib deyilmişdi. Bilmirik. Onu tanıyanlardan öyrəndiklərimizə əsasən yalnız onu deyə bilərik ki, Sadəddin hələ kiçik yaşlarından ciddiliyi, doğruçuluğu və bir qorxmazlığı ilə seçilərdi. Bir də görərdin ki, bir dəstə kənd uşağını yığıb başına dava-dava oynayır. Həmişə də komandir olardı. Və bu xüsusiyyətləri sonralar da onu həmişə yaşıdlarından fərqləndirib, sevdirib. Yəqin elə bu xüsusiyyətlərinə görə ona orduda xidmət etdiyi vaxtda hərbi hava qüvvələrində radiostansiya rəisi kimi mühüm vəzifə etibar edilmişdilər.

Ali təhsilli müəllim idi. Başını aşağı salıb bir parça çörəyini qazana bilərdi. Lakin bu qeyrətli gənc sakit guşədə daldalanmağı özünə rəva bilmədi. Vətəni düşməndən xilas etmək üçün o da silaha sarıldı. Müəyyən hərbi təcrübəsi olduğuna görə elə birbaşa döyüşən orduya yollandı. O, düz bir il Tərtər və Ağdərə bölgələri uğrunda gedən döyüşlərdə igidliklə vuruşdu. Və bu az vaxt ərzində öz intizamı, qorxmazlığı ilə hamının ürəyində öz izini qoya bildi. Ona görə də 1994-cü ilin yanvar ayında qızğın döyüşlərin birində şəhid olandan sonra da döyüş dostları uzun müddət onun yoxluğuna inana bilmirdilər. Sadəddin Qarayev Vətən yolunda əbədiyyətə qovuşdu. Qəbri nurla dolsun.

# ADINA LAYİQ OĞUL



**Polad Hidayət oğlu Qaffarov** *1971-ci ildə Baş Layısqı ərazi nümayəndəliyinin Şin kəndində anadan olmuş, 1977-1987-ci illərdə kənddəki orta məktəbdə təhsil almışdır. Sonra hərbi xidmətə çağrılmış, ordudan tərxis olunduqdan sonra bir müddət doğma kəndlərində işləmişdir. 1991-ci ilin iyun ayında Milli Ordu sıralarına xidmətə çağrılıb, Tərtər, Ağdərə, Şuşa və Laçın rayonları uğrunda gedən döyüşlərdə iştirak edib. Elə həmin ilin sentyabr ayında döyüşlərdə şücaət göstərərək həlak olmuşdur. Qəbri Şin kəndindəndir.*

Hidayət kişi ilk oğul balası dünyaya gələndə adını Polad qoydu. Qoy polad kimi möhkəm və əyilməz olsun, – dedi. Aylar illərə qovuşduqca Polad da böyüdü, qoçaq bir oğlan oldu. O, zəhmətkeş bir ailədə boya-başa çatıb tərbiyə almışdı. Atası çoban, anası tütünçü idi. Özü də əli iş tutandan həmişə onlara kömək etmişdi. Torpaqcanlı, elcanlı bir oğul idi. Onu döyüş meydanına aparan da bu duyğu oldu.

Polad igid döyüşçü idi. Ondan söz düşəndə həmişə – adına layiq oğuldur, – deyirdilər. Düşmənin qənimi idi. Döyüş yerini hamıdan axırda tərk edirdi. Onun döyüş yolu Tərtər rayonundan başlamışdı. Sonralar Ağdərə, Şuşa və Laçın rayonları uğrunda gedən döyüşlərdə də iştirak etmişdir. Bu döyüşlərdə göstərdiyi igidliklərə görə pul mükafatına layiq görülmüşdü.

Laçın rayonunun ağır günləri idi. Düşmən göz açmağa imkan vermirdi. Silahdan korluq çəkən döyüşçülərimiz hər döyüşdə son güllələri qalana qədər vuruşurdular. Növbəti döyüş isə daha ağır olmuşdu. Polad birdən gördü ki, komandiri Xosrov Məmmədov köksünə dəyən gülədən yerə yıxıldı. Sürünə-sürünə ona yaxınlaşdı. Düşmən tərəfdən güllələr dolu kimi yağırdı. O, buna məhəl qoymadı. Komandiri çiyninə alıb döyüş zonasından çıxardı. Onu qospitala çatdırdı. Sonradan Polad öz şücaətinə görə mükafatlandırıldı.

Lakin... Döyüşlərin birində düşmən gülləsi onun gənc ömrünə son qoydu. Polad Qaffarov 1991-ci il sentyabrın 22-də Gəncə xəstəxanasında dünyasını dəyişərək şəhidlik zirvəsinə yüksəldi.





# SİNƏSİNİ SİPƏR ETDİ



**Nəzər Əhəd oğlu Əsədov** *1970-ci il mart ayının 24-də Baş Layısqı kəndində dünyaya göz açıb. 1985-ci ildə Baş Layısqı kənd orta məktəbinin VIII sinfini bitirmiş, həmin il 43 saylı texniki peşə məktəbinə daxil olmuş, çilingər peşəsinə yiyələnmişdir. 1988-ci ildə rus ordusunda hərbi xidmət etmiş, 1990-cı ildə doğma kəndinə qayıtmış, kolxozda işləmişdir. 1992-ci ilin mart ayında doğma Vətənin müdafiəsinə getmiş, Şuşa, Laçın uğrunda mübarizədə fəallıq göstərmişdir. Sırxavənddə döyüşlərdən birində ağır yaralanmış, 1992-ci il sentyabrın 27-də şəhidlik zirvəsinə ucalmışdır.*

Onlar üç qardaş, iki bacı idilər. Atası Əhəd kişi, anası Mahirə xala Nəzəri uşaqlıqdan çox istəyirdilər. Elə oxuduğu Baş Layısqı kənd orta məktəbində də müəllimlərin sevimlisi idi. Çilingərlik peşəsinə daha çox marağı vardı. 43 saylı texniki peşə məktəbində təhsilini başa vurduqdan sonra bir müddət Baş Layısqı kolxozunun qarajında çilingər işləmişdir. Vətən qeyrəti, doğma torpağa məhəbbət hissi Nəzərin də qollarına qüvvət vermişdir. Şuşada, Laçında, Abdal-Gülablı, Drambon kəndlərində mərdliklə vuruşmuş, misilsiz şücaət göstərmişdir. Həmişə əsgər yoldaşlarını torpağı müdafiəyə səsləmiş, onları ölümdən xilas etmək üçün sinəsini düşmən gülləsinə sipər etmişdir. Nəzər xidmət etdiyi batalyonun sevimlisi idi. Onun ölümü bütün döyüş yoldaşlarını sarsıtsa da, Nəzərin xatirəsini həmişə əziz tuturlar.

Nəzər sözün həqiqi mənasında torpaqlarımızın müdafiəsində qəhrəmanlıq göstərmişdir. Komandirləri həmişə şəkili Nəzəri döyüş yoldaşlarına nümunə göstərirdilər.

1992-ci il sentyabr ayının 27-si idi. Sırxavənd cəbhəsində düşmən öz mövqeyini əldən vermək istəmirdi. Həmin gün Nəzər mərdliklə, igidliklə vuruşurdu. Döyüşlərdə ağır yaralanmasına baxmayaraq, düşmənə aman vermirdi. Ölümündən qabaq neçə-neçə düşməni yerində susdurdu. Lakin xain düşmən gülləsi onu əbədiyyətə qovuşdurdu. Nəzərin ailə üzvləri də, Baş Layısqı kəndinin sakinləri də belə bir qəhrəman oğulla fəxr edirlər. Hazırda Nəzər Əsədovun qəbri Baş Layısqı kəndindəki "Şəhidlər xiyabanı"ndadır.

# GÖZLƏRİNİ ƏBƏDİ YUMDU



**Elçin Hacı oğlu Əhmədov** *1977-ci ildə Baş Layısqı kəndində anadan olmuşdur. Kənd orta məktəbinin XI sinfini bitirmiş, kənddə qalıb ata-anası ilə çiyin-çiyinə çalışmışdır. Hərbi xidmət yaşı çatanda isə Milli Ordu sıralarına çağrılmış, əyninə əsgər paltarı geyərək Vətən torpağının keşiyində dayanmışdı. 1996-cı il iyunun 17-də xidməti vəzifəsini yerinə yetirərkən həlak olmuşdur.*

Elçin gənc idi. Hər bir gənc kimi onun da qəlbində arzuları, gələcək planları bitib-tükənməzdi. Onun ən birinci arzusu isə Vətən torpaqlarını azad görmək, işğal altında olan rayonların erməni əsarətindən azad olunması idi. Odur ki, əyninə əsgər paltarı geydiyi ilk gündən özünü bacarıqlı, qorxmaz bir döyüşçü kimi göstərdi. Hansı tapşırıq olursa-olsun Elçin həmişə dəstənin önündə olmağa can atırdı. Onun fərasəti, qorxmazlığı döyüşçü dostlarını da ruhlandırırdı. Düşmənin də gözü həmişə dəstənin önündə olan bu gənci tutmuşdu. Onu aradan götürmək üçün fürsət axtarırdı.

İsti bir yay günündə onlar növbəti tapşırığı yerinə yetirmək üçün yollandılar. Komandirin əmrini lazımınca yerinə yetirib geri dönürdülər. Sən demə, düşmən snayperi bayaqdan Elçini gözdən qoymurmuş. Nəhayət, fürsət düşən kimi o, gənci nişan aldı. Elçin döyüşçü dostlarının qolları arasında gözlərini əbədi yumdu.

Elçin Əhmədov az yaşadı, lakin mənalı ömür yaşadı. Belələri isə xalqın yaddaşına əbədi həkk olunurlar.





# QARABAĞDA UYUYAN İGİD



***Elşən Məmməd oğlu İsmayılov*** *1974-cü ildə Baş Layısqı kəndində anadan olmuşdur. Həmin kənddə orta məktəbi bitirmiş, Bakı Energetika Texnikumuna daxil olmuşdur. Elşən hələ uşaq yaşlarından idmanın karate və güləş növləri ilə məşğul olurdu. 1992-ci ilin iyul ayında Milli Ordu sıralarına hərbi xidmətə çağrılmış, elə həmin ilin sentyabr ayında Sırxavənd kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.*

Məmməd kişi özünü nə qədər tox tutmağa çalışsa da, bacarmır, göz yaşlarını gizlədə bilmirdi.

– Oğlum Vətən yolunda şəhid olub. Vətəni qorumaq hər bir gənc kimi onun da borcu idi. Amma heç olmasa meyitini tapıb gətirib dəfn edə bilsəydim, yenə təskinlik olardı. Heç olmasa ürəyim dolanda qəbrini ziyarət edərdim. O ki qaldı Elşənə, haqqında nə desəm, bəlkə də deyəcəksiniz ki, oğlunu tərifləyir. Ona görə də onun batalyon komandiri R.Ağakişiyevin dediklərini sizə çatdırmaq istəyirəm:

"Elşəngilin batalyonu Ağdərədə yerləşirdi. O, kəşfiyyat qrupuna rəhbərlik edirdi. Yoldaşları ona "Əzrayıl" ləqəbi vermişdilər. Ermənilərin qənimi idi. Düşmən tərəfdən neçə canlı "dil" tutub gətirmişdi. Yeri gələndə snayperçiləri də əvəz edirdi. Ağaca çıxıb düşmənləri bircə-bircə "dənləyirdi". Tank əleyhinə əla qumbara atmağı vardı. Düşmənin neçə tankını, BMP-sini yandırmışdı. Xüsusən Çaldıran kəndinin alınmasında böyük igidlik göstərmişdi".

Məmməd kişi dəfələrlə oğlunun komandirləri ilə görüşmüş, onun döyüşdüyü yerlərdə olmuş, Elşənin igidliyi haqqında çox sözlər eşitmişdi.

Onların batalyonuna əmr verilmişdi ki, Sırxavənd kəndi tezliklə düşməndən təmizlənməlidir. Batalyon kəndin kənarında mövqe tutmuşdu. Bir dəstə say-seçmə əsgər, o cümlədən Elşən də kəndin qərb istiqmətinə

göndərilir ki, hücum zamanı Ağdama qaçan erməniləri burada mühasirəyə salıb qırsınlar. Lakin əsgərlərimiz çox gözləsələr də, hücum əmri verilmir. Axşama yaxın geri çəkilməyi əmr edirlər. Sən demə, satqınlıq nəticəsində əsgərlərimiz özləri mühasirəyə düşüblərmiş. Radio ilə kömək istəsələr də, heç bir kömək göndərilmir. 50 nəfər əsgər, o cümlədən Elşən satqınlığın qurbanı olur. Onların meyitlərini belə düşmən mövqeyindən çıxarmaq mümkün olmur. Elşənin ölümü məktub vasitəsilə valideynlərinə bildirilir. Kənddə ona el qaydası ilə yas verirlər. Sinəsinə oğul dağı çəkilən ata-ana həmişə qulaqları səsdə yaşayırlar. Bir gün radio vasitəsilə öyrənirlər ki, Sırxavən kəndi ermənilərdən azad edilib. Məmməd kişi vaxt itirmədən oraya yollanır ki, bəlkə Elşənin meyitindən bir əsər-əlamət tapa. Lakin onlar cəbhə bölgəsinə çatana qədər ermənilər yenidən kəndi ələ keçirir. Ağdərəyə doğru xeyli irəliləyirlər.

Elşən Şəki rayonunun Baş Layısqı kəndində doğulmuşdu. Əbədiyyətə gedən yolda isə son mənzili isə Qarabağ torpağı oldu. Bu torpaq düşməndən azad olunanda onun da ruhu şad olacaq.





# VƏTƏN SƏNƏ OĞUL DEDİ



**Kamran Əsabəli oğlu İsmayılov** *3 avqust 1976-cı ildə Şəki rayonunun Baş Layısqı kəndində anadan olmuş, 1993-cü ildə isə kənd orta məktəbinin X sinfini bitirmişdir. 5 sentyabr 1994-cü ildə hərbi xidmətə çağrılmış, 22 avqust 1996-cı ildə döyüşlərdən birində şəhid olmuş və Baş Layısqı kənd qəbirstanlığındakı "Şəhidlər xiyabanı"nda dəfn edilmişdir.*

Hələ orta məktəbdə oxuyarkən hərbi hazırlıq dərslərində həmişə fəallıq göstərərdi. Hərbi müəllim onu şagird yoldaşlarına nümunə göstərər, Kamrandan yaxşı hərbiçi olacaq, – deyərdi. Yaşıdları kimi Kamranda da Vətənə, doğma Azərbaycana məhəbbət hissi orta məktəb illərində aşılanmışdı. O, intizamlı, çalışqan, verilən tapşırıqları layiqincə yerinə yerirən şagirdlərdən idi. Fənn müəllimlərinin tapşırıqlarına ciddi əməl edər, dərslərinə həmişə hazırlıqlı gələrdi.

Anası Sona İsmayılovanın ürək sözləri:

– Kamran da orta təhsilini başa vuran kimi qardaşları Fətəli və Füzuliyə qoşulub Baş Layısqı kolxozuna işləməyə getdi. Bir il sıravi kolxozçu işlədi. 1994-cü ilin sentyabr ayının əvvəlləri idi. Kamran evdə qərar tuta bilmir, yır-yığış edirdi.

– Xeyir ola, ay oğul, səfərin haradır?

– Döyüş bölgələrinə, yaşıdlarımın yanına. Daha oturub hərbi komissarlıqdan çağırış gözləməyəcəm ki?

5 sentyabrda yaşıdları ilə birgə o da avtobusa əyləşdi. Kamranı deyə-gülə yola saldıq. Ağbirçək ana kimi oğluma da, avtobusda əyləşən digər çağrışçılara da xeyir-dua verdim. Hardan biləydim ki, Kamran döyüşlərdən birində ağır yaralanacaq və şəhid olacaqdır. Əsgər yoldaşlarının ürək sözləri həmişə mənə təskinlik verir:

– Ana, Kamran əsl igid kimi vuruşmuş, komandirin tapşırıqlarını layiqincə yerinə yetirmiş, düşmənə aman verməmişdir. Belə oğulla fəxr et! Kamran kimi oğul böyüdüb tərbiyə etdiyinizə görə sizə bütün döyüş yoldaşlarımız adından "çox sağ ol" deyirik.

Baş Layısqının "Şəhidlər xiyabanı"na yolum düşəndə igid Kamranımla öyünür, fəxr edirəm. Arxayınam ki, indi onun qarış-qarış vuruşduğu torpaqlarda qan tökülmür. Milli Ordumuzun müsəlləh əsgərləri bu torpaqların hər qarışını göz bəbəyi kimi qoruyurlar. Vətən Kamranıma oğul dedi və onu bir oğul kimi ağuşuna aldı.

## NİYƏTİN HARA...



**Səyavuş Vidadi oğlu Kərimov** *1974-cü ilin aprel ayında Baş Layısqı kəndinə dünyaya göz açmışdır. 1980-ci ildə həmin kənddəki orta məktəbin birinci sinfinə getmiş, 1990-cı ildə Milli Ordu sıralarına hərbi xidmətə çağrılmışdır. O, Ağdərə bölgəsində, Murovdağda gedən döyüşlərdə iştirak etmiş, 1994-cü ilin yanvar ayında həlak olmuş, öz kəndlərində dəfn edilmişdir.*

O gün hamı danışır, gülür, gələcək arzularından söhbət açırdı. Bircə Səyavuşun səsi çıxmırdı.

– Səyavuş, sən niyə kənarda dayanmısan, heç arzularından danışmırsan. Yoxsa sirdir, – deyə sinif yoldaşı zarafat etdi.

– Nə sirr olacaq, bir ölkədə ki, müharibə gedə, məncə, hamının bir arzusu olmalıdır. Müharibəni qələbə ilə başa çatdırmaq. Mən də cəbhəyə gedəcəyəm.

Niyyətin hara, mənzilin də ora, – deyib atalar. Ən böyük arzusu Vətən torpağını azad görmək olan Səyavuş cəbhəyə yollandı. S.Kərimov əvvəlcə Şəmkirdə hərbi təlim keçmiş, iki aydan sonra isə döyüş bölgəsində qızğın döyüşlər gedirdi. Rayon əldən-ələ keçirdi. Əsgərlərimiz canları, qanları bahasına olsa belə, rayonu düşmən əlinə verməməyə çalışırdılar. Lakin bir neçə aydan sonra onların bölməsini geri çağırdılar. Bu çağırış əsgərlərin ürəyindən olmasa da əmr idi. Səyavuşun xidmət etdiyi batalyon Gəncə şəhərinə köçürülür. O, burada tankçılığın sirlərinə yiyələnir. Çox keçmir ki, batalyonu Murovdağa göndərirlər. Səyavuş çoxdan bəri qəlbində bəslədiyi arzusuna çatmışdı. O, hələ orta məktəbdə oxuyanda ya tankçı, ya da təyyarəçi olmağı arzulayırdı.

İki il müddətində Səyavuş idarə etdiyi tankla düşmənə çox böyük itkilər vermişdi. Hər dəfə döyüşdən qələbə ilə qayıdanda o, tankın üstünə çıxıb





barıt qoxuyan çölləri seyr edib sanki var səsi ilə qışqırmaq istəyirdi:

– Bu torpaqlar bizimdir, nə qədər sağıq, onları düşmənə verməyəcəyik.

Səyavuş bir çox döyüşlərdən belə qələbə ilə çıxmışdı. Dəfələrlə komandirlərin təşəkkürünü almışdı.

Lakin növbəti döyüşlərdən biri uğursuzluqla nəticələndi. Yeni hərbi qüvvə almış ermənilər gözlənilmədən hücuma keçdilər. Qüvvələr qeyri-bərabər idi. Lakin Səyavuş gözünü belə qırpmadan tankını irəli sürür, piyada döyüşçülərə hücum etmək üçün şərait yaradırdı. Birdən düşmən tərəfindən atılan qumbara tankın tırtılı altında partladı. Tank alışdı. Səyavuş bunu bilsə də, yolundan qalmadı. Canlı məşələ çevrilib düşmən üzərinə şığıdı. Yarasından axan qan onu getdikcə haldan salırdı. Bunu görən yoldaşları onu tankdan çıxardılar. O, döyüş dostlarının qolları arasında keçindi. Vətən daha bir igid oğlunu itirdi. İndi S.Kərimov aramızda yoxdur. Lakin onun əziz xatirəsi ürəklərdə yaşayır.

## RUHUN ŞAD OLSUN



**Əkrəm Mövlud oğlu Lətifov** *1974-cü il noyabr ayının 15-də Baş Layısqı kəndində anadan olmuşdur.*

Baş Layısqı kəndində bir oğlan var idi. Onu Əkrəm deyə çağırırdılar. Bütün kənd uşaqları kimi Əkrəm də qayğısız böyüyürdü. Üç qardaş, iki bacı idilər. Atası Mövlud kişi, anası Zəhirə xala bütün uşaqları çox istəyirdilər. Amma Əkrəmin yeri başqa idi. Evdə Əkrəmə daha çox qayğı göstərirdilər. Bu uşaq hamıya mehriban idi. Sakit-salamat gəzib dolanırdı. Ata-ansının bir sözünü iki etməzdi. Elə məktəbdə də Əkrəm müəllimlərin sevimlisi idi. Əkrəm barədə söz düşəndə müəllimlər deyirdilər ki, kaş məktəbdə bütün şagirdlər Əkrəm kimi olaydılar. Dərslərini əla oxumurdu. Amma əvəzində məktəbin ictimai işlərində fəallıq göstərirdi. Verilən bütün tapşırıqları yerinə yetirirdi. Beləcə, Lətifov Əkrəm Mövlud oğlu orta təhsilini başa vurdu. Əkrəm torpağı çox sevirdi. Arzusu kolxozda işləmək idi. Ermənilərin torpaqlarımızı işğal etməsinə Əkrəm dözmürdü. Əyninə əsgər paltarı geyəcəyi, əlinə silah götürüb düşmənlə vuruşacağı günü səbirsizliklə gözləyirdi. Nəhayət, Əkrəmin gözlədiyi gün gəldi. Cavan oğlan ata-anası ilə, kənd camaatı ilə vidalaşıb cəbhəyə yola düşdü.

Cəbhədə döyüş gedirdi. Əkrəmin qoşulduğu hərbi hissə torpaqlarımızın müdafiəsi uğrunda qəhrəmanlıq göstərirdi. Sakit, dinc Əkrəmdən əsər-əlamət qalmamışdı. Əkrəm başqa Əkrəm olmuşdu. Düşmənlə pələng kimi vuruşurdu. Komandirləri şəkili əsgərin hünərinə əhsən deyirdilər. Əkrəmin düşmənə nifrəti getdikcə artırdı.

1993-cü il may ayının 12-si idi. Tərtər cəbhəsində düşmən mövqeyini əldən vermək istəmirdi. Həmin gün Əkrəm həmişəkindən güclü, qüvvətli görünürdü. Avtomatı ilə sərrast atəş açırdı. Əkrəm beləcə xeyli döyüşdü. Lakin o, düşmən tərəfindən izlənildiyindən xəbərsiz idi. Düşmən gülləsi Əkrəmin ürəyini həmişəlik susdurdu.

Baş Layısqı kənd qəbirstanlığında bir igid əsgər uyuyur. Şagirdlər həmin qəbrin önündə Vətənə, torpağa sədaqət andı içir, Əkrəmi ehtiramla yad edirlər.





## GEYİB ƏSGƏR PALTARINI



**Nazim Müzəffər oğlu Osmanov** *1973-cü ilin sentyabr ayında Baş Layısqı kəndində anadan olmuş, orta təhsil almış, 1991-ci ildə orta məktəbi qurtardıqdan sonra Milli Ordu sıralarına hərbi xidmətə çağrılmışdır. Şərəfli döyüş yolu keçmiş, igidlik göstərmiş, 1993-cü ildə Respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olmuşdur.*

Nazim Osmanov müəllim ailəsində anadan olmuşdur. Atası Müzəffər müəllim kəndin sayılıb seçilən ziyalılarındandır. O, böyüdüb ərsəyə çatdırdığı yeddi övladının hər birinin hərtərəfli biliyə malik olması ilə yanaşı tərbiyəsinə də xüsusi diqqət yetirmişdi. Hələ kiçik yaşlarından Nazim elmə xüsusi maraq göstərirdi. Texniki fənləri daha çox sevirdi. Məktəbi qurtarandan sonra ali təhsil almaq barədə fikirləşirdi. Lakin onda, necə deyərlər, dünyanın düz vaxtı idi. Nə müharibə var idi, nə də ölüm-itim.

Lakin erməni faşistlərinin azğınlığı nəticəsində xalqımız zorla müharibəyə cəlb olunanda bir çox gənclər kimi Nazim də illərdən bəri ürəyində bəslədiyi arzularını arxa plana çəkdi. – Vətən darda olanda ancaq onun azadlığı barədə düşünmək lazımdır, – dedi. Cəbhədən gələn xəbərlər onun gənc qəlbini həyəcanlandırır, intiqam hissini alovlandırırdı.

Və bir gün... Həmin gün Nazim əyninə əsgər paltarı geydi. O da bu gündən Vətənin müdafiəçiləri sırasında idi. Və onda 1991-ci il aprel ayının 20-si idi. N. Osmanov öz yaşıdları kimi, bir müddət hərbi təlim keçdi. Sonra isə birbaşa cəbhəyə yollandı.

Çıldıran yüksəkliyi mühüm strateji əhəmiyyətə malik idi. Bu yüksəkliyin əldən verilməsi bütövlükdə rayonu düşmənə təslim etmək demək idi. Odur ki, əsgərlərimiz Çıldıranı bütün həmlələrdən müdafiə edib öz əllərində saxlayırdılar. Nazim də bu əsgərlərin sırasında idi. Düşmən hər dəfə müqavimətə davam gətirməyib geri çəkiləndə Nazim deyirdi:

– Düşmən ancaq burada döyüşən əsgərlərin meyidi üzərindən keçib Çıldıranı ala bilər. Nə qədər sağıq, düşmənə aman verməyəcəyik.

Artıq bir ildən çox idi ki, Nazim cəbhədə idi. Lakin 1993-cü il avqust ayının 3-dəki döyüş onun son döyüşü oldu. Nazim bu döyüşdə həlak oldu, əbədiyyətə qovuşdu. Bu gənc şəhidin xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaqdır.

# KƏNDDƏ BİR İGİD VARDI



**Nail Nadir oğlu Səlimov** *1971-ci il avqust ayının14-də Baş Layısqı kəndində andan olmuşdur. Baş Layısqı kənd orta məktəbinin səkkizinci sinfini bitirdikdən sonra kənd texniki peşə məktəbində oxumuşdur. 1993-cü il dekabr ayının 29-da əbədiyyətə qovuşmuşdur.*

1990-cı ildə Nail Səlimov keçmiş ittifaqın ordusunda hərbi xidmətə çağrılır. O, burada xidmət edərkən ermənilərin torpaqlarımızda törətdikləri vəhşiliklərdən xəbər tutur. İgid oğlanın damarlarında qanı qaynayır. Özgə torpağında duruş gətirə bilməyib Vətənə – doğma yurda dönür. Və birbaşa könüllü olaraq cəbhəyə getmək istədiyini bildirir. Atası Nadir kişi oğlunun bu istəyini alqışlayır:

– Get, oğlum, – deyir, – Vətən dara düşəndə onu Vətənin igid oğulları qorumalıdır. Mən sənə inanıram. İnanıram ki, düşməndən intiqam alamağa göndərirəm.

Nail Səlimov əsgər paltarını geyib əlinə silah götürən kimi odlu səngərlərə atıldı. Onun vuruşduğu hərbi hissəyə özü kimi igid oğullar yığılmışdı. Nail də əsgər yoldaşlarından geri qalmır, bütün döyüşlərdə fərqlənirdi. Komandirləri, döyüş yoldaşları Naili həmişə cəbhənin ən qaynar nöqtələrində görürdülər. Qubadlı uğrunda döyüş gedirdi. Nail düşməndən amansızcasına intiqam alırdı.

1993-cü il dekabr ayının 29-u idi. Nail həmişəkindən qayğılı, bir qədər də əsəbi görünürdü. Dünənki döyüşdə göstərdiyi şücaətinə görə komandirindən eşitdiyi tərif onu ruhlandırmışdı. Nailin vuruşduğu hissə Ağdamın müdafiəsinə yollanmışdı. İgid əsgər də həmin döyüşlərdə iştirak edirdi. Lakin bu dəfə düşmənlə axıra qədər vuruşmaq Nailə qismət olmadı. Nail əbədiyyətə qovuşdu. Həmyerliləri Səlimov Nail Nadir oğlunu Baş Layısqı kənd qəbiristanlığında ehtiramla dəfn etdilər.

Nailin atası Nadir Səlimovun anası Məkkə xanım Hacı Salman Yusif Əfəndi oğlunun qızıdır.





# MƏŞƏLƏ ÇEVRİLƏCƏK



**Mehman Səməd oğlu Cəbiyev** *1969-cu ildə Şəki rayonun Baş Layısqı kəndində anadan olmuşdur. Keçmiş Sovet Ordusu sıralarında xidmət etdikdən sonra bir müddət doğma kəndlərində kolxozçu işləmişdir. Könüllü olaraq Qarabağa cəbhəyə yola düşmüş, Ağdamın müxtəlif kəndlərinin düşməndən müdafiəsində iştirak etmişdir. 1993-cü il dekabr ayının 30-da şəhid olmuş, doğma kəndlərində torpağa tapşırılmışdır.*

1993-cü il dekabr ayının 28-i idi. Şaxtalı külək üz-gözü dondururdu. Səhər tezdən ermənilər döyüşçülərimizin mövqelərinə hücuma keçdilər. Kəşfiyyatçılar xəbər gətirdilər ki, qabaqda düşmənin döyüş texnikası irəliləyir. Komandir həyəcan siqnalı verərək əmr etdi:

– Döyüşə hazır olun!

Əslində əsgərlərimiz döyüşə hazır idilər. Bu komanda onları bir qədər də səfərbər etdi. İlk dəqiqələrdən düşmənin bir döyüş maşını və tankı əsgərlərimiz tərəfindən məhv edildi. Lakin düşmən hiylə işlətməyə başladı. O, arxaya keçib alayın döyüşçülərini mühasirəyə almaq istəyirdi. Vuruşma getdikcə daha da qızışır, mühasirə halqası daralırdı. Avtomatlardan, pulemyotlardan açılan güllələr dolu kimi yağırdı.

Vəziyyətin belə gərgin hal aldığını görən həmyerlimiz Mehman Cəbiyev avtomatını qaldıraraq özünü irəli atdı:

– Dostlar, irəli! Düşmənin mühasirəsi yarılmalıdır.

Əsgərlərimiz elə bil yenidən cana gəldilər. Hamı bir nəfər kimi ayağa qalxdı. Hücuma, düşmən mühasirəsini yarmağa atıldı. Lakin qüvvələr qeyri-bərabər idi. Ona görə də düşmənlər döyüşçülərimizin arxasına keçə bilmirdilər.

Haqqında bəhs etdiyimiz Mehman Cəbiyev Baş Layısqı kənd orta məktəbini bitirdikdən sonra Şəki avtomobil sürücüləri məktəbinə daxil olmuş və oranı müvəffəqiyyətlə qurtarmışdı. O, 1987-1989-cu illərdə keçmiş Sovet Ordusu sıralarında hərbi xidmət etmiş, döyüş və siyasi təhsil əlaçısı olduğuna görə, dəfələrlə komandirləri tərəfindən təşəkkür almışdı. M.Cəbiyev ordu sıralarından tərxis olunduqdan sonra "Fəhlə-kəndli birliyi" kolxozunda çalışmışdı.

Lakin Qarabağ bölgəsindən gələn həyəcanlı xəbərlər bir an da olsun onu rahat buraxmır, onun qəlbindəki Vətən sevgisini düşmənə qarşı nifrətə çevirirdi. Məhz buna görə də M.Cəbiyev könüllü olaraq torpaqlarımızın müdafiəsinə getdi. Dağlıq Qarabağın, Ağdamın müxtəlif kəndlərinin düşməndən qorunmasında iştirak etdi. Komandirləri həmişə Mehmanı başqalarına nümunə göstərirdilər.

Mehman Cəbiyevin bu son döyüşündə əsgərlərimiz müharibəni yara bilsələr də, igid əsgər aldığı güllə yarasından dünyasının dəyişdi. Onu 1993-cü il dekabrın 31-də doğulub boya-başa çatdığı kənddə dəfn etdilər.

Atalar yaxşı deyiblər ki, igid ölər, adı qalar. Doğrudan da, Mehman kimi cəsur gənclərimizin adları heç vaxt unudulmayacaq, onların qəlbindəki Vətən sevgisi gələcək nəsillər üçün parlaq məşələ çevriləcəkdir.





# ANA OĞUL BÖYÜTDÜ



**Məhərrəm Bəkir oğlu Cəbrayılov** *1971-ci ildə Baş Layısqı ərazi nümayəndəliyinin Cunud kəndində anadan olmuş, kənd orta məktəbində təhsil almışdı. İdmana olan marağı onu Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna gətirib çıxarmışdı. Təhsilini başa vurduqdan sonra sevdiyi peşədə çalışmaq istəsə də, Vətəni azad etmək istəyi hər şeyə üstün gəlmiş, 1992-ci ilin iyun ayında cəbhəyə getmişdi. Həmin il noyabrın 24-də Qubadlı rayonunun Novlu kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.*

Onun şəklinə baxanda istər-istəməz görkəmli şairimiz Əli Kərimin misraları yada düşür: "Ana oğul böyütdü, gur, çatmaqaş, gen sinə. Ana oğul böyütdü, oğul deyirəm sənə!"

Anası Səadət xanım onu atasız böyütmüşdü. Böyütdükcə də arzu-kamla yaşamışdı. Məhərrəm də anasının zəhmətini itirməmiş, ləyaqətli, qeyrətli oğul kimi böyümüşdü. Hər işdə anasına kömək etməyə, zəhmətini bir az da olsun yüngülləşdirməyə çalışmışdı. Məhərrəm qolu qüvvəli, dizi təpərli oğul idi. Uşaq yaşlarından idmanla məşğul olmuşdu. Peşəkar idmançı olmaq arzusu ilə yaşayırdı. Odur ki, orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil oldu. İnstitutu qurtarıb doğma kəndlərinə qayıdanda Səadət ananın sevincinin həddi-hüdudu yox idi. İndi o, evinə gəlin gətirmək barədə düşünürdü. Məhərrəmin isə fikri başqa idi. O, cəbhəyə getmək istəyirdi. Və belə də etdi.

Onun döyüş yolu Qubadlıdan başlandı. Tezliklə onu igid əsgər kimi hava hücumundan müdafiə üzrə top bölməsinin komandiri təyin etdilər. O, öz bilik və bacarığı ilə komandiri olduğu bölməyə düzgün istiqamət verməyi bacarırdı. Odur ki, müdafiəsi onlara tapşırılan Novlu kəndinə düşmən diş batıra bilmirdi. Kənd camaatı bütün döyüşçülərə rəğbətlə yanaşırdılar. Məhərrəmə isə hörmətləri böyük idi. O, bu hörməti öz igidliyi ilə qazanmışdı. Odur ki, Məhərrəmin sinəsi qəfil gülləyə tuş gələndə bütün kənd ağlamışdı, yas saxlamışdı. Məhərrəmi 1992-ci il noyabrın 26-da öz doğma kəndində torpağa tapşırdılar. Yeri behiştlik olsun.

## EVƏ QƏLƏBƏ İLƏ DÖNƏCƏYƏM



**Habil Camal oğlu Hüseynov** *1973-cü ildə Baş Layısqı kəndində anadan olmuş, həmin kənddəki orta məktəbin səkkizinci sinfini bitirmiş, sonra 43 saylı texniki peşə məktəbinə daxil olmuşdur. Burada rəngsazlıq peşəsinə yiyələnmişdi. Lakin sevib-seçdiyi peşədə bir gün də olsun işləməmişdir. Milli Ordu sıralarına hərbi xidmətə çağırılmışdı. 1992-ci ildə erməni işğalçılarına qarşı mübarizədə şəhid olmuşdur. Qəbri Baş Layısqı kəndindədir.*

Kənd qəbiristanlığında məzarlar içində bir məzar da var. Üstü həmişə tər çiçəklərlə örtülü olan bir məzar. Burada 19 yaşlı Habil uyuyur. O Habil ki, Vətənin ən ağır çağlarında evdə dayana bilməmiş, cəbhəyə yollanaraq silaha sarılmışdı. İgidliklə, mətanətlə vuruşmuşdu. Habilin ölümündən illər keçir. Lakin nə Camal kişi, nə də Gülsüm xanım toxtaqlıq tapa bilmirlər. – Habillə birlikdə 6 övlad böyüdüb tərbiyə etmişik, – deyir Camal kişi. – Amma onun yerini heç biri verə bilmir. Tez-tez gedib məzarını ziyarət edirik. Bircə şeylə təskinlik tapırıq ki, Habil Vətənimizi yağı düşməndən xilas etmək naminə canından keçib.

Habildən söz düşəndə bacıları Təranə və Pərvanənin də gözləri dolur: – İndi Habil bizim and yerimizdir, – deyirlər. – Çalışırıq ki, övladlarımız da qeyrətdə, təəssübkeşlikdə öz dayılarına oxşasınlar.

Habil döyüşdüyü hissədə də yaxşı bir əsgər kimi tanınmışdı. Döyüş dostları qorxmazlığına, igidliyinə görə ona xüsusi hörmət edirdilər. Habil düşmən üzərinə hücuma keçəndə qorxu nə olduğunu bilməz, öz cəsarəti ilə döyüş yoldaşlarını da ruhlandırardı. O, – evimizə yalnız qələbə ilə dönəcəyik, – deyirdi. Lakin tale qələbə gününü görməyi ona qismət etmədi. Qəfil güllə gənc ömrünü yarımçıq qoydu. Habil Hüseynov 1992-ci il avqust ayının 5-də öz kəndlərində ehtiramla torpağa tapşırıldı.





## QARABAĞ SAVAŞINA YOLLANMIŞDI



**Ramiz Məmmədiyyə oğlu Aydınov** *5 mart 1971-ci ildə Şəki rayonunun Baş Layısqı kəndində anadan olmuşdur. 1981-ci ildə Baş Layısqı kənd orta məktəbini bitirmişdir. Gözəl bir ailə qurmuş, həyat yoldaşı Aydınova Dilşad Əsabəli qızıdır.*

Keçmiş sovet Ordusu sıralarında hərbi xidmətini başa vurmuş, 23 avqust 1992-ci il tarixdə könüllü olaraq Qarabağ savaşına yollanmışdır. Füzuli, Ağdərə döyüşlərinin iştirakçısı olmuşdur.

1992-ci il dekabr ayında Ağdərə uğrunda gedən döyüşlərdə itkin düşmüşdür. Sonrakı taleyi məlum deyildir. Ailə üzvləri 9 (doqquz) nəfərdir.

Atası Aydınov Məmmədiyyə Əhməd oğlu və anası Aydınova Minayə Cəfər qızı təqaüdçüdülər.

## DÖYÜŞLƏRDƏ İTKİN DÜŞDÜ



**Mübariz Mövlud oğlu Osmanov** *1 oktyabr 1973-cü ildə Şəki rayonu Baş Layısqı ərazi nümayəndəliyinin Şin kəndində müəllim ailəsində anadan olmuşdur. 1990-cı ildə Şin kənd orta məktəbini bitirmişdir. 1992-ci il aprel ayının 23-dən 1994-cü il yanvar ayının 28-dək milli orduda xidmət etmişdir. 1994-cü il yanvarın 28-də Ağdərə rayonunun Akopkomari kəndi uğrunda gedən döyüşlərdə itkin düşmüşdür. Sonrakı taleyi məlum deyil.*

Ailə üzvləri 6 nəfər idi. Atası Osmanov Mövlud Ədil oğlu və anası İlyasova Qənirə Məmməd qızı müəllim vəzifəsində çalışırlar.

## NATİQ SUBAY İDİ



**Natiq Hümmət oğlu Cəbiyev** *25 iyul 1975-ci ildə Şəki rayonunun Baş Layısqı kəndində anadan olmuşdur. 1985-ci ildə doğulduğu Baş Layısqı kənd orta məktəbini bitirmişdir. 1993-cü il iyul ayında Şəki hərbi komissarlığı tərəfindən Milli orduya çağırılmış, Ağdam bölgəsində döyüşlərdə olmuşdur. 1994-cü il yanvar ayında Ağdamın Qərvənd kəndi uğrunda gedən döyüşlərdə itkin düşmüşdür. Sonrakı taleyi məlum deyil.*

Ailə üzvləri 7 (yeddi) nəfərdən ibarətdir. Atası Cəbiyev Hümmət Məmməd oğlu və anası Cəbiyev Tamella Nəcəf qızı təqaüdçüdülər.

## FÜZULİ TALEYİ



**Füzuli Hümmət oğlu Şirinov** *14 noyabr 1971-ci ildə Şəki rayonunun Baş Layısqı kəndində anadan olmuş, 1982-ci ildə Baş Layısqı kənd orta məktəbini bitirmişdir. 1993-cü ilin yanvarın 1-dən may ayının 1-dək milli qvardiyada xidmət etmişdir. 1993-cü il oktyabr ayının 14-də yenidən səfərbərliyə alınmışdır. Laçın, sonra isə Ağdam uğrunda gedən döyüşlərin iştirakçısı olmuşdur. 1993-cü ilin dekabr ayının 28-də döyüşə girmiş və itkin düşmüşdür. Sonrakı taleyi məlum deyil.*

Ailə üzvləri 8 nəfərdən ibarətdir. Atası Şirinov Hümmət İlyas oğlu və anası Məmmədzadə Fəridə Mürsəl qızı təqaüdçüdülər.





## BAŞ LAYISQI KƏNDİNİN YETİRDİYİ GÖRKƏMLİ ZİYALILAR



### LAYISQI MOLLA CÜMƏ

Layısqı kəndinin yetirmələrindən biri Azərbaycan klassik aşıq ədəbiyyatının ən gökərmli nümayəndələrindən olan Molla Cümədir. Bu tarixi şəxsiyyət o aşıqlardandır ki, səsindən, ifasından daha çox sözü – şeirləri ilə XIX və XX əsr Azərbaycan poeziyasında əbədi iz qoyub, şöhrət qazanıb. Onun şeirləri hələ sağlığında dillər əzbəri olub, məclisdən-məclisə, ağızdan-ağıza gəlib; çox yerdə zərb-məsəl kimi xatırlanıb. Sənətkarlıq qüdrətinə görə Molla Cüməni, öz müasiri Aşıq Ələsgərlə müqayisə etmişlər. Molla Cümənin adı XVI əsrdən üzü bəri böyük aşıq-şairlər: Sarı Aşıq, Tufarqanlı Abbas, Dilqəm, Aşıq Qurbani, Xəstə Qasım, Aşıq Alı,

Aşıq Ələsgər, Nəbati və Aşıq Şəmşirlə yanaşı tutmuşlar. Hətta belə müqayisələr də aparılmışdır ki, Aşıq Ələsgər Göyçə Aşıq məktəbinin ən görkəmli nümayəndəsi olduğu kimi, Layısqılı Molla Cümə də Şirvan aşıq məktəbinin banisi, yaradıcısı olub.

Bu qüdrətli sənətkar şeirlərində: gəraylı və qoşmalarında özünü iftixarla layısqılı Molla Cümə adı ilə təqdim edib. Şəkinin Layısqı kəndində doğulduğunu özünə şərəf-şan bilib. O, 1854-cü ildə Azərbaycanın bu dilbər guşəsində – Layısqı kəndində ziyalı ailəsində dünyaya gəlib.

*"...Layısqılı Molla Cümə*
*Baxıb səni bəyənibdir."*
*"... Molla Cümə Layısqılı*
*Şirin göftar söylər dili."*
*"... Aşıq anasıyam, şairlər kökü*
*Gərərəm dünyada divanə təki.*
*Mahalım Göynükdük, şəhərim Şəki,*
*Layısqı kəndinin binasiyəm mən."*
*"Bizim Layısqıya düşübdür mehman*
*Pədərim Salahdır, madərim Reyhan*
*Vələdim Həsəndir, ədim Süleyman,*
*Familim Mollaoruc ədnasıyəm mən."*
*"... Kəndim mənim Layısqıdır,*
*Salah oğlu Cüməyəm."*

Molla Cümə məhz Layısqı kəndindən olduğunu bu misralarda iftixarla yada salır, «Layısqı» sözünü xüsusi məhəbbətlə vurğulayır.

Molla Cümə şeirlərinin əsas tədqiqatçıları, onları toplayıb kitab şəklində 2 dəfə 1966-cı və 1983-cü illərdə çap etdirən filologiya elmləri doktoru, professor Paşa Əfəndiyev və şəkili müəllim Şərif İdrisov onu da etiraf edirlər ki, böyük söz ustadı Layısqılı Molla Cümənin şeirlərinin heç də hamısını toplamaq mümkün olmayıb. Bu fikrə əsaslanıb ehtimal etmək olar ki, Molla Cümənin doğma Layısqı kəndinə ayrıca həsr edilmiş «Layısqı», yaxud «Mənim Layısqım» adlı gətirdiyimiz ayrı-ayrı şeirlərdən seçilən misraların emosional ifadə təsirindən də yəqin etmək olur.

Haqlı sual doğur: Molla Cümənin vaxtında da, Şəkidə Layısqı adlı 2 kənd olubmu? Molla Cümənin sözü gedən kitablarına toplanmış şeirlərində buna işarə edilmir.





Molla Cümə 1920-ci ildə bolşeviklər tərəfindən qətlə yetirilib və Aşağı Layısqı kəndində dəfn olunub. Aşığın – şairin məzarı üstündə onun daş büstü qoyulub. Bu günkü Baş Layısqı və Aşağı Layısqı kəndlərinin arasında 6-7 km məsafə var. Yuxarı kənd – Baş Layısqı Çakıl-Layısqı dağlarının ətəyində yerləşir. Dağın 3500 metrdən hündür qarlı zirvəsi Baş Layısqının sanki lap başı üstündədir. Aşağı Layısqı isə aran – əkin-biçin sahələri ilə əhatələnib. Təbii meşələr – meşəli yamaclar Aşağı Layısqıya yaxınlaşdıqca seyrəlməyə başlayır.

Yəqin etmək olur ki, Molla Cümə öz şeirlərində kəndin əsas adını – Layısqını Baş və Aşağı hissələrə ayırmaq istəməyib. Aşağı Layısqı kəndinin təsərrüfat, əkin-biçin qayğıları tələbindən yarana bilərdi. Bəlkə Molla Cümədən neçə yüz il əvvəldən də Aşağı Layısqıda ilk məskənlər – evlər, həyətyanı sahələr, taxıl, çəltik, tütün əkilib-becərilən meşə arası talalar olub. Elə Molla Cümə özü də sadə kənd adamı, torpaq adamı kimi çəltikçiliklə məşğul olub, ailəsi üçün gün-güzəran qurub. O, doğma kəndini 2 tirəyə – Baş və Aşağı Layısqıya ayırmayıb. Hər halda düşünmək olar ki, Aşağı Layısqı Molla Cümənin sağlığında – 1920-ci ilə qədər bugünkündən xeyli kiçik – cəmi bir neçə evdən ibarət olub.

Kəndin hər ikisi Layısqı çayının sahilində yerləşir. Baş Layısqıdan gələn yol Aşağı Layısqıda 2 əsas istiqamətə – Şəki şəhərinə və qonşu Zaqatalaya gedən yollara ayrılır.

Xatırlatdığımız kimi, Layısqı Azərbaycan - türk mənşəli etnotoponimdir; ahəng qanununa tabe olmağı səbəbindən də bu söz ilk heca saitinin tələbi ilə qalın saitlə səslənib və yazılıb: lay, laytıs və layıs – qı şəklində. Saiti «ı»-dan «i»-yə çevrilib. Daha sonra orta heca saiti «i» incə sait ardıcıllığına qoşulub və nəticədə sözün yeni tələffüz forması – «Layısqı» meydana gəlib. Molla Cümənin sağlığında kəndin adı məhz təhriflə – Layısqı şəklində işlənirmiş. Necə ki, elə bizim günlərdə də kəndin adı ahəng qanunu pozularaq, Layiski – kimi də deyilir və yazılır. İrəlidə qeyd etdiyimiz kimi, bu qədim kəndin adının tarixi şəkli, Azərbaycan-türk dilinin ahənginə uyğun olaraq Layısqı – yazılmalıdır. Bütün sənədlərdə və mətbuatda da bu tarixiliyə əməl edilməsi vacibdir. Biz öz milli mənsubiyyətimizi, tarixi haqqımızı lazım gəldikdə söz-söz bərpa etməliyik.

Molla Cümənin şeirlərindən gətirdiyimiz nümunələr sübut edir ki, o, öz adının və təxəllüsünün yanına 2-ci – «Layısqı» təxəllüsünü də qoşub.

Nizami Gəncəvi, Seyid Yəhya Bakuvi, Bərdəi, Seyid Əzim Şirvani, Əbdulbağır Marağayi, İsmayıl bəy Qutqaşınlı, Mücirəddin Beyləqani, Diri-

li Qurban, Sahib Təbrizi, Qətran Təbrizi, Məmməd Səid Ordubadi, Seyid Şuşinski (Şuşalı), Nəsrəddin Tusi, Həsən bəy Zərdabi və b. sənətkarlar doğulduqları Şəhərin (Gəncə, Bakı, Təbriz, Bərdə, Şuşa, Tus, Marağa, Qutqaşın, Beyləqan, Ordubad, Zərdab) adını özlərinə təxəllüs qəbul etdikləri kimi, Molla Cümə də Layısqı kəndinin adını özünə 2-ci təxəllüs götürüb. Doğrudur o, daha çox Molla Cümə kimi tanınıb. Amma şair «Layısqı», «Layısqılı» sözlərini məhz 2-ci təxəllüs və «Cümə», yaxud «Molla Cümə Layısqılı».

Molla Cümənin aşıq-şair kimi başqa sənətkarlardan fərqini onun öz zəmanəsi, yaşadığı dövr, öz istedadı və kəşməkeşli alın yazısı – öz taleyi olub. Fərqin mühüm cəhəti ismi Pünhanla bağlıdır.

İsmi Pünhan doğrudanmı xəyali bir gözəl imiş? – Bu sualların cavabı yaradıcılığın sirridir. Yaradıcılığın sirrindən isə ömrü boyu şair özü də baş aça bilmir.

Güman etmək olar ki, Molla Cümənin ilk gəncliyində yaşadığı, yaxın olduğu ərazidə – kənddə, oxuduğu məktəbdə bir qıza bənd olub. Qız da onu sevib. Lakin Molla Cümənin həmin qızla ailə qurmaq imkanı olmayıb. Burada qız tərəfin varlı, Molla Cümənin kasıb olmağı kimi ənənəvi bir səbəb də olub. Qız və Cümə bir-birini sevdikləri günlərdə müəyyən vaxtlarda görüşüblər. Həmin görüşlərin birində qız, Cümənin xahişi ilə öz xınalı saçlarından bir neçə tel kəsib verib Cuməyə. Cumə o telləri yadigar saxlayıb, sonralar şair kimi məşhurlaşanda şeir yazıb o tellərə. Bizə gəlib çatmış iki şeirində Molla Cümə həmin telləri belə tərifləyir.

*Molla Cümə çəkən zardır,*
*Dünyalar başıma dardır.*
*Budur, məndə yadigardır*
*Öz əlinən verən bircək.*

«Bircək» adlı şeirini şair nakam bir sevginin qəmli xatirəsinə həsr edib. Şeirdən bilinir ki, birçək sahibi – qız başqasına nişanlanıb, yaxud artıq ərə gedib. Cümə isə artıq o bircəyi – telləri özündə yadigar saxlayır.

Molla Cümənin toplanmış şeirlərinin qələmə alındığı – yazıldığı illər bəlli deyil. Onları bir kitaba daxil edən tərtibçi də bu səbəbdən çətinliklə üzləşib. Eyni mövzulu hansı şeirin 1-ci, hansının 2-ci, 3-cü və s. ola biləcəyini yəqinləşdirməyib.

Fikrimizcə, Molla Cümənin 1983-cü ildə çıxan «Seçilmiş əsərləri»ndə – 220 səhifəlik kitabda sayca 16-cı – «Zülfün» şeiri sayca 6-cı «Birçək» şeirin-





dən əvvəl yazılıb. Çünki, «zülfün» şeirində hələ o, zülfün sahibi gözəl kimə isə adaxlı, nişanlı deyil. Hələ o, Molla Cümənin tez-tez görüşdüyü, sevdiyi qızdır. Molla Cümə hələ bu qızın səhərlər zülfünü – tellərini necə daradığının da şahididir:

*Hər səhər sığallayıb*
*Cərgə düzdün yüzə zülfün,*
*Gah darayıb, gah yağlayıb*
*Xoş göstərdin gözə zülfün.*

«Birçək»dən sonra gələn şeirləri də dövrləşdirmək mümkündür. Budur, həyatda var olan, real gözəllərdən biri haqqında yazılmış.

Şeiri Molla Cümənin, vüsalına qovuşa bilmədiyi, öz keçmiş sevgisi haqqında yazıldığını güman etmək olur:

*Namərdin badəsin alma dəstinə,*
*Tilsimi, cadunu sürtər üstünə.*
*Bir busə qıymadın Cümə dostuna*
*Axırda sevdiyim, it öpdü səni.*

«Səni» rədifli bu şeirin avtobioqrafik şeir olduğuna şübhə yeri qalmır. «Birçək» şeirində şairin səmimi kədəri aydın duyulur. Şairin sevdiyi qız başqasına nişanlanıb. Amma şair başqasına – «özdələrə» - bir özgəsinə «ad olmaqda» - ad edilməkdə sevdiyi qızı çox qınamır. Hətta onun bir vaxt öz əli ilə kəsib verdiyi xınalı telini (birçəyini) yadigar saxladığını kədərlə etiraf edir. Şair kədər buluduna dönsə də, hələ nisbətən sakit görünür. Bəlkə də Cümənin haradasa bir ümidi var. Bu ümid elə qızın kəsib Cüməyə bağışladığı birçəyidir – telidir. Bəlkə qız «özgələrə ad olmaqla» barışmayacaq, özgələrdən imtina edəcək.

«Əziz yarım» şeiri də «Birçək»dən sonra gəlir. Şair sevdiyi qızdan kədərlə ayrıldığını və hələ də «Əziz yarım» deyə tərənnüm etdiyi o qız «özgələrə ad olunsa da» Cumə onunla hələ də hərdən görüşməyə və ona öz könül ahlarını çatdırmağa da imkan tapır. Qıza eyhamla bildirir ki, mən sənin «özgələrə ad olmağından sonra bu kənddə – doğma Layısqda qala bilmərəm. Mən artıq qərara gəlmişəm, mən gedirəm, gəl halallaşaq:

*Mən gedirəm, halallaşaq,*
*Salamat qal, əziz yarım.*
*Aç qolunu, gəl sarmaşaq,*
*Salamat qal, əziz yarım.*

**Sonra Cümə sevdiyi qıza öz məsləhətlərini verir:**

*Dolubanı daşmaginən,*
*Dərdi-qəmə düşməginən*
*Bu sirrləri açmağinən*
*Salamt qall, əziz yarım.*

Cümə hesab edir ki, «özgələrə ad olmaq» qızın da ürəyincə deyil. Qız özü də Cümədən ayrılmaq istəməzdi. Bu «ad olmaq» məsələsində qızın rəyi nəzərə alınmayıb. Nəhayət, Cümə sevdiyi qıza məsləhət görür ki, bir-birimizi sevdiyimizi qəlbinin dərinliyində sirr saxla. O sirri heç vaxt dilinə gətirmə, kimə isə ürək qızdırıb açma.

*Gözəl ismin unutmaram,*
*Bu yerləri tərk etmərəm.*
*Səndən özgə dost tutmaram,*
*Salamat qal, əziz yarım.*

Bu qızın adı bütün adlardan gözəldir, – çünki bu ad Cümənin qəlbindədir – ülviyyət mərtəbəsindədir. Cümənin ömrünün sonunadək heç bir qızın, gözəlin adı bu qızın adını əvəz edə bilməyəcək. Bu sevgi qoy əbədi bir sirr olsun. Bunun sirr olmağı həm qızın, həm də Cümənin xeyrinədir: yaman adamların dilinə düşməmək, öz abır-həyalarını qorumaq xatirinə bu sirrə sadiq qalmaq vacibdir.

Molla Cümə «bu yerləri tərk etmərəm» - deyərkən güman ki, Şəki torpağından, Layısqı kəndinin daxil olduğu Göynük mahalından çox uzağa getməyəcəyini nəzərdə tutub. Yəni ona görə ki, səni sevdiyim üçün səninlə eyni torpağın havasını eyni meşələrin ətrini alacağam. Cümə sevdiyi qıza, ona qismət olmasa da qara gün arzulamır.

*Ləblərin bənzəyir qəndə*
*Əmanətim dursun səndə.*
*Yadigardı telin məndə*
*Salamat qal, əziz yarım.*

Molla Cümə sevdiyi qıza nə isə alıb bağışlayıb, elə bir əmanətdir ki, qız onu hər şəraitdə sirrini açmadan saxlaya bilər.

Cümə qıza «gözəl ismin unutmaram» - deyir. Elə həmin gündən, həmin şeirdən sonra şair üçün «Adı gizli» - «İsmi pünhan» sözü meydana gəlir.

Molla Cümənin artıq Baş Layısqıdan kənarda yaşadığı, sevdiyi qıza





«Salamat qal, əziz yarım» şeirini yazdığı və onunla sonuncu dəfə fürsət tapıb vidalaşdığı günlərdə – həmin ərəfədə o qızın ərə verilməsi xəbərini eşidir və bundan bərk sarsılır və bəlkə də ömründə ilk dəfə «Adı gizlinə» - İsmi Pünhana ən üsyankar şeirini yazır. Demə Molla Cümə Adı gizlinin ərini əvvəllər də bir həyasız, abırsız, çirkin əməllər sahibi, şərəfsiz, dəyyus, alçaq bir adam kimi tanıyırmış. Bu şərəfsiz adam yalnız var-dövləti ilə el şairindən «üstün» ola bilərdi. Bu, çoxarvadlı bir yaramaz imiş, şairin qəzəblə yazdığı kimi. «Köpəkdən törəmiş köpək oğlu» imiş. Sevdiyi qızın belə bir itə ərə verilməsi dövrün, zamanın, ictimai quruluşun, ölkədə haqsızlığın, ədalətsizliyin tüğyan etməsi idi. Molla Cümə öz ləyaqətini, abır-ismətini belə itlərdən qorumaq üçün o itə yazdığı həcvin ünvanını gizli saxlayır. O, eyni zamanda adı çox nanəcib, ədəbsiz, mədəniyyətsiz, kobud bir ailəyə gedib düşüb. O ailədə tilsimlərlə, cadularla iş görürlər. Qoy o da bunlardan xəbərdar olsun, özünü növbəti bədbəxtlikdən qorusun.

Bu əhvalatın baş verməsində – sevdiyi qızın başqasına, üstəlik alçağın birinə ərə verilməsində Molla Cümənin düşmənləri əsas rol oynayıblar. Bəs, Molla Cümənin düşmənləri kimlər ola bilərdi? Şəksiz, ilk növbədə şairin istedadına, xalq arasında hörmət və şöhrətinə paxıllıq edənlər, istedadının düşmənləri – istedadsız yaramazlar. Molla Cümə gənc şair və gözəl aşıq idi. Hər məclisdə yuxarı başa çəkilirdi, hər yerdə, hər kənddə, hər evdə, hər bir xeyir-şər məclisində hamı onu dinləyir, onun sözünü, şeirlərindən təsirli misraları misal çəkirdilər. Paxıllar buna dözə bilmirdilər. Yanıb-yaxılırdılar: niyə onların da Molla Cümə kimi parlaq istedadları yoxdur?! Axı, niyə Molla Cümə şeir oxuyanda, məclis aparanda onların ağzından şorba tökülür? Odur ki, bu xainlər gənc Molla Cüməyə gizli zərbə endirməyə çalışırdılar. Onun sevdiyi qızın atasını dəyyusun, alçağın biri ilə «qohum olmağa» təhrik etmiş və sonda buna nail olmuşlar.

Bütün bunlar Molla Cümənin şeirlərində sətir altında ifşa edilirdi. Gənc şair demək istəyirdi ki, söhbət təkcə məndən – Molla Cümədən getmir, bu cür yaramazların əli ilə xalqın ləyaqəti tapdalanır. Neçə namuslu, bir tikə halal çörəyi ilə dolanan, halal ailənin təmiz, bakirə qızları dəyyusların, nanəciblərin, çoxarvadlı filankəslərin hərəmxanasında ömrünü çürüdür. Molla Cümə xalqı bundan xəbərdar edirdi.

Molla Cümənin tədqiqatçıları şairin nakam sevgisini bəzən Layısqıda deyil, başqa ünvanlarda axtarmışlar. Şair haqqında xatirələrini danışanlar da bəzən bu sahədə səhvə yol vermişlər. Məsələn, böyük sənətkarın əsas tədqiqatçısı professor Paşa Əfəndiyev belə bir söhbəti qeydə alıb. O, yazır

ki, İsmi Pünhan haqqında çoxlu rəvayətlər dolaşmaqdadır. Məsələn, Aşıq Karmın dediyinə görə İsmi Pünhan Qax rayonunun Şabalıtlı kəndində Şeyx Baba adlı bir şəxsin qızı olmuşdur. Əksər söyləmələrə görə, İsmi Pünhan varlı və dindar bir yerdəndir.

Amma bu cür rəvayətlər kifayət dərəcədə inandırıcı deyil. Molla Cümə doğma Baş Layısqı kəndini, sevdiyi qızın elə həmin kənddə bir dəyyus ərə verilməsini görə bilmədiyinə görə, baş götürüb qonşu Qax və Zaqatala rayonlarına gedib, özünə təzə dostlar tapıb, məclislər aparıb, aşıq kimi şagirdlər yetişdirib. O, Qaxda, başqa yerlərdə elin qız-gəlinlərinə şeirlər qoşa bilərdi. Şeirlərində o qız-gəlinlərin adları da bəllidir: Telli, Güllü, Əziz, Abdət, Məryəm, Hacı Hüseyn qızı Şirincan, Alagöz və s. Bu gözəllərin də, Molla Cümə bəzən İsmi Pünhana oxşadıqlarını vəsf edib:

*Alagöz, İsmi Pünhana*
*Əvvəl baxışın oxşayır,*
*Həm qələm qaşın oxşayır.*
*Həm dilin, həm dodağın,*
*Həm inci dişin oxşayır.*
*...Oxşarsan İsmi Pünhana*
*Dərdindən öldüm Alagöz.*

Beləliklə, şairin bizə gəlib çatan şeirlərindən bilmək olur ki, Molla Cümə Şəkinin başqa kəndlərinə, Qax, Zaqatala, Balakən rayonlarına, Gürcüstanın Laqodexi rayonuna artıq o zaman gedib ki, həmin yerlərə qəlbində Adı gizlini – İsmi Pünhanı aparıb. Onun İsmi Pünhanı Qaxın Şabalıdı kəndində yaxşı tanınan, ağıl və mərifət sahibi olan Şeyx Babanın qızı ola bilməzdi. Şeyx Baba öz qızını bir neçə arvadı olan, el içində heç bir hörməti olmayan «dəyyusun, itin birinə» ərə verməzdi. Başqa, o sıradan şairin şeirlərində adları çəkilən qızlar – gözəllər isə Molla Cümə üçün, xalqın sevimli şairi üçün yalnız el gözəlləridir. Onlara tərif qoşmağı Molla Cümə özünə şərəf bilib.

Aşıq Ələsgər də el gözəllərindən neçəsinə öz adları ilə tariflər qoşub, məclislərdə bəzən hansı bir gözəldən isə sifariş gəlirdi ki, qoy hörmətli aşıq mənə də bir tərif qoşsun. Aşıq da o gözələ bir dəfə gendən baxar, sonra bədahətən təsirli bir şeirlə onu tərifləyərdi. Belə tariflər o gözəllərin ömür boyu yadından çıxmaz, hər yerdə, hətta ərinin yanında da lovğalanardı ki, bəs onu Aşıq Ələsgər, yaxud Aşıq Alı, yaxud Molla Cümə belə tərifləyib.

Molla Cümə haqqında rəvayətlərdən birində deyilir ki, bir dəfə Layısqı kəndində şairi el məclisi aparmağa dəvət edirlər. Bu o vaxt idi ki, Molla





Cümə artıq evlənmişdi, övladları da var idi. Böyük sənətkar bu təklifdən yenə də qəhərlənir və deyir ki, indi gedə bilməyəcək. Sifariş sahibi soruşur: -

– Aşıq, bəs, nə vaxt gəlmək imkanınız olacaq?

– Nə bilim, bəlkə heç bir il vaxtım olmadı.

– Eybi yoxdur. Qoy siz deyən olsun. Mən oğlumun toyunu düz bir il gecikdirərəm.

Molla Cümə bu sözdən pərt olur. Kişiyə deyir:

– Oğlunuzun toyunu mənə görə ləngitməyin. Şəkidə o qədər aşıq və xanəndə var ki!

– Doğru deyirsiniz, Şəkidə aşıq və xanəndə çoxdur. Molla Cümə isə bir dahidir. Bir bu toyu hələ bir il əvvəl etməli idik. Molla Cüməni çox soraqladıq. Şəkidən Gəncəyə, Qaxdan Balakənə, oradan da Laqodexiyə, Laqodexidən də Tiflisə qədər soraq etdik. Bizim ləzgi qardaşlar şairi çox sevirlər.

Molla Cümə baxır ki, çıxılmaz vəziyyətdir. Bu sözü yerə sala bilməyəcək. Molla Cümənin Baş Layısqı ilə qonşuluqda qonşu olan Şin kəndində ləzgi dostları çox idi. Elə bu ləzgi də deyir ki, Baş Layısqıya Şindən köçüb gəlib. Baş Layısqıda hökumət qulluğunda dayanır. Pristav yanında hörməti var. Lazım gəlsə aşığın da qulluğunda dayana bilər: onun da bir sözü, şikayəti olsa hökumətə çatdıra bilər.

Molla Cümə düşünür ki, ona belə bir dost 10 il əvvəl lazım idi. İndi isə gecdir. O, Baş Layısqıda – doğma kəndində gözəl bir məclis aparır. Bütün şeirləri, oxuduğu aşıq mahnıları İsmi Pünhanla başlayıb, İsmi Pünhanla da qurtarır.

*Dad qazılar, İsmi Pünhan bəndənin*
*Xub camalı münəvvərdən artıqdır.*
*Çəməndə durnadır, göldə yaşılbaş*
*Bağ içində heyva, nardan artıqdır.*
*Cüməyə çəkdirmiş qəmi, hicranı,*
*Mənim tək bülbülün olur Xəndanı.*
*Dəhanında ikən dürrüm dəndanı*
*Yaqut, yəmən, dürr-gövhərdən artıqdır.*

Molla Cümə aşıqlıq sənətinə yüksək qiymət verirdi; o, öz biliyi ilə xalqın maariflənməsinə kömək edirdi. Bununla da Molla Cümə doğma Layısqı kəndinə məhəbbət və sədaqətini bir daha bəyan edirdi.

*Binəm Layısqıyə düşübdür mehman*
*Pədərim Salahdır, madərim Reyhan*
*Vələdim Həsəndir, ədim Süleyman*
*Familim Mollaoruc ədnasıyam mən.*

Bu şeiri və yanıqlı ifası ilə Molla Cümə doğma kəndinə və onun adamlarına həm bilik, həm də hesabat verirdi. 15 ilin ayrılığından sonra aşığı unudanlar da var idi.

Amma Layısqı camaatı sevimli şairinin – aşığının həsrətində idi və Molla Cümə o gün toy məclisində onların əlinə göydən düşmüşdü. Deyirlər. Molla Cümə bütün gecəni səhərə qədər oxudu, dayandı, saysız suallara cavab verdi. Öz avtobioqrafiyasını dönə-dönə, «Ruhani» və «Sarıtel», «Yanıq Kərəmi» və «Şirvan Şikəstəsi» üstündə, muğam guşələri üstündə: «Segah» və «Şahnaz» üstündə oxudu. Özü də etiraf etdi ki, ömründə xüsusən də bu 15 illik ayrılıq dövründə heç vaxt bu qədər fasiləsiz oxumayıb.

O sayda – o məclisdə Molla Cümə doğma kəndi Layısqıya sonsuz məhəbbətini dilə gətirmişdi. O, – Layısqı – Azərbaycanın və dünyanın cənnətidir, - deyirdi. Layısqı yaxşı insanların məskənidir, - deyirdi. Pis adamlar isə həmişə Layısqinin havasının, suyunun, torpağının və xüsusən də insanların mehribanlığının paxıllığını çəkiblər.

Toy məclisi olan yeri işıqlananda toy sahibnin xahişi ilə dayandırıldı. Xalqın – elin sevimli şairi – aşığı Molla Cümə qəfil xəstələnmişdi. Yerdən verilən suallardan biri – «İsmi Pünhan kimdir?» sualı onu susmağa məcbur etmişdi. O, bu suala əvvəl «bilmirəm! Tanımıram!» cavabını versə də, adamlardan biri həddini aşaraq, -

– Yox! Aşıq! Deyəcəksiniz kimdir İsmi Pünhan? - deyə onun üzünə dirənmişdi.

– İsmi Pünhan mənim İlham Pərimdir! O, bir şirin xəyaldır! Dünyada elə adam, elə qız, elə gözəl yoxdur! – cavabını verib, sədəfli sazını boynundan çıxarıb, toy mağarının qapısına tərəf getdi. Toy sahibi və yaxınları Molla Cümənin qolundan tutub həyətə çıxartdılar. Payız gecəsi artıq əriyib gedirdi. Molla Cümə çox kövrəlmişdi. O, ağlamaqdan, hönkürməkdən özünü güclə saxlayırdı. O, ev sahibindən xahiş etdi ki, fayton gətirsinlər, o, lap təcili surətdə kənddən çıxmalıdır. Toy sahibi el aşığının xahişinə əməl etdi. Fayton onu Qaxın İlisu kəndinə apardı…

Bu əhvalatı mənə nəql edən tələbə yoldaşım Salis Məmmədov artıq dünyasını dəyişib. Salis Şəkidə «İpəkçi» qəzetinin redaktoru idi. O, çox istəyirdi ki, mən bir yay məzuniyyətimi Şəkidə keçirim. Onunla birlikdə Baş Layısqı və Aşağı Layısqı kəndlərinə, Göynük, Qumuq və Şin kəndlərinə gedim və Molla Cümə haqqında xatirələri dinləyim və qələmə alım.





– Mən sənin qələminə bələdəm. Molla Cümənin haqqında sən gözəl bir əsər, bir sənədli povest, lap bir sənədli roman yaza bilərsən. Molla Cümə böyük sənətkar, həm də böyük şəxsiyyət olub. Bilirsənmi, Molla Cümə ilə İsmi Pünhan arasında böyük bir əhdnamə, ilqarnamə olub. Hər ikisi söz verib ki, İsmi Pünhan – Molla Cümə sevgisinin sirri heç vaxt açılmayacaq. Ata-anaları, Molla Cümənin arvadı, İsmi Pünhanın əri, hər ikisinin oğul və qızları, ən yaxın dostları, qohumları, axır ki, heç kim bu sirri bilməməlidir. O gecə, - Salis deyirdi, Baş Layısqı kəndindəki o toy məclisində İsmi Pünhanın oğlu və qızı da iştirak edirmiş. İsmi Pünhan özü də gəlmək istəyib. Amma hiss edib ki, özünü saxlaya bilməyəcək. Lap heç nə danışmasın, ağlamağını saxlaya bilməyəcək. Ağladısa, qurtardı, sirr açılacaq. Bununla da İsmi Pünhan öz əhdinə, andına əməl etdi. Onun ərinin evi də toy mağarına yaxın imiş. O, aşığın – Molla Cümənin səsini eşidib səssizcə ağlayırmış, amma ağlamağına bəhanə tapıb, niyə ağladığını heç kəs bilməyib…

Mən unudulmaz dostum Salis Məmmədova verdiyim sözü, onun sağlığında yerinə yetirə bilmədim. Bu söhbəti qələm dostum görkəmli tədqiqatçı-alim Asif Rüstəmliyə danışdım. O, dedi ki, eybi yoxdur, mən özüm səni bu il Şəkiyə, lap Baş Layısqı və Aşağı Layısqı kəndlərinə də apararam. Molla Cüməni görüb tanıyan adamları birlikdə soraqlayarıq. Xatirələr az olsa, Molla Cüməni görən adamlardan sağ qalan olmasa da, sən ən azı təzə bir tədqiqat əsəri yazarsan.

Mən Aşağı Layısqıda Molla Cümənin məzarını və məzarın üstündəki daş büstünü ziyarət etdim. Xatirələr isə qabaqdadır. Mən Molla Cümənin nəvəsi ilə görüşmək üçün yenidən Şəkiyə qayıtmalıyam. Əgər buna macal tapa bilsəm…

**Əjdər Fərzəli**
**Fiologiya üzrə**
**fəlsəfə doktoru**

## LAYISQILI AŞIQ SİRAC



Molla Cümə aşıq məktəbinin görkəmli davamçılarından biri də Layısqılı Aşıq Siracdır.

Molla Cümənin vəfatından 13 il sonra – 1933-cü ildə Layısqı kəndində dünyaya göz açmış Aşıq Sirac ziyalı-müəllim ailəsinə böyüyüb tərbiyə almışdır. Onun atası Abuzər müəllim bir neçə il Layısqıda və Şəkinin başqa kəndlərində pedaqoji fəaliyyət göstərmiş, 1940-cı ildə təyinatla Qax rayonuna göndərilmişdir. Müəllimliyini Qaxın Qarağan kəndindəki 7 illik məktəbdə davam etdirən Abuzər kişi oğlu Siracın da ilk müəllimi olmuşdur. Alın yazısı kimi, Layısqılı Molla Cümə və Layısqılı Aşıq Sirac Qax torpağında özlərinə ikinci məskən tapıblar.

1947-ci ildə 7-ci sinfi bitirəndə Sirac hələ aşıq deyildi, nə vaxtsa aşıq olacağı da ağlına gəlmirdi. Amma o, hələ 1946-cı ildə - 6-cı sinifdə oxuyanda ilk şeirlərini yazmağa başlamışdı. Eyni zamanda Sirac 10-12 yaşında ikən məlahətli səsi ilə diqqəti cəlb etmişdi. Onun səsinə, ifasına ilk qiymət verən bibisi Sara xanım oldu. Bir gün Sara xanım balaca Siracın əlindən tutub onu özü ilə rayon mərkəzinə – Qaxa apardı. Burada sazbənd Həvilin emalatxanasına gəldilər. Sara xanım sazbənd Həvili yola gətirdi:

- Görürsən ki, uşaq hələ səndən utanır, rahat oxuya bilmir. Amma mən onu yoxlamışam, neçə dəfə xəlvətdə dayanıb dinləmişəm. Əməlli-başlı səsi var. Mən, bibisi olduğuna görə demirəm, aşıq sənətindən az-çox başım çıxdığına görə deyirəm ki, bu uşaq gələcəkdə əsil aşıq olacaq.

- Ondan apar qoy bir aşığın yanında şəyirdlik etsin. Mənim yaxşı səsim olmadığına görə aşıqlıq etmirəm, aşıqlar üçün saz düzəldirəm.

– A kişi, Allah sənə bu bacarığı verib, elə sənin də gözəl səsin var. Di gəl ki, bu yaşında da utanırsan. Utancaqlıq sənətkarın evini yıxır.

– Yox, Sara bacı, məndən aşıq olmaz. Sən bu Sirac balanı əməlli-başlı





aşıq yanına apar.

- A kişi, sən burda sazbəndlik edirsən. Bəs, sazbəndə də şəyird lazım deyilmi? Deyəcəksən ki, bir şəyirdin var, o da öz oğlundur. Nə olar, qoy 2 şəyirdin olsun.

Sazbənd Həvil dayanıb fikrə getdi. Onun öz oğlu hələ 5-ci sinifdə oxuyur. Heç öz dərslərini oxuyub çatdıra bilmir. Evdə də anası, uşağı gündə neçə buyruğa göndərir. Ona doğrudan da elə bu balaca Sirac kimi bir köməkçi lazımdır. Əlini şappıltı ilə dizinə vurdu:

– Yaxşı, mənim bacım! Qoy sən deyən olsun! Sirac balam lap elə bu gündən olur mənim şəyirdim. Əgər bu, üzüyola olsa, mən ona Sazbənd peşəsinin bütün sirrlərini öyrədəcəyəm. İndi bunun aşıq kimi səsi olacaq, ya olmayacaq, onu hələ Allah bilər. Bəlkə bu elə doğrudan da ustad bir aşıq alacaq, ad qazanacaq! Sazbəndlik isə bunun çörək ağacı olacaq. Dediyim kimi, sözə baxan, üzüyola olsa. Bir də inanıram. Abuzər müəllimin oğlu tərbiyəli uşaq olmalıdır.

– Demək, danışdıq, usta Həvil!

– Danışdıq! Axşam gəlib aparacaqsan. Uşağın hələlik bu yol çətinliyi var. Qorğan kəndi Qaxdan bir az uzaqdır. Sonra onun yer məsələsini də həll edərik. Bəlkə elə bizdə qalacaq?

Sara xanım axşam gəlib Siracı apardı. Səhər də elə gəlib çatdılar ki, Sazbənd Həvil dükanın qapısını təzəcə açırdı. 2-ci axşam bibisi, qardaşı oğlunu aparmağa gələndə usta dedi:

- Mənim bacım, bu Sirac halal uşaqdır. İzn versəniz, mən onu öz evimə aparardım. Mənim də cəmi 2 uşağım var. Böyüyü oğlandı, 5-ci sinfə gedir, kiçiyi qızım hələ bu payız 1-ci sinfə gedəcək. Yəni 2 uşağım var idi bu günədək, indən belə 3 olsun. Təklif edirəm, Sara bacım gəlsin evimin də şəraitinə baxsın.

Sara xanım Sazbənd Həvilin ev şəraitindən də razılıq etdi, ustanın həyat yoldaşı ilə bir qədər söhbətdən sonra Qorğan kəndinə qayıtdı. Abuzər müəllim bacısına inanırdı. Əgər müəllim, usta öz şagirdini bu dərəcədə əzizləyirsə, gərək ondan narazılıq etməyəsən. Bir neçə gündən sonra Abuzər müəllim Siracın ilk iş yeri və ustası Həvillə özü də gəlib tanış oldu və razılıq etdi.

Sirac gördüyünü tez götürürdü. O, ustanın hansı səmtə baxmağından bilirdi ki, ona nə lazımdır. Ev isə balaca Sirac ustasının uşaqlarına «müəllimlik» edirdi. Hər axşam onların sabahkı dərslərini oxudub əzbərlətdirir, ev tapşırıqlarını yazdırırdı.

– Belə şəyirddən kim razı qalmaz!? – deyirdi Sazbənd Həvil.

Şəyirdliyinin (Şagirdliyinin) 2-ci ilində Sirac artıq özü sərbəst olaraq

saz düzəldə bilirdi. Amma Sirac ustasından tez ayrılmaq istəmirdi. O, daha bir il Sazbənd şagirdi oldu. Atası Abuzər müəllim bundan belə Siracı toylarda, el məclislərində görünməsi, usta aşıqlardan ifaçılıq sənətini kəndində, yaxud elə doğma Layısqıda sazbənd emalatxanası – sexi açmağın da mümkünlüyünü düşünmüşdü. Uşaq özünün düzəltdi sazın çanağına öz əli ilə, naxışı işarə-aşıq kimi ilk çıxışında oxuduğu Qorğan kənd 7 illik məktəbinin növbəti buraxılışı münasibəti ilə başlamışdı. Müəllimlər də, şagirdlər havalarını və mahnılarını razılıqla qarşılamışdılar. Elə həmin gün atası onu atın tərkinə alıb Layısqı kəndinə – Siracın öz doğulduğu ocağa gətirdi.

Abuzər müəllim Layısqıda artıq yaxşı tanınan Əhməd müəllimlə əmi uşağı – əmi nəvəsi idilər. Əhməd müəllim özü də Siracın istedadını, Sazbənd kimi ustalığını, gənc aşıq kimi ifaçılıq məharətini baxıb, dinləyib sınaqdan çıxartdı. Əhməd müəllim özü də əminliklə bildirdi ki, Sirac lap əsil aşıqlar kimi oxuyur, onun çox şirin, ürəyəyatımlı, məlahətli səsi var. Doğma Layısqıda qalsa o, həm aşıq, həm də Sazbənd kimi öz qabiliyyətini qədərincə inkişaf etdirə bilməyəcək. Mən bilən, - dedi Əhməd müəllim, bundan belə Sirac balamızın yeri Gəncə olmalıdır. Gəncə, Göyçə aşıq məktəbinin qapısıdır. Siracın böyük ustadı və həmkəndlisi Molla Cümə özü də aşıq məktəbində yetişib və bütün Azərbaycanda məşhurlaşıb. Hesab edirəm ki, bizim Sirac balamız şan-şöhrətli nəslimizin adına təzə şan-şöhrət gətirəcək.

Bu günlərdə elə özümün də Gəncədə işim var. Özüm apararam Siracı Gəncəyə. Orada o, həm aşıq şagirdi olar, həm də özünə sazbənd sexi açar. Belə sazbəndə hər yerdə ehtiyac var. İnanıram ki, Sirac doğma kəndinin – Baş Layısqının adını daha da ucaldacaq.

Gəncədə ustad aşıqlar: Borsunlu Məzahir Daşqın, Miskin Vəli, şair Cavad gənc Siracın səsini də bəyəndilər, sazbəndlik məharətini də alqışladılar. Sirac Gəncədə özünə tezliklə sazbənd emalatxanası açdı və çox keçmədi ki, ona Gəncədən, Şəmkirdən, Tovuzdan, Gədəbəydən, Qazaxdan ilk sifarişlər gəldi.

Həmin rayonlarda hamının aşıq olması, əlbəttə, vacib sayılmırdı. Amma belə deyirlər ki, hər bir qazaxlının, tovuzlunun, gədəbəylinin evində mütləq telli saz olsun gərək. Əgər Bakıda yaşayan Qazaxlının, gədəbəylinin evinə qonaq getmisənsə, süfrə başında, əlbəttə, yeyib-içəndən sonra, ev sahibi, səsi olmasa belə, bir neçə aşıq havası çalacaq, bir aşıq mahnısı ifa edəcək. Sazbənd Siracın Gəncəyə gəlişi bu cəhətdən daha uğurlu oldu. Bir müddət ona «təzə saz» sifarişi verənlərin ardı-arası kəsilmək bilmədi.

Tezliklə, Gəncədə və ətraf rayonlarda onu toylara, məclislərə, hətta hökumət bayramlarına dəvət edir və ifasını bəyənirdilər.





– Aşıq Sirac!

– İfa edir Layısqılı Aşıq Sirac!

«Məgər Gəncəbasarda da Layısqı kəndi var»?

– Ə, yox ey! Bu aşıq Şəkinin Layısqı kəndindəndir! Molla Cümənin kəndindən!»

– Vallah, halal olsun! Molla Cümə kimi ustadın kəndi Şəkiyə 2-ci aşıq da bağışladı!

– Təkcə Şəkiyə yox! Bütün Azərbaycana bağışladı!

– Ayə, doğrudan da çox qəribədir, lap deyirsən möcüzədir. O boyda Şəki rayonundan 2 aşıq çıxıb, ikisi də Layısqı kəndindən! Var olsun elə kəndi!

– Gərək bu Layısqı kəndinə dastanlar bağlansın.

– Nə bilirsən bağlanmayacaq?

Bağlanacaq Allah qoysa!

– Ə sən Layısqı kəndində olmusan heç?

– Mən olmamışam, Aşıq Mahir olub. O qədər tərifləyir ki, Layısqıda yaşasın! Cənnətin özüdür Layısqı. And olsun Allaha, bir gözəl, təmiz havası var ki! Kənd qarlı dağın dibindədir. O dağın qarı 12 ayda ərimir.

– Bəh-bəh! Ta de ki, elə dağın ətəyində salınan kənddə hamı bülbül kimi oxuyur.

– Hə! O kənddən ta keçmişdən bəri o qədər böyük adamlar çıxıb ki!

– Qurban olum Azərbaycana! Gör necə yerdə cənnət guşəsi var! Qarabağ bir cənnət, Gəncəbasar bir cənnət, Tovuz-Gədəbəy bir ayrı cənnət! O yanda Quba, bu yanda Daşkəsən bir cənnət! Hələ Lənkəranı demirsən, ay zalım! Başdan ayağa cənnətin özüdür Lənkəran! Şamaxı – cənnət! Altıağac cənnət! Qurban olum Azərbaycana! Cənnətimizin yarısı qalıb o tayda! Ərdəbil – Cənnət! Təbriz cənnət! Urmiya cənnət! Bu tayda Naxçıvan – cənnət!

– Yaxşı! Bir macal ver cənnət Layısqılı Aşıq Sirac oxusun!

*Bu gün qoynun gülər yenə,*
*Zirvələri qoşa dağlar.*
*Baxan heyran olur sənə*
*Hüsnün gəlir xoşa dağlar.*

*...Siracın artıbdır qəmi*
*Yenə gəldi hicran dəmi*
*İnsan solar çiçək kimi*
*Sən əbədi yaşa dağlar*

– Boy! Ayə bu Sirac öz şeirini oxuyur? Ə, bu Sirac əsil şair imiş ki! Ə,

vallah bu şeir məni yaman kövrəltdi. Aşıq Şəmşirdən sonra Sirac 2-ci aşıq-şairdi ki, Səməd Vurğunun vaxtsız ölümünə belə yanıqlı bir şeir qoşub. İnsafən, Baş Sarıtel üstündə necə də gözəl oxudu.

O məclisdə Borsunlu Məzahir Daşqın da iştirak edirmiş. Söz tamama yetəndə ustad aşıq durub gəlir Siracın yanına, bunun alnından öpür, deyir:

– Oğlum, halal olsun sənə Layısqı kəndinin suyu, havası, çörəyi! Sən Layısqılı Molla Cümənin saz və söz məktəbini belə uğurla davam etdirməlisən!

Bunu deyib Məzahir Daşqın üzünü məclisə tutur:

– Camaat! Mən bu günədək çox məclislər yola salmışam, bizim aşıq havalarının hamısında oxumuşam, gücümü sınamışam. Bu məclisə mən də öz sazımla gəlmişəm. Amma, sizə deyim ki, mən bu axşam öz sazımı köynəkdən çıxarmayacağam. Mən ustad kimi bir tərəfdə əyləşəcəyəm. Öz oxumaq-çalmaq payımı bu axşam verdim bu cavan aşığa. Qoy o, öz gözəl səsi, gözəl ifası ilə sizi də heyran eləsin, məni də!

Məclisdə əyləşənlər bir ağızdan Borsunlu Məzahiri alqışlayır. – Sağ ol, ustad!

Sağ ol ki, öz yetirməni belə əziz tutursan! Əsl ustad belə olar! Rəhmətlik Aşıq Ələsgər də, Molla Cümə də belə edərmiş.

– Beləliklə, sözü verdim gənc aşıq Layısqılı üstündə bizə bir şey oxusun. Qoy bu axşam ancaq öz sözlərim oxusun. Çünki, bunun dastan axşamları, qıfılbənd açmaları, deyişmələri sonra olacaq.

Bu söhbətdən gənc Sirac ürəkləndi və ustadından icazə istədi:

– Əziz Ustadım! İzn versəydiniz qədim Gəncəyə həsr etdiyim qoşmanı oxuyardım «Ruhani» üstündə. İzn verdim!

*Nizami vətəni, ey gözəl diyar*
*Dillərdə söylənir büsatın Gəncə!*
*Çıxdın ağ günlərə, oldun bəxtiyar*
*Təzələnir köhnə həyatın Gəncə!*

*...Sirac gəzib hər mahalın, oylağın*
*Xoşbulaqdır toy-busatlı yaylağın*
*Bahar çağı ellər olur qonağın*
*Xoş keçir hər anın, saatın Gəncə.*

Gözəl səslə oxunan bu şeir məclisdə canlanma yaratdı:

– Ayə, bu gün – 1965-ci ildə Gəncənin keçmiş, əsl adını bərpa etmək, «Kirovabad» sözünü bir kəlmə də dilə gətirməmək asan məsələ deyil axı! Bu o deməkdir ki, ey mənim xalqım, eşit və unutma ki, mənim «Kirovabad» adında şəhərim yoxdur! Mənim yalnız Gəncə şəhərim var!

– Ə, sən doğru dedin bunu. Bircə, bu oturan adamlara diqqət yetirin, görün aralarında erməni yoxdur ki?

Bu söhbətin mabədi səhəri gün aşkarlandı.

Borsunlu Məzahir Daşqınla gənc aşıq Siracı Kirovabad şəhər komitəsinə çağırıb danlayıblar ki, bir də belə şeir oxumasınlar, məclislərdə şəhərimizin adına layiq mahnılar qoşsunlar. Elə həmin günlərdə radioda «Kirovabad» adlı mahnı səsləndirildi. Və bunu da bütün Azərbaycan eşitdi:

«Nizamilər vətənisən
Kirovabad! Kirovabad!»

Şəhər Partiya Komitəsinin ideoloji katibi bu mahnının müəlliflərini çağırıb tapşırıb ki, mahnının ilk sözü, ilk misrası gərək yoldaş Kirovun adı ilə başlansın! Nizaminin adı yalnız 2-ci bənddə səslənə bilər! Müəlliflər söz veriblər, amma ona əməl edə bilməyiblər. «Kirovabad» mahnısı Azərbaycan radiosunda bir daha səsləndirilməyib.

Aşıq Sirac doğma Laysısqıya, doğma Şəkiyə ayrıca şeirlər – nəğmələr qoşub. «Gəl», «Layısqı» bu nəğmələr içində xüsusilə fərqlənir.

## LAYISQI

Şəfalı qafqazın dilbər guşəsi
Yetirir hər naz-nemətin Layısqı.
Ətlasa bürünən dağlar meşəsi,
Göstərir xoş səxavətin, Layısqı.
* * *
Çəkiləndə qışın dumanı, çəni,
Yağır leysan, yuyur çölü, çəməni.
Gəlin tək bəzəyir təbiət səni,
Bir aləmdir lətafətin, Layısqı.
* * *
Bənövşə, yağlıca, novzurçiçəyi.
Qızılgülün tər qönçəsi, ləçəyi,
Həmərsindir çiçəklərin göyçəyi,
Təzələyir təravətin, Layısqı.
* * *
Müğənni quşların şən təranəsi,
Sarıköynək, qaratoyuq nəğməsi,
Qəzəlxan Bülbülün ecazkar səsi,
Laylasıdır təbiətin, Layısqı.

Sularında yaşılbaşlar çimişir,
Şahinlərin şikar üstə gəmişir.
Sağın vaxtı quzuların əmişir,
Bəhrəsidir xoş zəhmətin, Layısqı.

* * *

Zirvəndir qartallı, şah təki taclı,
Otlu, biçənəkli, zümrüd, yamaclı,
Zəmilərin qırqovullu, turaclı,
Göz oxşayır əzəmətin, Layısqı.

* * *

Nə müddətdir ayrı düşdüm mən səndən,
Güneyli döşlərdən, yaşıl çəməndən.
Yad ellərə qədəm basdığım gündən,
Çox çəkmişəm mən həsrətin, Layısqı.

* * *

Qalıb yaddaşımda körpəlik çağım,
Uşaqlıq illərim, gənclik növrağım.
Əziz ana yurdum, ana torpağım,
Kim unudar məhəbbətin, Layısqı?

* * *

Qoyulub təməlin uğurlu gündə,
İlahi gözəllik duyulur səndə.
Məhsul karvanların üz tutur kəndə,
Aşıb-daşır bol sərvətin, Layısqı.

* * *

İki qardaş hər möhnətə dözərdik,
Dərəqutan, Tapüstünü gəzərdik.
Çiyələk toplayıb düzüm düzərdik,
Sevərdik yaz hərarətin, Layısqı.

* * *

Qaş qaraldı, qəm-kədərli atardıq,
Hey qaçardıq, biz qan-tərə batardıq.
Atəşböcəyini qovub tutardıq,
Dərk etməzdik bu hikmətin, Layısqı.

* * *

Atam dərs dediyi, məktəbə hərdən,
Baxanda ayrılmır könlüm o yerdən.
Acılı-şirinli xatirələrdən,
Sinəmdədir söz-söhbətin, Layısqı.





* * *

Sazımın, sözümün ilk təməlisən.
Könül rübabımın incə telisən.
Molla Cumə vətənisən, elisən,
Məşəlisən səadətin, Layısqı.

* * *

Yetirirsən alim, aşıq, ziyalı,
Qız-gəlinin xoş ismətli, həyalı.
İnsan təfəkkürü, insan xəyalı,
Artırıbdır mətanətin, Layısqı.

* * *

Hər kəsin gələndə əziz qonağı,
Zövq ilə bəzənir qonaq otağı.
Açılır süfrələr Hatəmsayağı,
Başlanır şən ziyafətin, Layıqsı.

* * *

O günlər bir daha olaydı barı,
Enəydim Xoşgəldən Cunuda sarı.
Biləcik çayından qalxıb yuxarı,
Görəm səni məğrur, mətin, Layısqı.

* * *

Şər qarışıb çıraqların yananda,
Qoynun kəhkəşana dönür bir anda.
Üfüqlərdən qalxıb Ay ucalanda,
Seyr edəydim hər zinətin, Layısqı.

* * *

Adəm dünyasına burda gəlmişəm,
Çalıb-çağırmışam, deyib-gülmüşəm.
Hər yerdən müqəddəs səni bilmişəm,
Kəsmə məndən ünsiyyətin, Layısqı.

* * *

Müqəddəs ruhların nurlu sayəsi,
Üstündədir, bilir Moğal məhləsi.
Nurullahın, Şeyx Mütüşün türbəsi,
Olub şərəf, şan-şöhrətin, Layısqı.

* * *

Hacsalahdır əqdəs pirin, ocağın,
Saxlayır zavaldan elin, oylağın.
Odur havadarın, ümid çırağın,
Şəfa verən ziyarətin, Layısqı.

* * *

Siracam, qoynuna demişəm cənnət,
Qədir-qiymətini bilməz müxənnət.
Mən necə özümü sanmayım xoşbəxt,
Sakiniyəm bu cənnətin, Layısqı.

**Şəki rayonu, Baş Layısqı kəndi, 2001-ci il**

Azərbaycan torpaqlarının erməni-rus işğalından azad olması, əliəyrilərə, harınlara, müftəxorlara, istedadın düşmənlərinə, paxıllara qarşı yazılan kəskin misraları, həcvləri Aşıq Siracın dövrün ictimai hadisələrinə biganə qalmadığına şahidlik edir. Layısqılı aşığın nəsihət şeirləri xalq müdrikliyinin timsalı və tərənnümü kimi, xoş təsir bağışlayır.

Aşıq Sirac da öz böyük ustadları Aşıq Ələsgər və Molla Cümə kimi xalqın sadə gözəllərinə onların öz xahişi ilə gözəl nəğmələr qoşub. Bu böyük sənətkar bütün Azərbaycanı, Gürcüstanı və Dağıstanı şəhər-şəhər, oba-oba gəzmiş, hər yerdə xalq sevincini tərənnüm etmiş, xalq sevimli aşığına çevrilmişdir. O, Molla Cümə məktəbinin yetirməsi olmağını özünə fəxr bilirdi.

Aşıq Siracın yaxın dostu və tədqiqatçısı, onun «Gözləyən var yolların» adlı ilk şeirlər kitabının (2003) redaktoru Aydın Murovdağlı, sağlığında ustad sənətkardan müsahibə almışdır. Həmin müsahibəni olduğu kimi, oxuculara təqdim edirik.

«–Mən Gəncəyə gəldikdən sonra zaman məni burada azman sənətkarlarla qarşılaşdırdı. Bunların arasında sazdan-sözdən, şeirdən-sənətdən söhbət salmaq, meydana girmək böyük cəsarət və hünər tələb edirdi. Hər oğulun işi deyildi ki, Məzahir Daşqın kimi böyük sənətkarın, şair Cavadın, miskin Vəlinin və başqa bu kimi dərin zəka və istedad sahiblərinin mühitində özünü öysün. Gənclik eşqi, sənətə dərindən vurğunluq, bu vaxta qədər öyrəndiklərim «Qurani-Kərimə» dərindən bələdliyim böyük yazarlara və aşıqlarla oturub-durmağıma şərait yaratdı. Onlar da hiss elədilər ki, məndə nəsə var, aşıqlıq sənətini və şeir yaradıcılığını o qədər də zəif qavramamışam. Ümumiyyətlə zəif olsaydım mənim Gəncə şəhərində yaşamağım mümkün deyildi. Axı mən bu şəhərə adi adamlar kimi, elə-belə həyat tərzi keçirməyə yox, sənət meydanına, sənət imtahanına gəlmişdim. Buraya gəlişimin başlıca səbəblərindən biri Məzahir Daşqının dəvəti idi. Mən Gəncədə az bir zamanda qabiliyyətimlə, aşıq məktəbinin yetirmələrilə dərindən tanışlığım, Məzahir Daşqınla dostluğum, Şair Cavadla, Miskin Vəli ilə, Kəmsavadla görüşlərim, sayseçmə məclislərdə birgə çıxışlarımız, Gəncəbasarın toylarında, şənliklərində birgə oxumaqlarımız, deyişmələrimiz məni daha da





zənginləşdirdi. Onu da yaddan çıxarmaq olmaz ki, aşıq sənətində püxtələşməyimdə ustadlarım Aşıq Əlinin, Aşıq Rəhimin xidmətləri misilsizdir. Aşıq Şəmşirlə də çox isti münasibətlərimiz, etibarlı dostluğumuz olub. Qızı Müşkinaz, kürəkəni Zakir bizdə dəfələrlə qonaq qalıblar.

Onu da deyim ki, ən yaxın dostlarımdan biri də Göyçəli İsmayıl Mahir idi. Bu dostluğun yaranmasının qəribə bir başlanğıcı var. Üzdəniraq və dırnaqarası dostlarım necə oldusa Kəmsavadı qızışdırıb mənə qarşı qoydular. Doğrudur mən onun cavabını layiqincə verdim. Lakin mən burada hələ özümü qərib sayırdım. Gənc idim. Camaat arasında bir o qədər də tanınmırdım. Bax onda İsmayıl Mahir sanki keçirdiyim hissləri duyub məni möhkəmcə müdafiə etdi. Hətta mənə bir şeir də yazdı. Həmin şeirin bir bəndi belədir:

*Qardaşım, sirr sözün İsmayıla aç,*
*Müşki-kəlamınla ellərə nur saç.*
*Şeir ümmanında, ay Aşıq Sirac,*
*Mən sənə qüdrətli bir qəvvas dedim.*

Bundan sonra İsmayıl Mahirlə möhkəm dost olduq. Allah İsmayıl Mahirə də, dünyasını dəyişmiş bütün sənət dostlarıma da rəhmət eləsin. Çoxları İsmayıl Mahirə birtəhər baxırdı. Ancaq o çox bilikli adam idi. O ki, qaldı bu sənətin toxumu haradan ürəyimə düşüb, yalnız onu deyə bilərəm ki, sazla, balabanla uşaqlıqdan yaxınlıq eləyirdim. Atam doğma kəndimiz Layısqıda və bütövlükdə rayonda savadlı, tanınmış ədəbiyyat müəllimi idi. Saza-sənətə böyük marağı vardı. Göyçədən toy məclislərini aparmağa aşıqlar gələrdi. Onlar atamın qonağı olardı. Beləliklə, aşıqlığa marağım daha da dərinləşirdi».

Aşıq Sirac Layısqılı qələmini aşıq poeziyasının bütün janrlarında sınamış və hamısında da böyük uğur qazanmışdır.

Əhməd müəllim Layısqılı Molla Cümə və Layısqılı Aşıq Siracın yaradıcılığına dərindən bələd olmaqla, həm də onların hər ikisini təbliğ etmək, xalqa tanıtmaq üçün çox iş görmüşdür. Molla Cümənin Aşağı Layısqıda məzarının abadlaşdırılması və ona qəbirüstü abidə qoyulması haqqında hələ 1960-cı illərdə rayon rəhbərliyi və Respublika mədəniyyət nazirliyi qarşısında məsələ qaldırmışdı. Əhməd müəllimin təklifi gec də olsa nəzərə alınmışdı.

Azərbaycanda aşıq poeziyasının klassik səviyyəyə qaldırılmasında Molla Cümənin və Aşıq Siracın xidmətləri böyükdür.

**Əjdər Fərzəli**
**Filogiya üzrə**
**fəlsəfə doktoru**

## Əhməd Salman oğlu Yusifli



Əhməd Salman oğlu 1926-cı il noyabr ayının 1-də Nuxa (indiki Şəki) rayonunun Baş Layısqı kəndində anadan olmuşdur. İki yaşında ikən atası Salman kişini itirən Əhməd Yusifli ana himayəsində böyümüş, aclığın, yetimliyin, yoxsulluğun sərt sınaqlarından çıxmış, çətin və şərəfli həyat yolu keçmiş, bütün ömrünü elmə, təhsilə həsr etmiş, yaşamağın mənasını halallıqda və ədalətlilikdə görmüşdür.

Ə.S.Yusifli 1942-ci ildə Baş Layısqı kənd natamam orta məktəbini əla qiymətlərlə bitirib oxuduğu təhsil ocağında müəllim çatışmamazlığına görə müxtəlif fənlərdən dərs deməyə başlamışdı. Lakin, onun çox sevdiyi bu peşə sahəsində fəaliyyəti uzun sürmədi. 17 yaşı tamam olmasa da könüllü olaraq alman-faşist işğalçılarına qarşı mübarizə aparmaq üçün müharibəyə yollandı. Altı il (1942-1948) SSRİ Silahlı Qüvvələri piyada qoşunlarının tərkibində şərəflə xidmət etdi. Müharibənin sərt və dəhşətli odundan-alovundan keçdi. Mazdokdan Praqaya qədər min kilometrlərlə məsafəni yayın istisində, qışın çovğununda, şaxtasında, rahatlıq bilmədən, ölümdən, təhlükədən qorxmadan zəfərlə addımlamışdır.

Ordudan tərxis olunduqdan sonra Əhməd Salman oğlu Şəkiyə, Baş Layısqıya qayıtmış, sevimli müəllimlik peşəsini davam etdirmək üçün əvvəl Nuxa Dövlət Müəllimlər İnstitutunun dil-ədəbiyyat fakültəsinə daxil olmuş, oranı müvəffəqiyyətlə bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunun rus dili və ədəbiyyatı şöbəsini uğurla başa vurmuş, müəllimlik peşəsinin sirlərinə dərindən yiyələnmişdir. Əmək fəaliyyəti dövründə Baş Layısqı kənd orta məktəbində müəllimlik etmiş, Aşağı Göynük kənd sovetinin sədri, Kiçik Dəhnə kənd orta məktəbinin direktoru vəzifələrində





böyük həvəslə çalışmışdır. Gənclərə həmişə vətənpərvərlik duyğuları, milli-mənəvi dəyərlərə sevgi hissi aşılamışdır. Onun yetirmələri arasından çıxmış, müxtəlif sahələrdə uğurla fəaliyyət göstərən alimlər, müəllimlər, mühəndislər, həkimlər, hüquqşünaslar və digər mütəxəssislər respublikamızda böyük nüfuz qazanmışlar.

Ə.Yusiflinin təşəbbüsü və maddi dəstəyi ilə Baş Layısqıda Böyük Vətən müharibəsində həlak olan və iştirak edənlərin əziz xatirəsinə möhtəşəm xatirə abidəsi ucaldılmış, Qarabağ savaşında şəhid olan 9 nəfər igidin qəbirüstü abadlaşdırılmış, kəndin "Fəxri xiyaban"ı inşaa edilmişdir.

Əhməd Salman oğlunun həyat kredosu, amalı – zəhmətsevərlik, halallıq, ədalətlilik və xeyirxahlıq idi. O, övladlarına da (6 oğul, 2 qız) bu hissləri aşıladı, Səmənnaz Qəniyeva ilə 57 illik ailə həyatını xoşbəxt yaşadı. Hərbdə və həyatda misilsiz xidmətlərinə görə çoxsaylı orden və medallarla təltif edilmişdir.

Görkəmli pedaqoq, böyük ziyalı, parlaq şəxsiyyət Əhməd Salman oğlu Yusifli 2013-cü il sentyab ayının 26-da 87 yaşında vəfat etmiş, Baş Layısqı kənd qəbiristanlığında dəfn olunmuşdur.

## Yamən Yaqub oğlu Bəkirov



Yamən Yaqub oğlu 1924-cü ildə Şəki rayonunun Baş Layısqı kəndində dünyaya göz açmışdır. Burada orta məktəbi bitirdikdən sonra müəllimlik sənətinə böyük həvəs göstərmiş, 1939-cü il Şəki Pedoqoji məktəbinə daxil olmuş 1941-ci ildə sinif müəllimi ixtisasına yiyələnmişdir.

Yamən Yaqub oğlu 10 oktyabr 1941 ci ildə Baş Layısqı 1 saylı kənd orta məktəbinə sinif müəllimi təyin edilmiş, sevimli peşəsində bir ilə yaxın çalışmışdır. Böyük Vətən Müharibəsi çoxları kimi onun da arzusunu yarımçıq qoymuş, o könüllü olaraq birbaşa döyüşən orduya yollanmışdır. Y.Y.Bəkirov 1942-ci il 16 sentyabr ından 1945–ci ilədək müxtəlif cəbhələrdə vuruşmuş, Leninqradın müdafiəsində fəal iştirak etmiş, 1946-cı ildə ordudan tərxis olunmuşdur.

Yamən Yaqub oğlu müharibədən qayıtdıqdan sonra Baş Layısqı 1 saylı orta məktəbində rus dili müəllimliyinə bərpa edilmiş, 1947-ci ildə isə ona etimad göstərilərək partiya sıralarına daxil olmuşdur.

Y.Y.Bəkirov ali təhsil almağı qarşısına məqsəd qoymuş, 1947-ci ildə M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji İnstitutun qiyabi şöbəsinə daxil olmuş, 1951-ci ildə rus dili və ədəbiyyatı ixtisası üzrə təhsil almışdır.

Yamən Yaqub oğlu 1952-1957-ci illərdə Şəki rayonunun Baş Göynük və Qoxmux kənd orta məktəblərində rus dili və ədəbiyyatını tədris etmişdir.

1957-ci il 30 oktyabrından Şəki rayonunun Baş Layısqı orta məktəbinə təyinat alan Y.Bəkirov burada müxtəlif illərdə kənd sovetinin sədri, kolxozda partiya təşkilat katibi vəzifəsində işləmişdir.

Yamən Yaqub oğlu Bəkirov 2006-cı il avqustun 10-da doğulduğu Baş Layısqı kəndində 82 yaşında vəfat etmişdir.





## Ələsgər Abdulla oğlu Əhmədov



Ələsgər Abdulla oğlu 1931-ci ildə Şəki rayonu Baş Layısqı kəndində anadan olub. 1939-1949 cu illərdə Şəki rayonu Baş Layısqı kənd orta məktəbini müvəffəqiyyətlə bitirib. İxtisas seçimində çətinlik çəkməyib. Sevimli müəllimlərinin məsləhəti ilə Şəki ikiillik müəllimlər institutuna, 1951-ci ildə daxil olub və 1952-ci ildə bu təhsil ocağını uğurla bitirib. Ordu sıralarında hərbi xidmətini başa vurduqdan sonra isə tərəddüd etmədən ali təhsil almaq yolunu seçmiş, 1953-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakultəsinin qiyabi şöbəsinə daxil olaraq buranı 1957-ci ildə müvəffəqiyyətlə bitirmişdir.

Ələsgər Abdulla oğlu müəllimlik peşəsinin sirlərinə dərindən yiyələnmiş, şagirdlərinin və kənd əhalisinin sevimlisinə çevrilmişdir. O, uzun illər Baş Layısqı kənd orta məktəbində işləmiş, yetirdiyi şagirdlərin bir qismi bu gün respublikamızda tanınan nüfuzlu mütəxəssislər, elm və təhsil xadimləri, istehsalat rəhbərləridir.

Ələsgər Abdulla oğlu Əhmədov 1984-cü ildə, 53 yaşında vəfat etmişdir.

## Eldar Mustafa oğlu Əhmədov



Eldar Mustafa oğlu Birinci Dünya Müharibəsinin başlandığı çətin və mürəkkəb bir dövrdə - 1914-cü ildə Şəki rayonu Baş Layısqı kəndində anadan olub.

Baş Layısqı kənd orta məktəbini fərqlənmə ilə bitirərək Şəki Pedaqoji İnstitutuna daxil olub və oranı uğurla başa vurub. E.M.Əhmədov 1936-cı ildən – 70 ilə yaxın fizika-riyaziyyat ixtisası üzrə müəllim peşəsində çalışıb.

O, 1941-1944-cü illərdə Böyük Vətən müharibəsində iştirak edib, alman faşistlərinə qarşı cəsarətlə vuruşub. 1944-cü il 26 fevralda ordu sıralarından I-ci qrup əlil kimi kəndə qayıdaraq Baş Layısqı kənd orta məktəbində fizika-riyaziyyat müəllimi eyni zamanda dərs hissə müdiri vəzifəsində işləmişdir. Eldar müəllim 1949-cu ildə Baş Layısqı kənd orta məktəbinə direktor təyin edilmişdir.

O, Şəki rayon Böyük Dəhnə kənd orta məktəbində fizika-riyaziyyat müəllimi (1950), tədris hissə müdiri (1951), Aşağı Göynük 7 illik məktəbində direktor (1951), Zəyzid orta məktəbində fizika-riyaziyyat müəllimi (1952), Qax rayonunun Stalin adına orta məktəbdə fizika-riyaziyyat müəllimi (1953-1954) vəzifəsində çalışmışdır. Doğma elə-obaya mənəvi tellərlə sıx bağlı olan görkəmli pedaqoq ömrünün 50 ildən çoxunu Şəki rayonu Baş Layısqı kənd orta məktəbində fizika-riyaziyyat müəllimi (1954- 2005) işləmişdir.

Eldar Mustafa oğlu Əhmədov 2006-cı il may ayının 9-da - faşizm üzərində qələbə günündə, 92 yaşında vəfat etmişdir.





## Musa İsa oğlu Mikayılov



Musa İsa oğlu 1921-cü il Şəki rayonunun Baş Layısqı kəndində dünyaya göz açmışdır. Orta təhsili doğulduğu kənddə başa vurmuşdur. Müəllimlik ixtisasına sevgi və maraq bəslədiyi üçün 1936-cı ildə Şəki Pedoqoji məktəbinə daxil olmuş, həmin təhsil ocağını 1939-cu ildə bitirmiş, sinif müəllimi kimi fəaliyyətə başlamışdır.

M.İ.Mikayılov 1940-cı il sentyabr ayının 1-də Qəbələ (keçmiş Qutqaşen) rayonunun Vəndam kəndindəki 2 saylı orta məktəbdə direktor təyin edilmişdir. Böyük Vətən müharibəsi dövründə hərbi xidmətə çağrılmış, 01.08.1943 - 25.10. 1945-ci illərdə 402-ci diviziyanın tərkibində döyüşən orduda xidmət etmişdir.

Musa İsa oğlu ordudan tərxis olunduqdan sonra 10.11.1945-ci ildən Baş Layısqı kənd məktəbində dərs hissə müdiri,1948-ci ildən Aşağı Göynük kənd orta məktəbində direktor, 1950-ci ildən isə Baş Layısqı kənd məktəbində müəllim vəzifələrində çalışmışdır.

1948-1952-ci illərdə Azərbaycan DPİ-nun coğrafiya fakültəsinin qiyabi şöbəsində ali təhsil alan Musa İsa oğlu 1952-53-cü illərdə Qudula kənd məktəbində, 1953-1970-ci illərdə isə Şəki rayonunun Baş Layısqı kənd məktəbində direktor vəzifəsində işləmişdir. 1970-ci ildən ömrünün sonunadək Baş Layısqı kənd məktəbində coğrafiya fənnini gənc nəslə tədris etmişdir.

Musa İsa oğlu Mikayılov 23 may 1991-ci ildə vəfat etmiş, Baş Layısqı kənd qəbirstanlığında dəfn olunmuşdur.

## Ramazan Camal oğlu Ramazanov



1980-ci ildə Baş Layısqıda yeni məktəbin bünövrəsi qazılarkən bir küp-qəbirin aşkar edilməsi xəbəri sürətlə kəndə yayıldı. Hadisə yerinə dərhal gələn coğrafiya müəllimi Ramazan Camal oğlu tarixi qənimətlərin talan olunduğunun, maddi mədəniyyət nümunələrinin bir qisminin evlərə daşındığının şahidi oldu. O, yaranmış əlahiddə vəziyyətdə nəzarəti ələ alaraq tarixin dərin qatlarından bu günümüzə gəlib çatan misilsiz sərvətləri – nizə ucluqlarını, qolbağları, sırğaları, sinəbəndləri, müxtəlif bəzək əşyalarını məktəbin tarix-diyarşünaslıq guşəsinə toplaya bildi. Yaşı altı min ildən çox olan Baş Layısqı tapıntıları tarixmizin dərin laylarına işıq salmaqla yanaşı sadə bir kənd müəllimi olan Ramazan Ramazanovu da respublikada məşhurlaşdırdı. Maddi mədəniyyət nümunələrinə Ramazan Ramazanov sevgisi və qayğısı respublika orta məktəblərində örnəyə çevrildi. Onun bu vətənpərvərliyini və uzaqgörənliyini 1915-ci ildə Mahmud Kaşğarinin "Divani-Luğat-it Türk" əsərini kitab satıcısından alaraq Türk dünyasına, elm aləminə bəxş edən Əli Əmiri Əfəndinin xidmətləri ilə müqayisə etmək olar.

Ramazan Camal oğlu Ramazanov 1930-cu ildə Şəki rayonunun Baş Layısqı kəndində dünyaya göz açmışdır. Doğma kəndində orta məktəbi başa vurduqdan sonra müəllimlik sənətini seçmişdir. 1947-ci ildə Şəki Müəllimlər İnstitutuna daxil olan Ramazan Camal oğlu buranı 1949-cu ildə müvəffəqiyyətlə bitirmişdir.

Baş Layısqı, Baş Göynük kənd məktəblərində müəllim işləyən Ramazan müəllim 1951- 1954-cü illərdə hərbi xidmətdə olmuşdur.

O, hərbi xidməti başa vurduqdan sonra, 1954-cü ildən ömrünün sonunadək Şəki rayonunun Baş Layısqı kənd orta məktəbində müəllim işləmişdir.

Ramazan Camal oğlu Ramazanov 1993-cü ildə Baş Layısqı kəndində vəfat etmişdir.





## Zaməddin Sadəddin oğlu Cumayev



Zaməddin Sadəddin oğlu 1932-ci il iyun ayının 6-da Şəki rayonunun Baş Layısqı sovetliyinin Qumux kəndində anadan olmuşdur.

O, kənd orta məktəbini bitirdikdən sonra sənədlərini Şəkidə fəaliyyət göstərən iki illik pedaqoji məktəbə vermiş, oranı müvəffəqiyyətlə bitirəndən sonra ali təhsilini davam etdirmək istəmişdir. Ataların gözəl bir deyimi var: "Niyyətin hara, mənzilin ora". Zamәddin Sadəddin oğlu da 1958-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun Riyaziyyat fakültəsinə daxil olmuş, oranı 1961-ci ildə uğurla bitirmişdir.Təyinat ilə bir müddət Yevlax rayonunun Tanrıqulular kəndində riyaziyyat müəllimi işləmiş, sonra Şəkinin Cəfərabad kəndində dəyişdirilmiş, 1965-ci ildən isə Şəkinin Baş Layısqı kəndinə göndərilmişdir. 1966-1982-ci illərdə həmin məktəbdə direktor müavini işləmişdir. Zamәddin Sadəddin oğlu 1982-1993-cü illərdə Baş Layısqı kəndində Kənd soveti katibi vəzifəsində çalışmışdır.

O, 1993-cü ildən yenidən Şəkinin Baş Layısqı kənd orta məktəbində direktor müavini vəzifəsində işini davam etdirmişdir. Zamәddin müəllimin 1998-ci ildə vəzifəsi böyüdülmüş, Şəkinin Qumux kənd məktəbinə direktor təyin edilmiş, ömrünün sonunadək bu vəzifəsində çalışmışdır.

Zamәddin Sadəddin oğlu Cumayev 2002-ci il yanvarın 11-də vəfat etmişdir.

## Zəkəriyyə Qədir oğlu Əzizov



Zəkəriyyə Qədir oğlu 1925-ci il iyul ayının 20-də Şəki rayonunun Baş Layısqı kəndində anadan olmuşdur. 1942-ci ildə orta məktəbi əla qiymətlərlə bitirdiyinə görə Pedaqoji şurasının qərarı ilə ibtidai sinif müəllimliyinə işə qəbul edilmişdir.

Şəki Müəllimlər İnstitutunu bitirdikdən sonra müxtəlif illərdə Baş Layısqı kənd məktəbində müəllim, Aşağı Şabalıd kənd məktəbində direktor vəzifəsində işləmişdir.

1956-1961-ci illərdə Azərbaycan Pedaqoji İnstitutu Azərbaycan dili və Ədəbiyyatı fakültəsinin qiyabı şöbəsini bitirdikdən sonra 1967-ci ildə Baş Layısqı və Qumux kənd məktəblərində direktor müavini, 1974-cü ildən direktor vəzifəsində işləmiş, "Baş müəllim" adına layiq görülmüşdür.

Zəkəriyyə Qədir oğlu Əzizov 2003-cü il yanvar ayında dünyasını dəyişmiş, Baş Layısqı kəndində torpağa tapşırılmışdır.





## Zeynal Mustafa oğlu Əhmədov



Zeynal Mustafa oğlu 23 avqust 1923-cü ildə Şəki rayonunun Baş Layısqı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Şəki Müəllimlər İnstitutuna daxil olmuşdur. Lakin İkinci Dünya müharibəsi çoxları kimi onun da arzularını yarımçıq qoymuşdur.

Zeynal Mustafa oğlu 1941-ci ildə könüllü olaraq Böyük Vətən müharibəsinə yollanmış, müharibə illərində batalyonun siyasi rəhbəri olmuş, Şimali Qafqazdan Berlinə qədər çətin və şərəfli döyüş yolu keçmişdir. 1945-ci ildə, müharibədən sonra təhsilini davam etdirmişdir.

O, institutu bitirdikdən sonra 1948-ci ildən Yevlax rayon Xaldan kəndində pedaqoji fəaliyyətə başlamışdır. 1950-1952-ci illərdə Şəki rayonunun müxtəlif kəndlərində müəllim işləmişdir.

1952-ci ildən Şəki rayon toxuculuq texnikumunda müəllim kimi fəaliyyətə başlamış, 1972-ci ildən qiyabi və axşam şöbələri üzrə direktor müavini vəzifəsində çalışmaqla yanaşı partiya təşkilat katibi olmuşdur.

Zeynal Mustafa oğlu Əhmədov 2000-ci ilin oktyabr ayında vəfat etmişdir.

## Rəcəb Qədir oğlu Əzizov



Rəcəb Qədir oğlu 1929-cu ildə Şəki rayonunun Baş Layısqı kəndində anadan olmuşdur.

Orta məktəbi uğurla başa vurduqdan sonra, Şəki Müəllimlər İnstitutuna daxil olmuş və 1948-ci ildə bu təhsil ocağını müvəffəqiyyətlə bitirmişdir.

Rəcəb Qədir oğlu 1948-ci ildən Baş Layısqı kənd orta məktəbində müəllim kimi fəaliyyətə başlamışdır.

1950-1953-cü illərdə hərbi xidmətdə olan Qədir müəllim ordu sıralarından tərxis edildikdən sonra yenidən doğma kəndə qayıtmış və sevimli müəllimlik sənətini təqaüdə çıxana qədər davam etdirmişdir.

Rəcəb Qədir oğlu Əzizov Baş Layısqı kəndində yaşayır və hazırda fərdi təqaüdçüdür.





## Hasil Camal oğlu Ramazanov



Hasil Camal oğlu 1937-ci il noyabrn 1-də Baş Layısqı kəndində anadan olmuşdur. Böyük vətən müharibəsi ilə əlaqədar 1-ci sinfə xeyli gec - 11 yaşında daxil olmuş, 1958-ci ildə orta məktəbi müvəffəqiyyətlə bitirmişdir. Ordu sıralarında 1958-1961-ci illərdə xidmət edən Hasil Camal oğlu tərxis olunduqdan sonra Bakıya qayıtmış, 1962-ci ildə "Qazan Mexaniki" zavodunda əvvəlcə qaynaqçı, sonra isə tokar peşəsində çalışmışdır. Böyük qardaşı Ramazan müəllimin maarifə, tədrisə olan sevgisi Hasil Camal oğluna da sirayət etmişdir. O zavodda öz çalışqanlığı ilə nüfuz qazansa da, 1965-ci ildə sənədlərini M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun rus dili və ədəbiyyatı fakültəsinə verərək bu ali təhsil ocağına daxil olmuşdur. İnstitutu bitirdikdən sonra doğma kəndə qayıtmış, 1970-ci ildən 1996-ilə kimi Baş Layısqı orta məktəbində rus dilini və ədəbiyyatını tədris etmişdir.

Hasil Camal oğlu Ramazanov 1996-cı ildən fərdi təqaüdə çıxmış, hazırda Baş Layısqı kəndində yaşayır.

## Kamal Qoca oğlu Salahov



Kamal Qoca oğlu Salahov 29 iyun 1934-cü ildə Şəki rayonunun Baş Layısqı kəndində halallığı və zəhmətsevərliyi ilə tanınan və rəğbət bəslənən bir kəndli ailəsində anadan olmuşdur. O, 1945-ci ildə - 11 yaşında Baş Layısqı kənd orta məktəbinin birinci sinfinə daxil olsa da ictimai sahədə fəallığı ilə diqqəti cəlb etmiş, əvvəlcə məktəbdə şagird təşkilatını sədri, daha sonra isə məktəb komsomol təşkilatının katibi seçilmişdir.

Kamal Qoca oğlu 1955-ci ildə orta məktəbi bitirdikdən sonra ordu sıralarına yollanmış, orada da alay gənclər təşkilatına katib seçilmişdir. Ordudan 1958-ci ildə tərxis edildikdən sonra vətənə qayıtmış, Şəki Toxuculuq Texnikumuna daxil olmuşdur. K.Q.Salahov 1961-ci ildə texnikumun texnik-mexanik ixtisasını bitirdikdən sonra təyinatla Şəki İpək Kombinatına göndərilmişdir. Kamal Qoca oğlu 1964-cü ildə Şəkidə bir illik rus dili müəllimi hazırlayan kursu bitirərək Şin kənd səkkizillik məktəbinə rus dili müəllimi təyin edilmişdir. Gənclərdə rus dilinə maraq oyadan, onu təbliğ edən Kamal müəllim özü də təhsilini davam etdirmək fikrinə düşmüş, 1969-cu ildə M.F.Axundov adına Xarici Dillər İnstitutunun rus dili fakültəsinə daxil olmuş, bu ali təhsil ocağını 1974-cü ildə bitirmişdir. Kamal müəllim 1971-ci ildən təqaüdə çıxana qədər Baş Layısqı kənd orta məktəbdə rus dilini tədris etmiş, kənd əhalisi içərisində böyük nüfuz qazanmışdır.

Kamal Qoca oğlu Salahov indi də doğma kəndinin ictimai işlərində, mədəni-kütləvi tədbirlərində fəal iştirak edir, müəllim, ziyalı, kənd ağsaqqalı kimi gənclərə vətənpərvərlik ruhu aşılayır.



QƏDIM OĞUZ YURDU – BAŞ LAYISQI

## Məlahət Ənvər qızı Qurbanova



Məlahət Ənvər qızı 1949-cu il fevral ayının 15-də Baş Layısqı kəndində anadan olmuş, 1956-cı ildə kənd məktəbinin 1-ci sinfinə daxil olmuşdur. O 1963-cü ildə 7-ci sinifi bitirərək Şəki Pedaqoji Məktəbinə daxil olmuş, 1969-cu ildə həmin məktəbi bitirmişdir. Məlahət xanım 1969-cu ildən Baş Layısqı kənd orta məktəbində sinif müəlliməsi kimi fəaliyyətə başlamışdır. Onun yetirmələri arasında xalqımıza və dövlətimizə layaqətlə xidmət edən çoxsaylı müəllimlər, həkimlər, hüquqşünaslar, mühəndislər, ictimai və dövlət xadimləri vardır.

Məlahət Ənvər qızı Qurbanova 1997-ci ildən təqaüdə çıxmış, hazirda Baş Layısqı kəndində yaşayır.

## Məmmədemin Yaqub oğlu Bəkirov



Fizika-riyaziyyat elmləri doktoru, professor Məmmədemin Bəkirov 1925-ci ildə Baş Layısqı kəndində anadan olmuş, ilk təhsilini burada aldıqdan sonra ikiillik müəllimlər institutunda oxumuş, 1951-ci ildə ADU-nun fizika-riyaziyyat fakültəsini bitirmişdir. Ali məktəbi qurtadıqdan sonra Sovet ordusu sıralarına çağırmış və Leninqrad Hərbi Dəniz Akademiyasında dinləyici olmuş, sonra Qara dəniz hərbi donanmasında qulluq etmişdir. M.Bəkirov elmi fəaliyyətə 1956-cı ildə Azərbaycan SSR EA Fizika İnstitutunda başlamışdır. Bu institutda o, kiçik elmi işçi vəzifəsindən laboratoriya rəhbəri vəzifəsinədək yüksəlmişdir.

M.Bəkirov öz tədqiqatlarını əsasən yarımkeçiricilər fizikası sahəsində aparmış, sanballı monoqrafiyaları və məqalələri ilə ölkəmizdə və xaricdə tanınmışdır. Alim böyük elmi və təcrübi əhəmiyyəti olan yarımkeçiricilərdə fotoeffekt hadisələrinin ilk tədqiqatçılarından biridir. Bu tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, müasir yarımkeçirici fotoelementlər vasitəsilə günəş enerjisini elektrik enerjisinə çevirib geniş miqyasda istifadə etmək olar. Bu məqsədlə alim 1960-cı ildə selen yarımkeçiricisindən ilk dəfə günəş batareyası düzəldib radioqəbuledicini səsləndirmişdir. İndi onun rəhbərlik etdiyi laboratoriyada eşitmə qurğusunu, stolüstü hesablayıcı maşını, tranzistor qəbuledicini və polimer elektrolitli elektroliz qurğusunu qidalandırmaq üçün müxtəlif məqsədli günəş batareyaları vardır.

B.Bəkirov 1971-ci ildən «Fotoelektrik çeviriciləri» laboratoriyasının rəhbəri olmuşdur. Laboratoriyanın elmi istiqaməti yarımkeçiricilərdə fotoeffektin kompleks tədqiqidir. Alınmış nəticələr alimin qiymətli monoqrafiyalarında toplanmışdır.

M.Bəkirov fizika-riyaziyyat üzrə namizədlik elmi dərəcəsini 1976-cı,





doktorluq elmi dərəcəsini isə 1981-ci ildə almışdır. Professor günəş enerjisini fotoelektrik üsulu ilə elektrik enerjisinə çevrilməsi prosesini araşdırmaqla yanaşı, günəş enerjisinin toplanması problemi üzərində çalışmışdır. Alimin apardığı tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, günəş batareyasının verdiyi elektrik cərəyanı vasitəsilə suyu elektroliz üsulu ilə parçalayıb hidrogen almaqla problem müsbət həll edilir. Bunu təcrübədə isbat etmək məqsədilə o, ilk dəfə olaraq fotoelektrik hidrogen qurğusu yaratmışdır. Günəşli günlərdə qurğu hidrogen verir, gün olmadıqda isə hidrogen işlədib elektrik enerjisi alır.

Professor yarımkeçiricilər fizikası ilə yanaşı, fiziki amillərin kənd təsərrüfatına təsiri və onlardan bu sahədə istifadə edilməsi istiqamətində də dəyərli tədqiqat işləri aparmışdır. İstedadlı alim 200-dən çox məqalənin, 5 monoqrafiyanın, 70 müəlliflik şəhadənməsinin müəllifidir. Onun bəzi işləri SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin gümüş və bürünc medallarına layiq görülmüşdür.

M.Bəkirov Azərbaycan EA Şəki Zona Elmi Bazasının yaradılmasında yaxından iştirak etmişdir. Hazırda alimin yetişdirmələri elmin müxtəlif sahələrində həvəslə çalışırlar. Professor 8 il Azərbaycan EA radiasiya tədqiqatları bölməsinə rəhbərlik etmişdir. Uzun illər «Yarımkeçiricilər fizikası və günəş enerjisindən istifadə» problem Elmi Şuralarının üzvüdür. Alim ömrünün son illərində amorf yarımkeçiricilər əsasında ucuz fotoelektrik çeviriciləri hazırlamaq üçün fundamental iş üzərində elmi yaradıcılığını davam etdirmişdir.

M.Y.Bəkirov 1992-ci ildən Rusiyada yaşamış, 28 dekabr 2006-cı ildə vəfat etmişdir.

## Nəsir Əli oğlu İsrafilov



Nəsir İsrafilov 1936-cı ildə anadan olmuşdur. 1953-cü ildə Baş Layısqı kənd orta məktəbini bitirmiş və Azərbaycan kənd Təsərrüfatı İnstitutuna daxil olmuşdur. 1958-ci ildə ali məktəbi fərqlənmə diplomu ilə bitirən N.İsrafilov Elmi Şuranın qərarı ilə aspiranturada saxlanmış, elmi işini Minsk şəhərində akademik Metsepuranın rəhbərliyi ilə tamamlamışdır. 1967-ci ildə N.İsrafilov həmin işi namizədlik dissertasiyası kimi müdafiə etmiş və texnika elmləri namizədi alimlik dərəcəsi almışdır.

Üzərində işlədiyi sahə ilə bağlı tədqiqatlarını davam etdirmiş və 1987-ci ildə doktorluq dissertasiyası müdafiə edib texnika elmləri doktoru alimlik dərəcəsi almışdır. 1988-ci ildə professor adına layiq görülmüşdür.

N.İsrafilov 1964-1970-ci illərdə Elmi-Tədqiqat Mexanizasiya İnstitutunda işləmişdir. 1970-ci ildən ömrünün sonuna qədər Azərbaycan Politexnik İnstitutunda (sonra İnşaat Mühəndisləri Universitetində) dekan, kafedra müdiri vəzifələrində çalışmışdır. Axırıncı iş yeri «Yol tikintisi maşınları» kafedrası olmuş və müdir vəzifəsini daşımışdır. Nəsir müəllim 1999-cu ildə vəfat etmişdir.





## Məmməd Yusuf oğlu Qəniyev



Məmməd Yusif oğlu 1925-ci ildə anadan olmuşdur. Baş Layısqı kəndində təhsil almış, onuncu sinifdə oxuyarkən 1943-cü ilin fevralında hərbi xidmətə getmiş, təhsilini 1946-cı ildə tamamlamışdır.

1943-cü ilin oktyabrında ikinci Ukrayna cəbhəsində döyüşdə ağır yaralanmış, dörd aylıq müalicədən sonra Zaqafqaziya cəbhəsi komandanlığının sərəncamında olmuş, döyüş əhəmiyyətli yüklərin mühafizə və cəbhə xəttinə çatdırılmasında fəaliyyət göstərmişdir. Zaqafqaziya cəbhəsi komandanlığının göndərişi ilə 1944-cü ildə Azərbaycan neft sənayesi mühafizə dəstəsində işləmiş, 1945-ci ildə ordudan təxris olunaraq kəndə qayıtmışdır.

M.Y.Qəniyev 1946-cı ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin fəlsəfə şöbəsinə daxil olmuş, 1948-ci ildən isə M.V.Lomonosov adına MDU-nun fəlsəfə fakültəsində təhsilini davam etdirmişdir. 1951-ci ildə universiteti bitirdikdən sonra fəlsəfə fakültəsinin Elmi Şurasının qərarı ilə «Dialektik və tarixi materializm» kafedrasında aspiranturaya saxlanmışdır. 1955-ci ildə MDU-nun fəlsəfə və hüquq fakültələrinin birləşmiş Elmi Şurasında dissertasiya müdafiə edərək fəlsəfə elmlər namizədi alimlik dərəcəsi almışdır.

1952-1955-ci illərdə aspiranturada oxumaqla yanaşı, mexanika-riyaziyyat və geologiya fakültələrində, Moskva şəhər Partiya Komitəsi, Krasnıy Proletar, Krasnopresni partiya komitələri nəzdində gecə marksizm-leninizm universitetlərində müəllimlik etmiş, Moskva şəhər və Krasnopresni rayon partiya komitələrinin təbliğatçısı olmuşdur.

1955-ci ildən indiyədək respublikanın bir çox ali məktəblərində – Azərbaycan Dövlət Universitetində, Xalq Təsərrüfatı İnstitutunda, Pedaqoji institutlarda, Neft-Kimya və Sənaye institutlarında müəllimlik etmiş, Azərbaycan Dövlət Xarici Dillər İnstitutunda «Marksizm-leninizm fəlsəfəsi»

kafedrasının, Respublika Həkimləri Təkmilləşdirmə İnstitutu «Fəlsəfə» kafedrasının, BDU-nun Şəki filialının «Humanitar elmlər» kafedrasının müdiri olmuşdur.

M.Y.Qəniyev 1961-ci ildən dosent, 1999-cu ildən Beynəlxalq Türk Akademiyasının akademikidir. Elmi-pedaqoji fəaliyyəti dövründə respublika daxilində və ondan kənarlarda keçirilən bir sıra forum, simpozium, konfrans, elmi seminar və sessiyaların təşkilində bilavasitə təşəbbüs göstərmiş, 50-dən artıq müxtəlif elmi-siyasi, fəlsəfi, sosioloji və digər problemlərə həsr edilmiş aktual mövzularda məruzələr etmişdir. O cümlədən Moskva, Leninqrad, Sverdlovsk, Alma-Ata, Frunze (Bişkek), Minsk, Murmansk, Tambov, Tbilisi şəhərlərində elmi mövzuda çıxışlar etmişdir. Onun elmi fəaliyyəti əsasən fəlsəfi və mənəvi tərbiyə ilə bağlı məsələlərə, iqtisadiyyat və siyasət, siyasət və milli münasibətlər, müasir dövrdə milli-azadlıq problemlərinə həsr edilmişdir. 71 çap vərəqi həcmində elmi-tədqiqat işləri kitab və kitabçalar, məqalələr, elmi tezislər formasında rus və Azərbaycan dillərində nəşr edilmişdir.

Bütün əmək fəaliyyəti dövründə ali məktəb sistemində partiya və digər ictimai təşkilatlara rəhbərlik etmişdir. İyirmi ilə yaxın Azərbaycan KP MK-nın mühafizəçisi olmuşdur. «Bakı şəhər Müharibə Veteranları Şurası» təftiş komissiyasının sədri, Respublika Müharibə Veteranları Komitəsində təşkilat-metodiki komissiyanın işini aparmışdır.

M.Y.Qəniyev «Birinci dərəcəli Vətən müharibəsi» ordeni, «İgidliyə görə», «Qafqazın müdafiəsinə görə» və s. medallarla təltif edilmişdir. Respublikadakı ideoloji işdəki fəaliyyətinə görə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanına layiq görülmüşdür. Ali təhsil sistemində xidmətlərinə görə Ali və Orta İxtisas Təhsili Nazirliyi kollegiyasının qərarı ilə «İşdə əla müvəffəqiyyətlərinə görə» döş nişanı, Müharibə və əmək veteranları Ümumittfaq Şurasının qərarına əsasən fəxri döş nişanı ilə də təltif edilmişdir.

Məmməd Yusif oğlu Qəniyev 1946-cı ildən ömrünün sonunadək öz pedaqoji fəaliyyətini Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında davam etdirmiş, 2004-cü il iyun ayının 5-də dünyasını dəyişmişdir.





## Fikrət Ramazan oğlu Xalıqov



Filologiya elmləri doktoru, professor Fikrət Ramazan oğlu Xalıqov 1949-cu ildə anadan olmuşdur. Baş Layısqı kəndindəki orta məktəbi bitirdikdən sonra (1966) M.F.Axundov adına APDİ-nin Avropa dilləri fakültəsində alman və Azərbaycan dilləri ixtisası üzrə ali təhsil almışdır (1966-1971). Təyinatla Qəbələ rayonun Mirzəbəyli kənd məktəbində ixtisası üzrə müəllim işləmişdir (1971-1973). Ailə vəziyyəti ilə bağlı Ağdam şəhərinə köçmüş və orada Maarif işçiləri evində müavin vəzifəsində çalışmışdır (1974).

1975-ci ildən Bakı şəhərinə gələn Fikrət Xalıqov Azərbaycan Elmlər Akademiyasının "Xəzər" Elmi Mərkəzində tərcüməçi kimi fəaliyyətini davam etdirmişdir. Elmi-tədqiqat işinə olan maraq onu Nəsimi adına Dilçilik İnstitutuna aparmışdır. Bu institutda kiçik elmi işçi, elmi işçi, şöbə müdiri kimi müxtəlif vəzifələrdə çalışmış (1979-1992), müəssisənin ictimai həyatında fəal iştirak etmiş, institut həmkarlar komitəsinin sədri olmuşdur (1988-1990).

"Mil-Qarabağ düzü rayonlarının toponimiyası (Ağdam, Ağcabədi və Bərdə rayonlarının materialları əsasında)" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır (1984).

"Azərbaycan dilinin folklor onomastikası" movzusunda doktorluq dissertasiyasını uğurla müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsi almışdır (2004).

Elmi-tədqiqat işi ilə birgə elmi-pedaqoji sahədə də fəaliyyət göstərən Fikrət Xalıqov Azərbaycan Texniki Universitetində tələbələrə Azərbaycan dilini tədris etmiş, bu universitetdə müəllim, kafedranın dosenti kimi vəzifələrdə çalışmışdır (1989-2003).

Elmi-pedaqoji fəaliyyətini Azərbaycan Müəllimlər İnstitutunda davam etdirən Fikrət Xalıqov 2003-cü ildə Azərbaycan dili, ədəbiyyat və tədrisi

metodikası kafedrasının dosenti olmuş, 2007-ci ildən indiyə qədər həmin kafedranın müdiri seçilmişdir. 2011-ci ildə professor diplomu almışdır.

Fikrət Xalıqov ölkənin elmi və elmi-pedaqoji ictimaiyyətində hörmət və nüfuza malik alim və pedaqoqlardandır. Onun 2 cildlik "Folklor onomastikası" (I c. - 1997, II c. - 2000), "Azərbaycan onomalogiyası" (2010) monoqrafiyaları Azərbaycan foklorunun ad sisteminin, bütövlükdə Azərbaycan dilinin onomastik vahidlərinin öyrənilməsi baxımından maraq doğuran elmi yaradıcılıq işləridir. "Azərbaycan toponimlərinin ensiklopedik lüğəti"nin (2007) əsas müəlliflərindən biridir. Folklorda ad məsələlərinə həsr edilmiş 40-dan artıq elmi məqalənin, dilçiliyin digər sahələri ilə bağlı, eləcə də Azərbaycan-alman dil əlaqələrinə həsr edilmiş onlarla elmi araşdırmanın, elmi-metodik vəsaitin müəllifi, xeyli dərs vəsaitinin və monoqrafik tədqiqatların redaktoru və və ya rəyçisidir.

Bakı, Moskva, Ufa, Daşkənd, Gülüstan, Mahaçqala və s. şəhərlərdə dilçilik, dialektologiya, folklor məsələlərinə həsr edilmiş müxtəlif respublika və beynəlxalq səviyyəli simpozium və konfranslarda Fikrət Xalıqov Azərbaycan dilçilik elmini ləyaqətlə təmsil etmiş alimlərdəndir.

Fikrət Xalıqov respublikada yüksəkixtisaslı elmi kadrların hazırlanmasında da xidmət göstərir. Onun rəhbərliyi altında filologiya üzrə 3, pedaqoji elmlər üzrə və 4 doktorant tədqiqat işi aparır. Magistr işlərinə mütəmadi olaraq rəhbərlik edir.

2008-2010-cu illərdə AMEA-nın Folklor İnstitutunda, 2010-2013-cü illərdə Nəsimi adına Dilçilik İnstitutunda Dissertasiya Şuralarının üzvü olmuş, 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının filologiya elmləri üzrə ekspert şurasının üzvü təyin olunmuşdur.

Fikrət Xalıqov həssas, qayğıkeş pedaqoq və səriştəli maarif xadimi kimi ali məktəb pedagogikası sahəsində araşdırmalar aparır. Son 20 ildə Azərbaycan təhsilində özünü göstərən yeniləşmələrlə bağlı onun əməyi böyükdür. Azərbaycan Təhsil Strategiyasının müzakirəsində, yeni tədris texnologiyalarının tətbiqində, təhsilin ayrı-ayrı sahələri ilə bağlı (tələbə elmi cəmiyyətləri, kurikulum təhsili, innovasiyalar və s.) müzakirə və təqdimatlarda fəal iştirak edir.





## İlham Vəliyullah oğlu Əliyev



İlham Əliyev 24 mart 1951-ci ildə Şəki rayonunun Baş Layısqı kəndində anadan olmuşdur. 1968-ci ildə Baş Layısqı kənd orta məktəbini bitirmişdir. 1968-ci ildə H.Zərdabi adına Gəncə Pedaqoji İnstitutuna daxil olub, 1972-ci ildə institutu fərqlənmə diplomu ilə bitirmişdir. Təyinatla Şəki rayonuna göndərilmiş, Baş Layısqı və Aşağı Layısqı kənd 8 illik məktəbində riyaziyyat müəllimi işləmişdir. 1975-ci ildə V.İ.Lenin adına APİ-nin «Riyazi analiz» kafedrasında əyani aspiranturaya qəbul olunmuşdur. 1980-ci ildə «Bütün oxda ikinci tərtib diferensial-operator tənliklərin spektral nəzəriyyəsi və onun tətbiqləri» mövzusunda prof. S.Y.Yaqubovun rəhbərliyi altında Azərbaycan EA-nın Mexanika və Riyaziyyat İnstitutunda namizədlik dissertasiyası müdafiə etmişdir.

Müdafiədən sonra 1983-cü ilə qədər V.İ.Lenin adına APİ-nin «Riyazi analiz» kafedrasında baş laborant, sonra isə Azərbaycan Neft və Kimya institutunun Sumqayıt filialında (Hazırkı Azərbaycan Sənaye İnstitutu) müəllim işləmişdir.

1983-1987-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunun Sumqayıt filialında assisent, 1990-2000-ci illərdə Azərbaycan Sənaye İnstitutunun "Ali riyaziyyat" kafedrasında baş müəllim, dosent, 2001-2004-cü illərdə Sumqayıt Dövlət Universitetinin "Riyazi analiz və funksiyalar nəzəriyyəsi" kafedrasında dosent işləmişdir. 2004-2006-cı illərdə Azərbaycan Müəllimlər İnstitutunun "Riyaziyyat və onun tədrisi metodikası" kafedrasının müdiri vəzifəsində çalışmışdır. 2006-cı ildən AMEA RMİ-nin "Riyazi fizika tənlikləri" şöbəsində elmi işçi, 2012-ci ildə isə aparıcı elmi işçi vəzifəsində işləmişdir. 2012-ci ildə "Diferensial-operator tənliklərin bəzi spektral nəzəriyyəsi və onların tətbiqi" mövzusunda dissertasiya müdafiə edərək riyaziyyat üzrə elmlər doktoru elmi dərəcəsini almışdır. 2012-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Funksiyalar Nəzəriyyəsi" kafedrasında professor vəzifəsində işləyir. 50-dən çox elmi və metodiki işi çapdan çıxmışdır. Dünyanın müxtəlif jurnallarında elmi məqalələri dərc olunmuşdur.

## Səyyad Cabbar oğlu İbrahimov



Səyyad Cabbar oğlu İbrahimov 1936-cı ildə Şəki şəhərində tanınmış aqronom ailəsində dünyaya gəlib. Şəki şəhər 10 saylı orta məktəbi qızıl medalla bitirərək Sənaye İnstitutunun neft-mexanika fakültəsinə daxil olub. Bu ali təhsil ocağını 1959-cu ildə fərqlənmə diplomu ilə bitirən Səyyad Cabbar oğlunun təyinatını əfsanəvi Neft Daşlarına verirlər.

Səyyad Cabbar oğlu İbrahimov həmin iş yerində çalışdığı müddətdə təmirçi-çilingərlikdən baş mühəndis vəzifəsinədək çətin və şərəfli həyat yolu keçmişdir. 1991-ci ildə Xəzərdəniz Neft-Qaz İstehsalat Birliyində baş mühəndis vəzifəsinə, az sonra isə yeni yaradılmış "28 may" NQÇİ-nin rəisi təyin olunub.

Səyyad Cabbar oğlu bacarıqlı təşkilatçı, daim yeniliyə can atan mühəndis, işgüzar istehsalat rəhbəri olduğunu, insanlara diqqət və qayğı göstərdiyini yaddaqalan əməli, coşğun fəaliyyəti ilə daima təsdiqləmişdir.

Onun fədakar əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. "Şərəf nişanı" ordeninə, "Rəşadətli əməyə görə" medalına, "SSRİ Neft Sənayesi Əlaçısı" fəxri adına, Respublika Ali Sovetinin Fəxri Fərmanına, XTNS-nin gümüş medalına, S.Vavilov adına Qızıl medala, ən nəhayət Respublikanın əməkdar mühəndisi kimi yüksək ada layiq görülüb. Dəfələrlə Bakı və Respublika Ali Sovetinə deputatlığa namizəd göstərilib.

Səyyad Cabbar oğlu dünyanın bir sıra ölkələrində neft mütəxəssisi kimi yaxşı tanınır və qiymətləndirilir. Dünyanın bir neçə dövlətlərində - ABŞ, Yunanıstan, İndoneziya, BƏƏ, Bolqarıstan və digər ölkələrdə xidməti səfərlərdə olmuşdur. O, iki il "28 may" NQBŞ-nin rəisi , dörd ilə yaxın Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin 1-ci vitse–prezidenti vəzifəsində çalışmışdır.

Səyyad Cabbar oğlu İbrahimov hazirda prezident təqaüdçüsüdür.



QƏDIM OĞUZ YURDU – BAŞ LAYISQI

## Başarət Mustafa oğlu Paşayev



Paşayev Bəşarət Mustafa oğlu 12 may 1938-ci ildə Şəki rayonunun Baş Layısqı kəndində anadan olmuşdur. 1956-cı ildə kənddəki 1 saylı orta məktəbi, 1959-cu ildə isə Gəncə İnşaat Texnikumunu bitirmişdir. Təyinatla Balakən rayon Kommunal Təsərrüfatı İdarəsində inşaat texniki kimi əmək fəaliyyətinə başlamışdır. 1959-1968-ci illərdə Balakən rayonundakı müxtəlif tikinti təşkilatlarında inşaat texniki, tikinti ustası, iş icraçısı və baş mühəndis vəzifələrində çalışmışdır. İstehsalatdan ayrılmadan Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun qiyabi şöbəsində ali təhsil almış və 1978-ci ildə həmin institutun inşaat fakültəsini bitirmişdir. O, 1982-ci ildə Bakı Ali Partiya Məktəbinə daxil olmuş və oranı 1985-ci ildə bitirmişdir.

1968-ci ildən 2005-ci ilin mart ayına kimi Şəki Kolxozlararası Tikinti İdarəsinin rəisi, 7 saylı Aqrotikinti Trestinin müdiri, Şəki Şəhər Partiya Komitəsinin 2-ci katibi, Şəki Rayon Xalq Deputatları Sovetinin sədri, Şəki Ərzaq və Kənd Təsərrüfatı İdarəsinin rəisi, Taxılçılıq Sovxozunun direktoru, Şəki Sənaye-Tikinti Birliyinin baş direktoru, Şəki Şəhər İcra Hakimiyyəti başçısının aqrar məsələlər üzrə müavini vəzifələrində uğurla çalışmışdır.

Əmək fəaliyyəti dövründə təkcə Şəkidə deyil, eləcə də Balakən, Zaqatala, Qax, Oğuz, Qəbələ və digər rayonlarda tikilib istifadəyə verilmiş iri heyvandarlıq komplekslərində, sosial-mədəni obyektlərdə və istehsalat bazalarında sanballı və yaddaqalan izlər qoymuşdur.

Bəşarət Paşayevin dövlət və xalq qarşısındakı xidmətləri daim yüksək qiymətləndirilmişdir. O, bir çox fəxri fərmanlara, döş nişanlarına, medallara layiq görülmüş və iki dəfə – 1973 və 1982-ci illərdə «Qırmızı Əmək bayrağı» ordeni ilə təltif edilmişdir. O, dəfələrlə Şəki rayon və şəhər sovetlərinə deputat seçilmişdir. 2005-ci ilin mart ayından təqaüdə çıxmış və 2008-ci ilin iyun ayının 1-də vəfat etmişdir.

## Cabbar Məmmədəli oğlu İbrahimov



Cabbar Məmmədəli oğlu 1908-ci ildə Şəki rayon Baş Layısqı kəndində anadan olmuşdur. İbtidai və orta təhsilini doğma kəndində almışdır. O ,ali təhsil almaq məqsədilə 1927-ci ildə Lelinqrad şəhərinə getmiş, orada kənd təsərrüfatı institutunun aqronomluq fakültəsinə daxil olmuş, 1931-ci ildə inistitutu müvəffəqiyyətlə bitirmişdir. O, ali təhsilli aqronom kimi rayonun yaşıllaşdırılmasında, əkinçilik mədəniyyətinin yüksəldilməsində, torpağın aqrotexniki qaydada becərilməsində əvəzsiz xidmətlər göstərmiş bacarıqlı kənd təsərrüfatı işçisi idi.

İkinci dünya müharibəsinin fəal iştirakçısı olan Cabbar Məmmədəli oğlu Baş Layısqı kəndinin nüfuzlu ziyalılarından biri idi.

Cabbar Məmmədəli oğlu İbrahimov müharibədən sonra uzun müddət Şəki "Rayonlararası Qarantin İnspeksiyası"nın baş müfəttişi vəzifəsində çalışmış, zəhmətsevərliyi, müdrikliyi və xeyirxahlığı ilə rayon əhalisinin rəğbətini və sevgisini qazanmışdır. O, Dövlət Neft Şirkətinin birinci vitseprezidenti vəzifəsində səmərəli fəaliyyət göstərmiş Səyyad İbrahimovun atasıdır.

Cabbar Məmmədəli oğlu İbrahimov 1984-cü ildə vəfat etmişdir.





## İsmayıl Məmməd oğlu İsmayılov



İsmayıl İsmayılov 1947-ci ildə anadan olmuşdur. 1964-cü ildə Şəki şəhər 3 saylı orta məktəbi bitirmiş və həmin il N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. 1970-ci ildə həmin ali məktəbi fərqlənmə diplomu ilə bitirmişdir.

İ.İsmayılov 1972-ci ildən Azərbaycan Respublikası Kliniki Uroloji Xəstəxanasında çalışır. 1988-ci ildə akademik M.M.Cavadzadənin rəhbərliyi altında Kiyev Elmi-Tədqiqat Urologiya və Nefrologiya İnstitutunda «Uşaqlarda kisə-sidik axarı reflyuksu» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Dissertasiyada kisə-sidik axarı reflyuksu zamanı rentgenradioloji metodların diaqnostik imkanları aşkara çıxarılmış, böyrək və sidik yollarının anatomo-funksional dəyişiklərinin diaqnostik və proqnostik əhəmiyyəti dəqiləşdirilmiş, habelə müxtəlif müalicə metodlarının nəticələrinə təsir edən faktorlar müəyyən edilmişdir.

O, Zaqafqaziya respublikaları uroloqlarının I konfransında (Suxumi, 1977), Estoniya, Litva və Latviya uroloqlarının III konfransında (Tallin, 1982) və s. elmi məruzələrlə çıxış etmişdir.

İ.İsmayılovun «Uroloji xəstəliklərin farmakoterapiyası» (Bakı, 1983, 219 s.) adlı monoqrafiyası və 20-yə yaxın məqaləsi çap olunub.

İsmayıl İsmayılov hazırda respublika uroloji xəstəxanası həmkarlar ittifaqı komitəsinin sədridir.

## Abdulla Əhməd oğlu Yusifli



Abdulla Əhməd oğlu 9 aprel 1962-ci ildə Şəki rayonunun Baş Layısqı kəndində anadan olmuşdur. 1979-cu ildə Baş Layısqı kənd orta məktəbini bitirmiş, 1980-1982-ci illərdə Uzaq Şərqdə ordu sıralarında xidmət etmişdir. 1983-cü ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuş, bu ali təhsil ocağını 1988-ci ildə uğurla bitirmişdir.

A.Ə.Yusifli 1988-ci ilin avqust ayından prokurorluq orqanlarında çalışır. Azərbaycan Respublikasının Nəqliyyat Prokurorluğunda stajyor (1988-1989), Gəncə Nəqliyyat prokurorunun köməkçisi (1989-1993), Gəncə Nəqliyyat prokurorunun müavini (1993-1994), Zaqatala rayon prokurorunun köməkçisi (1994-2000), Zaqatala rayon prokurorunun müavini (2000), Zaqatala rayon prokuroru (2000-2004), Baş Prokurorluğun təşkilat-analitik idarəsinin prokuroru (2004), Baş Prokurorluğun DİO istintaq, təhqiqat, əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini (2004-2005), Baş Prokurorluğun Dövlət İttihamının müdafiəsi üzrə idarənin rəis müavini (2005-2010) vəzifələrində çalışmış, 2010-cu ildən indiyədək Bakı şəhər prokurorluğu dövlət ittihamının müdafiəsi üzrə şöbənin rəisidir.

Abdulla Əhməd oğlu prokurorluq sahəsində səmərəli fəaliyyətinə və prinsipial mövqeyinə görə dəfələrlə mükafatlandırılmış, ona növbədənkənar rütbələr verilmişdir. A.Yusifli hazırda baş ədliyyə müşaviridir.

Abdulla Yusifli Azərbaycan Respublikası Ədliyyə Nazirliyi nəzdində fəaliyyət göstərən "Məhkumların islah edilməsində və Penitensiar müəssisələrin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsində ictimaiyyətin iştirakını təmin edən ictimai komitəni formalaşdıran" seçki komissiyasının, Məhkəmə-Hüquq şurası yanında hakimlərin və dövlət ittihamçılarının, o cümlədən hakimliyə namizədlərin tədrisi sektorunun üzvüdür.

Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin sərəncamı ilə Abdulla Əhməd oğlu Yusifli "Dövlət qulluğunda fərqlənməyə görə" (2011) medalı və Azərbaycan Respublikasının Baş Prokurorunun əmri ilə "Prokurorluğun fəxri işçisi" (2012) döş nişanı ilə təltif edilmişdir.





## Vəli Vəlilullah oğlu İsrafilov



Vəli İsrafilov 1962-ci ildə anadan olmuşdur. 1979-cu ildə Baş Layısqı kənd orta məktəbini bitirmiş, 1982-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olmuşdur. Təhsil illərində yüksək göstəricilər əldə etmiş, Lenin təqaüdü alaraq tələbələr arasında seçilmiş, 1987-ci ildə institutu fərqlənmə diplomu ilə qurtarmışdır. Elə həmin il institutun Elmi Şurasının qərarı ilə Azərbaycan EA Kibernetika İnstitutunun aspiranturasına göndərilmiş, 1992-ci ildə «İqtisadi-riyazi modelləşdirmə» mövzusunda namizədlik dissertasiyası müdafiə edib iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

Vəli İsrafilov namizədlik dissertasiyası müdafiə etdikdən sonra Nərimanov rayon İcra Hakimiyyətində işləmiş, 1998-ci ildən Bədən Tərbiyəsi və İdman Akademiyasının Humanitar elmlər kafedrasına keçmişdir. Eyni zamanda o, 1996-1999-cu illərdə Azərbaycan Kooperasiya Universitetində siyasi iqtisaddan mühazirələr aparmışdır.

V.İsrafilov Əfqanıstan müharibəsi iştirakçısıdır, 2 medalla təltif edilmişdir. Hazırda Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasının dosentidir.

## Mehman Əhməd oğlu Yusifli



Mehman Əhməd oğlu 1971-ci ilin iyul ayının 19-da Şəki rayonu Baş Layısqı kəndində anadan olmuşdur.

1988-ci ildə Şəki rayonu Baş Layısqı kənd orta məktəbini bitirmiş, 1989-1993-cü illərdə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasında təhsil almış, aqronom ixtisasına yiyələnmişdir.

1994-cü ildə Şəki rayonu «Fəhlə-Kəndli birliyi» kolxozunda aqronom müavini kimi əmək fəaliyyətinə başlamış, 2000-2008-ci illərdə Şəki Şəhər İcra Hakimiyyəti başçısının Baş Layısqı icra nümayəndəliyi vəzifəsində işləyərkən kəndin abadlaşdırılması, yaşıllaşdırılması istiqamətində fəallıq göstərmiş, zəruri sosial problemlərin köklü həllinə çalışmış, zəhmətkeş əhalinin hörmət və rəğbətini qazanmışdır.

Mehman Əhməd oğlu 2008-2009-cu illərdə Azərbaycan Respublikası DƏDRX-nin Şəki ərazi idarəsinin rəisi vəzifəsində çalışmışdır.

O, hal-hazırda Əmlak Məsələləri dövlət komitəsi yanında DƏDRX 12 saylı idarəsinin rəis müavinidir.

Mehman Əhməd oğlu kənd təsərrüfatı sahəsi ilə ciddi məşğul olarkən elmi araşdırmalar aparmış, dissertasiya müdafiə edərək elmi dərəcə almışdır. O, kənd təsərrüfatı elmləri üzrə fəlsəfə doktorudur.





## Novruz Kamal oğlu Bəkirov



Novruz Kamal oğlu 1963-cü il mart ayının 21-də Şəki rayonunun Baş Layısqı kəndində dünyaya göz açmış, 1970-1980-ci illərdə kənd orta məktəbini müvəffəqiyyətlə bitirmişdir. 1981-ci ilin may ayında həqiqi hərbi xidmətə çağrılmış, orduya olan sevgisi onu həmişəlik bu çətin və şərəfli sahəyə bağlamışdır. O, 1982-ci ilin avqust ayında Moskva vilayətində yerləşən Voljiski Hərbi İnşaat Mühəndisləri məktəbinə daxil olmuş və 1985-ci il iyun ayının 28-də həmin məktəbi bitirərək "leytenant" rütbəsi almış və hərbi xidmətini Türküstan Hərbi Dairəsində davam etdirmişdir.

Novruz Kamal oğlu 1988-1992-ci illərdə Simferopol Hərbi-Siyasi Məktəbində təhsilini qiyabi davam etdirmiş, Özbəkistan Silahlı Qüvvələrinin tərkibində (1993-1995) xidmət göstərmişdir. O, 1996-cı ildən Azərbaycana qayıdaraq Milli Ordumuzun tərkibində xidmət edir. Mayor Novruz Kamal oğlu N saylı hərbi hissə komandirinin maddi-texniki təminat üzrə müavini (1996-1997), C.Naxçıvanski adına Hərbi Litseydə psixoloq (1997), şəxsi heyətlə iş üzrə bölmənin "Hərbi-ideoloji və mənəvi-psixoloji hazırlıq üzrə baş təlimatçı" (1997-1999), N saylı hərbi hissə komandirinin tərbiyəvi işlər üzrə müavini (1999-2003) vəzifələrində xidmət etmişdir. Müxtəlif illərdə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Tərbiyəvi işlər şöbəsinin baş təlimatçısı – şöbə rəisinin müavini", N saylı hərbi hissə komandirinin tərbiyəvi işlər üzrə müavini, H.Əliyev adına Ali Hərbi məktəbdə kursant taboru komandirinin tərbiyəvi işlər üzrə müavini vəzifələrində xidmət etmişdir. 2008-ci ilin dekabr ayından NATO – Sülh naminə əməkdaşlıq kafedrasının müəllimi vəzifəsində xidmətini davam etdirir.

Novruz Kamal oğlu "Dahi sərkərdələr və dahi şəxsiyyətlər", "Politologiya və beynəlxalq münasibətlər" adlı dərsliklərin, metodik vəsaitlərin və elmi məqalələrin müəllifidir. Hərbi xidməti dövründə çoxsaylı medallarla təltif edilmişdir.

Novruz Kamal oğlu Bəkirov 1998-ci ilin iyul ayından "polkovnik-leytenant" hərbi rütbəsi daşıyır.

## Faiq Vəlhəm oğlu Əliyev



Faiq Vəlhəm oğlu 1977-ci il may ayının 12-də Şəkinin Baş Layısqı kəndində, ziyalı ailəsində dünyaya göz açmışdır. 1984-cü ildə Baş Layısqı kənd orta məktəbinə getmiş, 1994-cü ildə məktəbi əla qiymətlərlə başa vurmuşdur. Həmin ildə sənədlərini Azərbaycan Tibb Universitetinə təqdim etmiş, qəbul imtahanlarını müvəffəqiyyətlə verərək universitetin "II müalicə proflaktika " fakültəsinə qəbul olmuşdur. Əmək fəaliyyətinə çox erkən, hələ universitetin II kursunda oxuyarkən, təcili tibbi yardım stansiyasında sanitar işçi kimi başlamışdır.

2000-ci ildə universiteti fərqlənmə diplomu ilə başa vuraraq həkim-cərrah ixtisasına yiyələnmişdir. 2000-2001-ci illərdə Bakı şəhəri M.Nağıyev adına Təcili Tibbi Yardım Xəstəxanasında həkim-cərrah kimi internatura keçmişdir. 2001-2003-cü illər ərzində Şəki rayon 2 saylı poliklinikasında və "sanitar tibbi hissədə" həkim-cərrah kimi çalışmışdır.

2003-cü ildə müsabiqədən müvəffəqiyyətlə keçərək Azərbaycan Tibb Universitetinin "II Cərrah xəstəlikləri" kafedrasında cərah ixtisası üzrə əyani aspiranturaya qəbul olunmuşdur. Həmin ildən etibarən akademik Böyükkişi Ağayevin rəhbərliyi altında yoğun bağırsağın cərrahi xəstəliklərinin öyrənilməsi istiqamətində elmi-tədqiqat işlərinə başlamışdır. 2006-cı ildə tədqiqat işlərini uğurla başa çatdıraraq "Xroniki kolostazların cərrahi müalicəsinin nəticələrinin yaxşılaşdırılmasının kompleks üsulları" mövzusunda dissertasiya işi müdafiə edərək, tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. Hazırda M.A.Topçubaşov adına Elmi-Cərrahiyyə Mərkəzinin Koloproktologiya şöbəsində həkim-cərrah və elmi işçi vəzifəsində çalışır. M.A.Topçubaşov adına ECM Elmi Şurasının 23 noyabr 2009-cu il tarixli qərarı ilə "Abdominal cərrahiyyədə postoperasion birləşmələr problemi" adlı doktorluq mövzusu üzərində elmi araşdırmalar aparır. 14 beynəlxalq konfransda iştirak etmiş, 2 kitabın, 3 metodik tövsiyənin, 12 səmərələşdirici təklifin, 1 ixtiranın, 20-dən çox tezis və məqalənin müəllifidir. 2011-2012-ci illərdə Almaniyanın Yena Universiteti klinikasında həkim-cərrah kimi təkmilləşdirmə kursu keçmişdir.





## Elman Mövlud oğlu Əzizov



Elman Mövlud oğlu 1962-ci ildə anadan olmuşdur. Şəkinin Baş Layısqı kəndində 1980-ci ildə orta məktəbi bitirmişdir. Görkəmli Azərbaycan aşığı Molla Cümənin qızı Reyhan xanımın nəvəsidir. Beşiyi saz və sözlə yırğalanıb. 1981-1983-cü illərdə ordu sıralarında hərbi xidmətdə olub. İki il kolxozda çalışıb.

Ulu babasının şagirdlərinin və davamçılarının evlərində tez-tez qonaq düşməsi, sazda çalıb oxuması, dastanlar söyləməsi onda aşıq sənətinə sonsuz maraq oyadıb. Daha çox nənəsi Reyhan xanımın söhbətləri zamanı xalq yaradıcılığının sehrinə düşən Elman folklorun, ozan, aşıq sənətinin sirlərini öyrənməyi qarşısına məqsəd qoyub. Bu amal və istək onu ali təhsil almaq üçün ciddi hazırlaşmağa vadar edib. 1985-1991-ci illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsində oxumuşdur. Bir sıra çətinliklərlə rastlaşan E.Əzizov əyani aspiranturaya girməkdən imtina edib və Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda dissertantlığa qəbul olunub. O, «Molla Cümənin yaradıcılığı» mövzusunda tədqiqatını tamamlamaq üzrədir.

E.Əzizov Azərbaycan folklorunun toplanması, nəşri və araşdırılması ilə müntəzəm məşğul olur. Şəki və ətraf rayonların kəndlərində fərdi ekspedisiyalar təşkil edib birbaşa informatorların dilindən onlarca bayatı, lətifə, atalar sözü və s. qeydə alıb. Onun fəaliyyətinin bir istiqaməti də arxivlərdə yatıb qalan materialları saf-çürük etməkdir. «Azərbaycan folkloru antologiyası»nın «Şəki folkloru» cildinin çapında onun da əməyi var.

Gənc folklorçunun aşıq yaradıcılığına həsr olunan məqalələri respublika elmi ictimaiyyətinin diqqətini cəlb etmişdir. Daha çox Molla Cümənin sənət dünyasına nüfuz edib poetik irsinin görünməyən tərəflərini göstərməyə çalışan E.Əzizov son illərdə böyük sənətkarın müəyyən səbəblərdən itirilmiş və oğurlanmış əsərlərinin taleyi ilə maraqlanır. Dağıstanda yaşayan Aşıq Soltanın şeirlər toplusunda Molla Cümənin əsərlərini aşkarlaması ədalətin bərpasına xidmət edirdi. Onun axtarışları nəticəsində AMEA Memarlıq və İncəsənət İnstitutunun arxivindən Molla Cüməyə məxsus bir neçə dastanın tapılması və çap etdirilməsini ədəbi hadisə adlandırmaq olar.

Elman Mövlud oğlunun elmi məqalələrinə BDU-nun «Dil və ədəbiyyat» məcmuəsində, «Ərən», «Rezonans», «Gülüstan», «Azərbaycan», «Dərbənd» və başqa mətbuat orqanlarında rast gəlmək mümkündür.

## Mübariz Həsən oğlu Məmmədrzayev



Mübariz Həsən oğlu 1959-cu ildə Şəki rayonunun Baş Layısqı ərazi nümayəndəliyinin Cunud kəndində anadan olmuşdur. Kənddə orta məktəbi bitirdikdən sonra Bakı Mədəni-Maarif Texnikumunda və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil almışdır.

Mübariz Həsən oğlu ədəbi yaradıcılığa tələbəlik illərindən başlamış, "Taleyin sərt oyunu" adlı povesti geniş oxucu auditoriyasının rəğbətini qazanmışdır. O, iki monoqrafiyanın, 50-dək ədəbi-tənqidi, publisistik məqalənin müəllifidir. Polemik yazılarında məntiqli düşüncələri və obyektiv mövqeyi ilə seçilir. "Üzbəüz" ictimai-siyasi və hüquq qəzetinin təsisçisi və baş redaktorudur.

Mübariz Həsən oğlu Məmmədrzayev Azərbaycan Jurnalistlər İttifaqının və Azərbaycan Mətbuat Şurasının üzvüdür.





## ƏDƏBİYYAT


1. **Azərbaycan Respublikası Dövlət Tarix Arxivi. Fond – 10, 24, 29, 43.**
2. **Əjdər Fərzəli. "Salam Layısqı dağları". Bakı, "Ozan", 2011, 188 s.**
3. **"Şəki" (Alim və ziyalılar). Bakı, "Bakı Universiteti" nəş., 2002, 582 s.**
4. **"Şəki qartalları". Bakı, "Hüquq ədəbiyyat" nəş., 1998, 428 s.**
5. **Vahid Hacıyev. "Tufanlardan keçən ömür". Bakı, "Ağrıdağ" nəş., 1999, 112 s.**
6. **Maşallah Məftun. "Cəsur döyüşçü". Bakı, "Hərbi nəşriyyat", 2000, 80 s.**
7. **AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu Elmi sesiyasının tezisləri. Bakı, Elm, 2002**

## MÜNDƏRİCAT


Layiqsən sevgiyə, sözə Layısqı (Asif Rüstəmli) ....................3
«Layısqı» sözünün etimologiyası (Əjdər Fərzəli) ....................13
Baş Layısqı kəndinin tarixindən (Nəsib Muxtarov) ....................26
Baş Layısqı kəndindən tapılmış tunc əşyaların tədqiqinə dair (A.Qarəhmədova, M.Rəhimova) ....................29
Baş Layısqının dünəni və bu günü (Kamil Adışirinov) ....................32
Şeyx Nurullah Əfəndi ziyarətgahı (Məşədixanım Nemət) ....................48


### BAŞ LAYISQI XIX YÜZİLLİKDƏ


Layısqı – 1824 (kənd əhalisinin siyahısı. Rus dilində) ....................52
Layısqı – 1824 (kənd əhalisinin siyahısı. Faksimile. Rus dilində) ....................68
Layısqı – 1831 (kənd əhalisinin siyahısı. Rus dilində) ....................76
Layısqı – 1831 (kənd əhalisinin siyahısı. Faksimile. Rus dilində) ....................92
Layısqı – 1842 (kənd əhalisinin siyahısı. Rus dilində) ....................101
Layısqı – 1842 (kənd əhalisinin siyahısı. Faksimile. Rus dilində) ....................134
Baş Layısqı – 1863 (kənd əhalisinin siyahısı. Rus dilində) ....................163
Baş Layısqı – 1863 (kənd əhalisinin siyahısı. Faksimile. Rus dilində) 187
Baş Layısqı – 1873 (kənd əhalisinin siyahısı. Rus dilində) ....................218
Baş Layısqı – 1873 (kənd əhalisinin siyahısı. Faksimile. Rus dilində) 258
Baş Layısqı – 1886 (kənd əhalisinin siyahısı. Rus dilində) ....................302
Baş Layısqı – 1886 (kənd əhalisinin siyahısı. Faksimile. Rus dilində) 370

Baş Layısqı məktəbi (Kamil Adışirinov) ....................436
Böyük Vətən Müharibəsi iştirakçılarının siyahısı ....................439






### QARABAĞ ŞƏHİDLƏRİ


Bəhramın döyüş yolu (Bəhram Fərəc oğlu Aslanov) ....................448
Layısqının igid qızı (Aytən Abdulla qızı Abdullayeva) ....................449
Kəndimizdə bir şəhid var (Elman Şükür oğlu Verdiyev) ....................450
Çox yaşamaq şərt deyil (Sadəddin Hacı oğlu Qarayev) ....................451
Adına layiq oğul (Polad Hidayət oğlu Qaffarov) ....................452
Sinəsini sipər etdi (Nəzər Əhəd oğlu Əsədov) ....................453
Gözlərini əbədi yumdu (Elçin Hacı oğlu Əhmədov) ....................454
Qarabağda uyuyan igid (Elşən Məmməd oğlu İsmayılov) ....................455
Vətən sənə oğul dedi (Kamran Əsabəli oğlu İsmayılov) ....................457
Niyyətin hara... (Səyavuş Vidadi oğlu Kərimov) ....................458
Ruhun şad olsun (Əkrəm Mövlud oğlu Lətifov) ....................460
Geyib əsgər paltarını (Nazim Müzəffər oğlu Osmanov) ....................461
Kənddə bir igid vardı (Nail Nadir oğlu Səlimov) ....................462
Məşələ çevriləcək (Mehman Səməd oğlu Cəbiyev) ....................463
Ana oğul böyütdü (Məhərrəm Bəkir oğlu Cəbrayılov) ....................465
Evə qələbə ilə dönəcəyəm (Habil Camal oğlu Hüseynov) ....................466
Qarabağ savaşına yollanmışdı (Ramiz Məmmədiyyə oğlu Aydınov) ..467
Döyüşlərdə itkin düşdü (Mübariz Mövlud oğlu Osmanov) ....................467
Natiq subay idi (Natiq Hümmət oğlu Cəbiyev) ....................468
Füzuli taleyi (Füzuli Hümmət oğlu Şirinov) ....................468


### BAŞ LAYISQININ YETİRDİYİ GÖRKƏMLİ ZİYALILAR


Layısqlı Molla Cümə (Əjdər Fərzəli) ....................469
Layısqılı Aşıq Sirac (Əjdər Fərzəli) ....................480
Əhməd Salman oğlu Yusifli ....................490

Yamən Yaqub oğlu Bəkirov ....................492
Ələsgər Abdulla oğlu Əhmədov ....................493
Eldar Mustafa oğlu Əhmədov ....................494
Musa İsa oğlu Mikayılov ....................495
Ramazan Camal oğlu Ramazanov ....................496
Zaməddin Sadəddin oğlu Cumayev ....................497
Zəkəriyyə Qədir oğlu Əzizov ....................498
Zeynal Mustafa oğlu Əhmədov ....................499
Rəcəb Qədir oğlu Əzizov ....................500
Hasil Camal oğlu Ramazanov ....................501
Kamal Qoca oğlu Salahov ....................502
Məlahət Ənvər qızı Qurbanova ....................503
Məmmədemin Yaqub oğlu Bəkirov ....................504
Nəsir Əli oğlu İsrafilov ....................506
Məmməd Yusuf oğlu Qəniyev ....................507
Fikrət Ramazan oğlu Xalıqov ....................509
İlham Vəliyullah oğlu Əliyev ....................511
Səyyad Cabbar oğlu İbrahimov ....................512
Bəşarət Mustafa oğlu Paşayev ....................513
Cabbar Məmmədəli oğlu İbrahimov ....................514
İsmayıl Məmməd oğlu İsmayılov ....................515
Abdulla Əhməd oğlu Yusifli ....................516
Vəli Vəlilullah oğlu İsrafilov ....................517
Mehman Əhməd oğlu Yusifli ....................518
Novruz Kamal oğlu Bəkirov ....................519
Faiq Vəlhəm oğlu Əliyev ....................520
Elman Mövlud oğlu Əzizov ....................521
Mübariz Həsən oğlu Məmmədrzayev ....................522





# QƏDİM OĞUZ YURDU – BAŞ LAYISQI

## (Ensiklopedik toplu)

Bakı, "Ozan", 2014

Toplayıcılar: Murad Yusifli
Ayxan Hüseynli
Mürsəl Əhmədli
Vaqif Osmanlı

Korrektorlar: Əfsanə Mübariz qızı
Vüsalə Cabbar qızı

Texniki redaktor: Cəsarət Qasımov
Dizayner: Kamran Məcidov

Çapa imzalanmışdır: 23.10.2014.
Kağız formatı 70x100 1/16. Həcmi 33.
Tirajı 500. Sifariş № 805

mətbəəsində çap olunmuşdur

Azf-281642.

QƏDİM OĞUZ YURDU
**BAŞ LAYISQI**